RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 256 (9423) 24 NOYABR 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Azərbaycanın ədalət çağırışı



## Müstəmləkəçilikdən azad dünya uğrunda

"Azərbaycan kolonializmin hələ də davam etməsindən, xüsusilə koloniyalarda qadın və uşaqların hüquqlarının kobud şəkildə pozulmasından olduqca narahatdır. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir", - deyə Azərbaycan Prezidentinin müraciətində qeyd edilir.

→ 8

## Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycana işgüzar səfərə gəlib

**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev noyabrın 23-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident Şavkat Mirziyoyevi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.



## Qırğızıstan Prezidenti Sadır Japarov Azərbaycana işgüzar səfərə gəlib

**Qırğız Respublikasının Prezidenti Sadır Japarov noyabrın 23-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qırğızıstan Prezidenti Sadır Japarovu hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.



## Azərbaycan tarixi ədaləti bərpa etdi

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Zəfər Günü münasibətilə Azərbaycan hökumətini və xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gün bizə Azərbaycan xalqının doğma Vətənin müdafiəsi uğrunda qəhrəmancasına mübarizəsini xatırladır. Sizin güclü liderliyiniz sayəsində qazandığınız bu strateji Qələbə nəticəsində təkcə Azərbaycan Respublikasının ərazi bütövlüyü deyil, həm də tarixi ədalət bərpa olundu. Builki bayram xüsusi əhəmiyyət daşıyır, belə ki, Azərbaycan qanuni ərazisi olan Qarabağ üzərində tam nəzarəti bərpa edib.

Pakistan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə bundan sonra da davamlı dəstək göstərəcək. Qoy, bu Zəfər regionda sülhü, sabitliyi, inkişafı və rifahı dönməz etsin!

Uzun illərdən bəri yüksələn xətlə inkişaf edən qardaşlıq münasibətlərimizin son vaxtlarda keçirilmiş yüksəksəviyyəli görüşlər və xalqlar arasında təmaslar nəzərə alınmaqla çoxşaxəli əməkdaşlıq vasitəsilə gücləndirilməsi istiqamətində Sizinlə birgə işləməyə ümidvaram.

Zati-aliləri, Sizə olan ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Hörmətlə,

***Arif ALVİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

## İslam birliyinin gücləndirilməsi olduqca vacibdir

### İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin V konfransının iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin V konfransının açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələrə xüsusi əhəmiyyət verir və təşkilat çərçivəsində əməkdaşlığın bütün sahələrdə inkişaf etdirilməsinin tərəfdarıdır. 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilmiş Bakı şəhəri İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin sahəvi nazirlərinin bir çox iclaslarına evsahibliyi etmişdir. Bugünkü konfrans da İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığın genişləndirilməsi və birgə səylərin gücləndirilməsi baxımından böyük önəm daşıyır.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi dünyada İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində təşkilatın səylərini davamlı olaraq dəstəkləyir. Qlobal böhranların, bəşəriyyət qarşısında duran yeni sınaq və çətinliklərin, islamofobiyanın geniş yayıldığı dövrdə müsəlman dövlətlərinin bir-birinə qarşılıqlı dəstək göstərməsi, İslam birliyinin gücləndirilməsi olduqca vacibdir.

2023-cü il Azərbaycan üçün xüsusilə əlamətdar il oldu. Otuz il ərzində ərazilərimizdə mövcud olan "boz zona"nı aradan qaldıraraq və separatizmə son qoyaraq ölkəmizin suverenliyini, konstitusiya quruluşunu bərpa etdik, bununla da beynəlxalq hüququn və ədalətin təntənəsini özümüz təmin etdik.

İslam Əməkdaşlıq Təşkilatı Ermənistanın Azərbaycana qarşı otuz il davam edən təcavüzünü və işğalçı siyasətini hər zaman pisləmiş, həm İkinci Qarabağ müharibəsi zamanı, həm də postmüharibə dövründə Azərbaycanın haqq işini, ərazi bütövlüyünü daim və ardıcıl şəkildə dəstəkləmişdir. Buna görə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərə minnətdarlığımızı bildiririk.

Təəssüflər olsun ki, işğal illərində şəhər və kəndlərimiz Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, mədəni və dini abidələrimiz məhv edilmişdir. Bundan başqa, Ermənistan işğal altında saxladığı ərazilərimizdə ilkin qiymətləndirmələrə görə bir milyona yaxın mina basdırmış, burada urbisid, kultursid və ekosid törətmişdir. Xalqımızın mədəni irsinə qarşı soyqırımı törətmiş ermənilər məscidlərimizi yerlə yeksan edərək yalnız bizim deyil, bütün dünya müsəlmanlarının hisslərini təhqir etmişlər. İslam Əməkdaşlıq Təşkilatı əvvəllər işğal altında olmuş ərazilərimizdə İslam tarixi və mədəni abidələrinin, ziyarətgahlarının Ermənistan tərəfindən dağıdılmasını və talan olunmasını qəti şəkildə pisləmiş, məscidlərin təhqir olunmasını şiddətlə qınamışdır. Buna görə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərə və təşkilatın Baş Katibliyinə bir daha təşəkkürümüzü bildiririk.

Hazırda işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır, vacib infrastruktur layihələri həyata keçirilir. Böyük Qayıdış Proqramı çərçivəsində keçmiş məcburi köçkünlər artıq dədə-baba yurdlarına - Laçın və Füzuli şəhərlərinə, o cümlədən üç kəndə qayıdıblar. 2026-cı ilin sonunadək 140 mindən çox insanın Qarabağa və Şərqi Zəngəzura geri dönməsi nəzərdə tutulur.

Əlamətdar haldır ki, on il əvvəl də Bakıda İslam Əməkdaşlıq Təşkilatının əmək nazirlərinin konfransı keçirilmişdir. Burada qəbul edilən "Çərçivə sənədi"nə əsasən əmək, miqrasiya və sosial müdafiə sahələrində təcrübə mübadiləsinə dair gələcək prioritetlər müəyyən olunmuşdur.

→ 2

## Azərbaycan-Macarıstan əlaqələri uğurla inkişaf edir

### Prezident İlham Əliyev Macarıstanın Baş naziri ilə görüşüb

**Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orban ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Macarıstanın Baş naziri Viktor Orban SPECA-nın Zirvə görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi.

→ 2



## Azərbaycanla region ölkələri arasındakı əməkdaşlıq genişlənir

### Prezident İlham Əliyev BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçanı qəbul edib.**

→ 2



## Ölkəmizlə UNESCAP arasındakı əlaqələr inkişaf etməkdədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katibi xanım Armida Salsiya Alişahbananı qəbul edib.**

→ 2



## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana işgüzar səfəri başlayıb

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev noyabrın 23-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.



## Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycana işgüzar səfərə gəlib

**Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon noyabrın 23-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Tacikistan Prezidenti Emoməli Rəhmonu hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.



# Azərbaycan-Macarıstan əlaqələri uğurla inkişaf edir

## Prezident İlham Əliyev Macarıstanın Baş naziri ilə görüşüb

*Əvvəli 1-ci səh.*

O, Macarıstan xalqının ən xoş arzularını və Azərbaycanın suverenliyinin bərpası, regionda vəziyyətin sabitləşməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev Azərbaycan ilə Macarıstan arasında əlaqələrin və dostluq münasibətlərinin hərtərəfli inkişafından məmnunluğunu ifadə etdi, ölkələrimizin ikitərəfli əsasda və Türk Dövlətləri Təşkilatı çərçivəsində yaxından əməkdaşlıq etdiyini, həmçinin SPECA-nın işbirliyi üçün yeni format yaratdığını vurğuladı.



Viktor Orban Macarıstanın türk ailəsinə yaxınlaşmasında və Türk Dövlətləri Təşkilatı ilə münasibətlərin inkişaf etdirilməsində Azərbaycanın göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan ilə Mərkəzi Asiya ölkələri siyasi, iqtisadi, geosiyasi baxımdan vahid məkanı özündə əhatə edir. Ölkələrimiz arasında iqtisadi inteqrasiya daha da dərinləşir, Mərkəzi Asiyanı Xəzər dənizi və Qara dəniz ilə birləşdirən nəqliyyat, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələrdə yeni əməkdaşıq layihələri və platformaları inkişaf etdirilir.

Azərbaycanın işğaldan azad olunmuş Cəbrayıl rayonunun Soltanlı kəndinin təməlqoyma mərasiminin Macarıstanla birgə həyata keçirilməsinin böyük əhəmiyyətə malik olduğu qeyd edildi, bu layihənin macar şirkətlərinin iştirakı ilə icra olunacağı vurğulandı.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyi qeyd olundu. Azərbaycan ilə Macarıstan arasında iqtisadi-ticari, investisiya əlaqələrinin inkişafından məmnunluq ifadə edildi. Bu baxımdan ölkələrimiz arasında enerji sahəsində icra olunan layihələrin önəmi xüsusi vurğulandı, turizm, əczaçılıq, nəqliyyat-logistika sahələrində və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi.

# Azərbaycanla region ölkələri arasındakı əməkdaşlıq genişlənir

## Prezident İlham Əliyev BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibini qəbul edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Azərbaycanın 1993-cü ildə BMT-nin Avropa üzrə İqtisadi Komissiyasına üzv qəbul olunmasından etibarən ölkəmiz ilə bu təsisat arasında sıx əlaqələrin qurulduğunu deyən dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan bu komissiya ilə ətraf mühitin mühafizəsi, nəqliyyat, gömrük, enerji, Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi və digər sahələrdə uğurlu əməkdaşlıq edir.

Prezident İlham Əliyev BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının nümayəndə heyətlərinin ölkəmizdə Azərbaycanın sədrliyi ilə təşkil olunan beynəlxalq tədbirlərdə iştiraklarını məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı bu xüsusda Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) Zirvə görüşündə BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının və BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katiblərinin iştirakını SPECA çərçivəsində əməkdaşlığa verilən əhəmiyyətin nümunəsi kimi qiymətləndirdi.



Azərbaycan Prezidenti SPECA yarananda üzv ölkələrin müstəqilliklərinin ilk mərhələsində, fərqli geosiyasi və coğrafi mühitdə olduqlarını xatırladı, ötən müddət ərzində üzv ölkələrin müstəqil dövlətlər olaraq uğurlu inkişaf yolu keçdiklərini vurğuladı.

SPECA Zirvə görüşünün Bakıda keçirilməsinin Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın hərtərəfli və dinamik surətdə inkişafının bariz nümunəsi olduğunu deyən Prezident İlham Əliyev son illər ərzində Azərbaycan ilə region ölkələri arasında siyasi, iqtisadi, nəqliyyat və digər sahələrdə əməkdaşlığın genişlənməsini məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı vurğuladı ki, SPECA-nın üzvü olan dövlətlər sıx əməkdaşlıq nəticəsində uğurlu regional model təqdim edirlər. Bu, həmçinin Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin vahid siyasi, iqtisadi və geosiyasi bir məkanı ifadə etmələrinin bariz təzahürü, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı daha da genişləndirmək əzminin və niyyətinin nümunəsidir.

Dəvətə görə təşəkkürünü bildirən Tatyana Molçan Azərbaycanın SPECA-ya uğurlu sədrliyini vurğuladı və ilk dəfə bu formatda Zirvə görüşünün keçirilməsinin mühüm nailiyyət olduğunu dedi.

Azərbaycanın sədrliyi ilə bu çərçivədə əməkdaşlığın daha böyük perspektivlərinin olduğunu qeyd edən qonaq sammitin SPECA-nın yaranmasının 25-ci ildönümünə təsadüf etməsini və bu xüsusda, BMT Baş Assambleyasında SPECA-nın təsis edilməsinə dair qətnamənin qəbul olunmasının əhəmiyyətini vurğuladı.

Tatyana Molçan SPECA-nın Sammitində BMT Baş katibini təmsil etməsindən məmnunluq duyduğunu bildirdi. O, bu sammitin SPECA-ya üzv ölkələr arasında qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi, prioritetlərin və eyni zamanda çağırışların müzakirəsi baxımından böyük əhəmiyyət daşıdığını bildirərək BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının sammit çərçivəsində aparılacaq müzakirələrdə həmsədr qismində iştirakının məmnunluq doğurduğunu dedi.

Görüşdə nəqliyyat dəhlizləri, urban-meşə konsepsiyası və şəhərlərdə yaşıllaşdırmanın artırılması, Azərbaycanın tarazlaşdırılmış və uğurlu şəkildə bərpaolunan və "yaşıl" enerji konsepsiyasına keçidi, bu istiqamətdə ölkəmizin irəli sürdüyü təşəbbüslər ilə bağlı fikir mübadiləsi aparıldı.

Mərkəzi Asiya ölkələri ilə nəqliyyat imkanlarının artırılması, Orta dəhlizin əhəmiyyəti, Azərbaycanın ölkəmizdə və qonşu ölkələrdə nəqliyyat infrastrukturunun inkişafına yatırdığı investisiyalar məmnunluqla qeyd edildi. Bu baxımdan BMT-nin Avropa üzrə İqtisadi Komissiyası ilə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olundu.

Söhbət zamanı "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya" - Espo Konvensiyasının əhəmiyyətinə toxunuldu, bu Konvensiyanın regionda təşviqinin, bölgədə su hövzələrinin və çayların ekoloji təmizliyinin təmin olunmasının, sərhədyanı zonalarda, xüsusilə də mədən sənayesi ilə əlaqədar işlərin aparılmasında qonşu dövlətlərin narahatlıqlarının nəzərə alınmasının vacibliyi qeyd edildi.

# Ölkəmizlə UNESCAP arasındakı əlaqələr inkişaf etməkdədir

## Prezident İlham Əliyev BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katibini qəbul edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Armida Salsiya Alişahbanan BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) 25-ci ildönümündə Azərbaycanda Zirvə görüşünün keçirilməsinin əlamətdar hadisə olduğunu vurğulayaraq, bu münasibətlə ev sahibi və sədr qismində Azərbaycan Respublikasına təbriklərini çatdırdı.

Dövlətimizin başçısı bildirdi ki, ölkəmiz 1992-ci ildə BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasına üzv olub və Azərbaycanın bu təsisatın əksər üzv dövlətləri ilə yüksək səviyyədə siyasi münasibətləri var.



Xüsusilə nəqliyyat, rəqəmsallaşma, enerji sahələrində və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq üçün UNESCAP-ın vacib platforma olduğunu bildirən Prezident İlham Əliyev UNESCAP və SPECA regionları arasında gələcək əməkdaşlıq imkanlarının da mümkünlüyünə toxundu, nəqliyyat sahəsində işbirliyini xüsusilə qeyd etdi.

Dövlətimizin başçısı region ölkələri ilə birlikdə, xüsusən də Orta dəhliz, Xəzər və Qara dənizləri birləşdirən nəqliyyat dəhlizlərinin inkişaf konsepsiyası haqqında məlumat verdi, nəqliyyat daşımalarının rəqəmsallaşdırılması, vahid tarif və standartların tətbiq edilməsinin vacibliyini diqqətə çatdırdı.

Söhbət zamanı ölkəmizin UNESCAP çərçivəsində Trans-Asiya dəmir yolu Sazişi şəbəkəsi, Asiya quru limanları üzrə hökumətlərarası Saziş və digər hökumətlərarası sazişlərdə iştirakı məsələsi qeyd edildi.

Görüşdə ölkəmizlə UNESCAP arasında əlaqələrin genişləndirilməsi və bu təsisatın müvafiq iclaslarının Azərbaycanda keçirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# İslam birliyinin gücləndirilməsi olduqca vacibdir

## İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin V konfransının iştirakçılarına

*Əvvəli 1-ci səh.*

Konfrans çərçivəsində, mənzil-qərargahı Bakıda olmaqla İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin yaradılması təşəbbüsü tərəfimdən irəli sürülmüşdü və bu təşəbbüsü üzv ölkələr yekdilliklə dəstəkləmişlər. Ötən dövrdə İslam Əməkdaşlıq Təşkilatının Bakıda Əmək Mərkəzinin yaradılması istiqamətində mühüm işlər görülmüşdür. Mərkəzin üzv ölkələr arasında əməkdaşlığın daha da güclənməsində vacib rol oynayacağına əminəm.

Bugünkü tədbirin mövzusu innovativ həllərə, eyni zamanda əmək və məşğulluq xidmətlərinin rəqəmsallaşdırılmasına həsr edilib. Müzakirə olunacaq məsələlər hər bir ölkə, o cümlədən Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanda son illər ərzində sosial sahədə rəqəmsallaşma üzrə mühüm işlər görülmüşdür. Dövlət sosial xidmətlərinin innovativ yanaşmalar, müasir texnologiyalar üzərində qurulması, sosial sahədə vətəndaşlara şəffaf, çevik, keyfiyyətli, əlçatan və vətəndaş məmnunluğuna uyğun xidmətlər sisteminin formalaşdırılması sosial islahatlar proqramının əsas hədəflərindən biridir. Bu istiqamətdə "ASAN xidmət" modeli, DOST konsepsiyası, sosial xidmətlərin geniş miqyasda elektronlaşdırılması proqramı həyata keçirilmişdir.

Əmək, məşğulluq və sosial müdafiə sahələrində dövlət xidmətlərinin tam elektronlaşdırılması, bu sahələrdə əhaliyə 140-dan artıq elektron xidmətin göstərilməsi və vahid əmək münasibətləri platforması əhaliyə ciddi dəstək mexanizmini formalaşdırıb. Ölkəmizdə həyata keçirilən kompleks islahatlar nəticəsində məşğulluq imkanları artmış, işsizlik və yoxsulluğun səviyyəsi ciddi şəkildə azalaraq 5,5%-ə düşmüş, sosial ödənişlərdə dəfələrlə artımlar edilmişdir. Təkcə son dörd ildə qəbul edilmiş 4 sosial islahat paketi ilə əhalimizin 40%-i əhatə olunmuş, minimum əməkhaqqı 2,7 dəfə, əməkhaqqı fondu 2,6 dəfə, median əməkhaqqı 2,1 dəfə, minimum pensiya 2,5 dəfə, orta aylıq pensiya isə 2 dəfə artmışdır.

Əminəm ki, bugünkü konfrans İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığın genişləndirilməsinin yeni imkanları ətrafında faydalı fikir mübadiləsi aparmaq və səyləri əlaqələndirmək üçün əhəmiyyətli platforma olacaq, qarşılıqlı faydalı tərəfdaşlığın yeni məzmunla zənginləşməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı çatdırır, konfransın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 noyabr 2023-cü il*

# Macarıstanın Baş naziri Viktor Orban Azərbaycana işgüzar səfərə gəlib

**Macarıstanın Baş naziri Viktor Orban noyabrın 23-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.



Baş nazir Viktor Orbanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

# SPECA Rəhbər Şurasının 18-ci iclası keçirilib

**Bakıda SPECA həftəsi çərçivəsində Rəhbər Şuranın 18-ci iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasın açılışında iqtisadiyyat naziri Mikayıl Cabbarov 32 il öncə müstəqilliyini bərpa edən Azərbaycanın həmin dövrdən başlayaraq beynəlxalq birliyin, o cümlədən BMT-nin fəal və dinamik üzvünə çevrildiyini vurğulayıb. Bu il Azərbaycanın sədrlik etdiyi SPECA-nın önəminə toxunan nazir proqramın regionun inkişafına hərtərəfli yanaşdığını qeyd edib. Bildirilib ki, SPECA ölkələrinin okeana çıxışının olmaması onların nəqliyyat infrastrukturunun və ticarət əlaqələrinin daha da inkişaf etdirilməsinə zəmin yaradıb. Bu baxımdan, Orta dəhlizin önəmi, Azərbaycanın dəhlizin səmərəliliyini və davamlılığını təmin edən əsas katalizator kimi rolu dəyərləndirilib. SPECA ölkələrinin ortaq dəyərləri, zəngin resursları, nəqliyyat, logistika və alternativ enerji potensialı qarşılıqlı faydalı iqtisadi-ticarət əməkdaşlığına münbit zəmin yaradır. Bu kontekstdə rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi də önəmlidir. Azərbaycanla SPECA ölkələri arasında ticarət artan dinamika ilə inkişaf edir, investisiya əməkdaşlığı genişlənir. Artıq Azərbaycan Özbəkistan və Qırğızıstanla birgə investisiya qurumları yaradıb. Digər üzv ölkələrlə birgə investisiya fondlarının yaradılması ikitərəfli əməkdaşlığın şaxələndirilməsinə töhfə verə bilər.

Nazir Azərbaycanın əldə etdiyi sosial-iqtisadi uğurlar barədə məlumat verib. Qeyd edilib ki, son 20 ildə ümumi daxili məhsulumuz 4 dəfə, büdcə gəlirlərimiz 30 dəfədən çox, xarici ticarət dövriyyəmiz isə 10 dəfədən çox artıb. Hazırda xarici borcumuz ÜDM-in 10 faizi civarındadır. Azərbaycanın valyuta ehtiyatları xarici borcunu 10 dəfə üstələyir. Ölkədə təkcə enerji deyil, digər sektorlar üçün də əlverişli investisiya mühiti yaradılıb. Son 20 ildə ümumi investisiyalar 300 milyard dollardan çox olub, bunun 190 milyard dolları qeyri-enerji sektoruna qoyulub. Bununla yanaşı, yeni mərhələdə ölkənin sosial-iqtisadi prioritetləri barədə məlumat verilib, davamlı və innovativ iqtisadi quruculuq planları və atılan addımlar qeyd edilib. Bildirilib ki, azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. İndiyədək bu məqsədlər üçün dövlət büdcəsindən 7 milyard dollar xərclənib. 2024-cü il üçün bu məqsədlə 2,4 milyard dollar ayrılması nəzərdə tutulur.

Qeyd olunub ki, SPECA-nın 25 illik yubileyi münasibətilə dövlət başçılarının SPECA Sammiti keçiriləcək və Rəhbər Şuranın 18-ci iclasında müzakirə olunan məsələlər bu kontekstdə xüsusilə vacibdir.

İqtisadiyyat naziri iclasda aparılan müzakirələr və qəbul edilən qərarların SPECA-nın gələcək dövr üçün kursunu istiqamətləndirəcəyini vurğulayıb.

İclasda Qırğızıstanın iqtisadiyyat və ticarət naziri Daniar Amangeldiyev, Tacikistanın iqtisadi inkişaf və ticarət naziri Zavki Zavkizoda, Özbəkistanın investisiya, sənaye və ticarət naziri Laziz Kudratov, Türkmənistanın maliyyə və iqtisadiyyat nazirinin müavini Begmırat Allakbayev, Qazaxıstanın milli iqtisadiyyat nazirinin müavini Abzal Abdikarimov, BMT-nin Avropa İqtisadi Komissiyasının icraçı katibi Tatyana Molçan və müavini Dmitri Mariyasin, BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katibinin müavini Hirohito Toda, həmçinin tədbirdə müşahidəçi qismində iştirak edən Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto proqram ölkələri arasında müxtəlif istiqamətlər üzrə əməkdaşlığın inkişaf etdiyini, ticarət dövriyyəsinin artdığını, region ölkələri arasında inteqrasiya prosesinin sürətləndiyini vurğulayıblar. Bununla belə, nəqliyyat-tranzit, rəqəmsal transformasiya, "yaşıl" enerji, iqlim dəyişikliyi nəticələrinin aradan qaldırılması, gender məsələləri, dayanıqlı inkişaf və s. istiqamətlər üzrə birgə təşəbbüslərin gücləndirilməsinin vacibliyi qeyd edilib.

Tədbirdə 2023-cü il SPECA İqtisadi Forumunun nəticələri, SPECA Sammitinin keçirilməsi, SPECA üzrə BMT Baş Assambleyasının qətnaməsi, SPECA Nizamnaməsi və gündəlikdə duran digər məsələlər müzakirə edilib.

İclasda 2023-cü il SPECA Rəhbər Şurasının qərarları, İqtisadi Forumunun yekun sənədi, nizamnaməsinə dəyişikliklər qəbul edilib, Proqramın işçi qruplarının 2024-2025-ci illər üzrə iş planı təsdiq olunub. SPECA-nın növbəti sədr ölkəsi Tacikistan seçilib.

# "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasının ərazisindən keçən tranzit dəhlizlərin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, həmin dəhlizlərə əlavə tranzit yüklərin cəlb olunması məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı" (bundan sonra - Fəaliyyət Planı) təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

2.1. Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

2.2. Fəaliyyət Planının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 noyabr 2023-cü il*

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün

# FƏALİYYƏT PLANI

### 1. Qısa xülasə

Azərbaycan Respublikasında nəqliyyat və logistika sahələrinin inkişaf etdirilməsi, nəqliyyat infrastrukturunun müasir tələblərə uyğunlaşdırılması, Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialından tam istifadənin təmin edilməsi ilə bağlı tədbirləri özündə ehtiva edən Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" və 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq edilmişdir.

Son dövrlər regionda baş verən geosiyasi proseslər fonunda Şərqlə Qərb arasında ənənəvi marşrutlarda yaranmış problemlər Azərbaycan Respublikasının ərazisindən keçən dəhlizlər üzrə tranzit yükdaşımaların həcmində kəskin artıma səbəb olmuşdur. Belə ki, 2021-ci illə müqayisədə 2022-ci ildə Azərbaycan Respublikasının ərazisindən keçən tranzit yükdaşımaların (dəmir yolu, dəniz və avtomobil) ümumi həcmi 75 faiz artaraq 10.7 milyon tona çatmışdır. Artan tələbatın qarşılanması, Azərbaycan Respublikasının tranzit potensialının daha da gücləndirilməsi, eləcə də Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün qısa və orta müddətli perspektivdə həyata keçiriləcək tədbirləri özündə ehtiva edən sənədin hazırlanmasına ehtiyac yaranmışdır. Bununla əlaqədar hazırlanmış "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı" (bundan sonra - Fəaliyyət Planı) nəqliyyat sahəsində, xüsusilə tranzit yükdaşımalarında qlobal trendləri nəzərə almaqla mövcud vəziyyətin təhlilini və Azərbaycan Respublikasının tranzit potensialının daha da artırılması üçün hədəf göstəriciləri, məqsədləri, prioritet istiqamətləri və tədbirlər planını özündə ehtiva edir.

### 2. Qlobal trendlər

Beynəlxalq iqtisadi əməkdaşlığın və ticarətin əsas aparıcı elementlərindən biri olan nəqliyyat və logistika əməliyyatları xüsusilə son illərdə yeni istiqamətdə inkişaf edir. Qloballaşma və inteqrasiya proseslərinin sürətlənməsi, yüksək texnologiyaların geniş tətbiqi ilə xarakterizə olunan müasir beynəlxalq ticarət sistemləri bütövlükdə milli iqtisadiyyatın, eləcə də ayrı-ayrı sahələrin qarşısında müəyyən vəzifələr qoyur ki, bu vəzifələrin uğurlu icrasını inkişaf etmiş nəqliyyat şəbəkəsi olmadan təsəvvür etmək mümkün deyil.

Dünyanın ən böyük məsləhətçi şirkətlərinin bu sahədə apardığı araşdırmaya görə, dünya ticarəti 2031-ci ilə qədər illik 2,3 faiz artımla böyüməyə davam edəcəkdir. Milli iqtisadiyyat dəyişən geosiyasi və iqtisadi dinamikaya, o cümlədən inflyasiyaya və yaxın müddətdə potensial tənəzzülə uyğunlaşdıqca, yeni qlobal reallıqlar yaradacaqdır. Belə ki, ABŞ və Çin arasında ticarətin 2031-ci ilə kimi 63 milyard ABŞ dolları azalacağına baxmayaraq, Avropa İttifaqı və Çin arasında ticarət həcmləri qlobal göstəricidən daha yavaş sürətlə olsa da artacaqdır. Bu tendensiyalar Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası (ASEAN), Hindistan və Meksika ilə ticarətin böyüməsinə təkan verəcək.

Ümumiyyətlə, hazırda ticarət qlobal ÜDM-in artım tempindən daha sürətlə inkişaf edir. Bu da beynəlxalq ticarətin gələcək inkişafına istiqamət vermək səlahiyyətinin dövlətlərdən tədricən istehsal prosesinin daha səmərəli təşkilində maraqlı olan transmilli şirkətlərə keçdiyini göstərir. Dövlətlər isə, öz növbəsində, milli maraqların müdafiəsi ilə yanaşı, xarici ticarət iştirakçılarının artan gözləntilərini və müasir çağırışlarını diqqət mərkəzində saxlayırlar.

Beynəlxalq nəqliyyat sistemləri ticarətin ayrılmaz parçası olmaqla bu proseslərin təsiri ilə yeni keyfiyyət əldə edir. Son illərdə qlobal təchizat zəncirində fasiləsizliyin təmin edilməsi, ölkələr arasında ticarətin asanlaşdırılması, malların daşınması zamanı nəqliyyat vasitələrinin sərhədkeçmə prosedurlarının sadələşdirilməsi, risk qiymətləndirilməsi əsasında fiziki yoxlamaların minimuma endirilməsi, eləcə də aidiyyəti dövlət orqanları (qurumları) arasında elektron məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə əməliyyatların optimallaşdırılması tranzit potensialının inkişafı üçün xüsusi əhəmiyyət daşıyır. Dinamik dəyişən dünyanın tələb və gözləntiləri ilə uzlaşmaq üçün bir sıra logistik trendləri, o cümlədən regional qovşaqlar, çevik təchizat zənciri, özəl sərmayələrin dövlət infrastrukturunda iştirakı, eləcə də şəffaf və izləniləbilən tranzit dövriyyəsinin yaradılması kimi trendləri diqqət mərkəzində saxlamaq zəruridir. Bu məqsədlə tranzit daşımaların müasir, avtomatlaşdırılmış və məlumat əsaslı prosesə transformasiyası üçün yüksək texnologiyalardan istifadənin geniş yayılacağı gözlənilir.

Qlobal tədarük zəncirində Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və regional qovşağa çevrilməsi perspektivinin reallaşdırılması istiqamətində hədəflərə nail olmaq üçün güclü infrastrukturun yaradılması, innovativ logistik həlləri təmin edən zonaların inkişaf etdirilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılması xüsusi önəm daşıyır.

Bununla yanaşı, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi üçün nəqliyyat infrastrukturlarının müasirləşdirilməsi, logistika mərkəzlərinin və azad iqtisadi zonaların yaradılması, Azərbaycan Respublikasının normativ hüquqi aktlarının beynəlxalq hüquqi tənzimləmə alətlərinə (konvensiyalara, çoxtərəfli beynəlxalq sazişlərə və s.) uyğunlaşdırılması, həmçinin nəqliyyatda təhlükəsizliyin gücləndirilməsi tədbirləri xüsusi əhəmiyyət kəsb edir. Qlobal trendlərin yaxından izlənilməsi və görülən tədbirlərin bu trendlərə uyğunlaşdırılması ilə Azərbaycan Respublikasının nəqliyyat sisteminin beynəlxalq aləmdə nüfuzunun yüksəldilməsinə nail olmaq, etibarlı, təhlükəsiz, səmərəli və regional sistemlərə inteqrasiya edilmiş tranzit nəqliyyat şəbəkəsi ilə həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətində həyata keçirilən beynəlxalq yükdaşımaların aktiv iştirakçısına çevrilmək hədəfini reallaşdırmaq olar.

### 3. Mövcud vəziyyətin təhlili

Azərbaycan Respublikasında nəqliyyat infrastrukturunun müasir tələblərə uyğunlaşdırılması və tranzit potensialının daha da gücləndirilməsi məqsədilə iri infrastruktur layihələri reallaşdırılmış, Azərbaycan Respublikasının regionun nəqliyyat-logistika mərkəzinə çevrilməsi istiqamətində mühüm işlər görülmüşdür. Bu sahədə düşünülmüş məqsədyönlü dövlət siyasətinin aparılması nəticəsində uğurlu layihələr, o cümlədən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərində vacib infrastruktur obyektləri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, Astara dəmiryol terminalının, Astaraçay üzərində dəmir yolu və avtomobil yolu körpülərinin, eləcə də Rusiya Federasiyası ilə dövlət sərhədində Samur çayı üzərində avtomobil yolu körpüsünün və beynəlxalq əhəmiyyətli avtomobil yollarının yenidən qurulması tədbirləri həyata keçirilmişdir. Bu addımlar isə, öz növbəsində, Azərbaycanın regionda etibarlı və təhlükəsiz tranzit ölkəsinə çevrilməsinə zəmin yaratmışdır.

Bununla yanaşı, Azərbaycan Respublikası beynəlxalq tranzit daşımalarının tənzimləndiyi "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyaya (Yenilənmiş Kyoto Konvensiyası), "BYD Kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında" Gömrük Konvensiyasına, "Sərhədlərdə yüklərin nəzarətdən keçirilməsi şərtlərinin uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyaya, "Konteynerlərə dair Gömrük Konvensiyası"na, "Beynəlxalq yük daşınması müqaviləsi haqqında" Beynəlxalq Konvensiyaya və "Beynəlxalq Dəmir Yolu Yükdaşımalarına dair Saziş"ə qoşulmuşdur.

Azərbaycan Respublikasında dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması sahəsində sərhədkeçmə prosedurlarının və daşıma proseslərinin asanlaşdırılması, habelə bu sahədə fəaliyyət göstərən dövlət qurumları arasında əlaqələndirmə işlərinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 655 nömrəli Fərmanı ilə Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası (bundan sonra - Koordinasiya Şurası) yaradılmışdır. Ötən dövr ərzində Koordinasiya Şurası tərəfindən Azərbaycan Respublikasının mühüm regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilməsi və əsas ticarət marşrutlarından biri kimi beynəlxalq miqyasda etimad qazanması, infrastruktur və əməliyyatlarda təkmilləşdirmə işlərinin mütəşəkkil və səmərəli icrası istiqamətində strategiyanın həyata keçirilməsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi sahəsində bir sıra xüsusi əhəmiyyətli tədbirlər görülmüşdür. Belə ki, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən "Tranzit yüklərin daşınması zamanı əməliyyatların idarəedilməsi üzrə Prosedur Qaydalar" qəbul edilmişdir. Bu prosedur qaydaları beynəlxalq tranzit daşımaları zamanı ayrı-ayrı əməliyyatlar üzrə yerli operatorların üzərinə düşən vəzifələrin beynəlxalq standartlara uyğun şəkildə çevik və operativ icrası, proseslərlə bağlı məlumatların effektiv ötürülməsi kimi vacib məsələləri ehtiva etməklə, əməliyyatların sürət və keyfiyyətində böyük irəliləyişə səbəb olmuşdur. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının (BBDTL) ərazisində, həmçinin Azərbaycan Respublikasının digər dövlət sərhədindən buraxılış məntəqələrində tətbiq edilən prosedurların sadələşdirilməsi, sürətləndirilməsi, şəffaflaşdırılması və avtomatlaşdırılması, tranzit əməliyyatlarının birgə planlaşdırılması və vahid dispetçer mərkəzindən idarəedilməsinin təşkili məqsədilə "Əməliyyat Qərargahı" yaradılmışdır. 2022-ci ilin ikinci yarısından aktiv fəaliyyətə başlayan Əməliyyat Qərargahının gördüyü işlər sayəsində 2022-ci ilin 1-ci rübü ilə müqayisədə BBDTL-də qeyri-əməliyyat vaxtının 60 faiz azaldılması, bərələrin orta körpü və emalı vaxtının 50 faiz azaldılması, BBDTL və Poti (Batumi) limanları arasında vaqonların geridönüş vaxtının 50 faiz azaldılması, Xəzər dənizinin Azərbaycana, Qazaxıstana və Türkmənistana məxsus limanlarında (müvafiq olaraq, BBDTL, Aktau, Kurık və Türkmənbaşı limanları) konteyner sıxlığının aradan qaldırılması, yük axınlarının intensivliyi və hərəkət vektorunun öncədən müəyyən edilməsi təmin olunmuşdur.

Azərbaycan Respublikasının dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yükdaşımalarla bağlı özündə yükdaşımaların vahid tariflərini, sərhədkeçmə prosedurlarını, yükdaşımalar üzrə daşıma qaydalarını və şərtlərini, o cümlədən müqavilələrin şərtlərini və bağlanma qaydasını, Azərbaycan Respublikasının dövlət sərhədindən keçmə zamanı inzibati prosedurlara dair elektron müraciətlərin qəbulu və yüklərin daşınması sahəsində müqavilələrin elektron üsullarla bağlanması imkanlarını, yüklərin izlənməsi və daşıma prosesləri ilə əlaqədar digər məsələləri əks etdirən elektron portalın yaradılması vəzifəsinin icrası üçün vacib ilkin addımlar atılmışdır. İlk növbədə, Koordinasiya Şurası üzvlərinin təmsil olunduğu İşçi qrup yaradılmış, müxtəlif kateqoriyadan olan məhsulların tranziti üçün tələb olunan icazə və lisenziyalar müəyyən edilmiş, tranzit və ticarət üçün zəruri prosedurları özündə cəmləşdirən proseslər xəritəsi hazırlanmışdır. Həmçinin milli elektron portaldan qlobal logistika və ticarət iştirakçıları tərəfindən potensial istifadənin təmin edilməsi üçün beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə bir sıra xarici təşkilat və şirkət nümayəndələri ilə görüşlər keçirilmişdir. Bu görüşlər nəticəsində beynəlxalq platformaya inteqrasiya tələbləri, sənədləşmə prosedurlarının beynəlxalq normalara uyğunlaşdırılması və müxtəlif qlobal portalların hazır şəkildə qoşulmasını ehtiva edən "Platformaların Platforması" konsepsiyasına uyğun elektron portalın hazırlanması üçün əsas parametrlər müəyyən olunmuşdur. Bu istiqamətdəki növbəti addım kimi iştirak edən qurumların sistemlərinin diaqnostikası, inteqrasiya imkanlarının dəyərləndirilməsi və elektron portalın texniki-iqtisadi funksionallıqlarının müfəssəl təsvirini əhatə edən texniki şərtlər toplusu da hazırlanır.

Tranzit yüklərin həcminin və ötən illərlə müqayisəli izlənməsi məqsədilə Koordinasiya Şurasının Katibliyi tərəfindən rüblük və illik olmaqla, elektron və kağız formada hesabatlar hazırlanır və ildə iki dəfə məlumatların Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi təmin olunur.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na əsasən, tranzit daşıma və logistika işinin təkmilləşdirilməsi üçün rəqəmsal texnologiyadan istifadənin genişləndirilməsi məqsədilə müvafiq tədbirlər görülməsinə başlanılmışdır.

### 4. Hədəf göstəriciləri

Fəaliyyət Planının hədəf göstəriciləri mövcud infrastrukturun təkmilləşdirilməsi, tranzit əməliyyatları zamanı inzibati prosedurların optimallaşdırılması, aidiyyəti dövlət orqanları (qurumları) arasında koordinasiyanın yaxşılaşdırılması və vahid platforma üzərindən tətbiqi, tranzit daşımalar zamanı sərhədkeçmə müddətinin minimuma endirilməsi, eləcə də sahə üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi yolu ilə Azərbaycan Respublikasının ərazisindən daşınan tranzit yükdaşımalarının həcminin 2024-2026-cı illər ərzində 2022-ci ilə nisbətən 27 faiz artırılaraq 10.7 milyon tondan 13.6 milyon tona çatdırılmasıdır.

### 5. Məqsədlər

5.1. Fəaliyyət Planının əsas məqsədləri aşağıdakılardır:

5.1.1. mövcud nəqliyyat infrastrukturunun yükötürmə qabiliyyətinin artırılması;

5.1.2. tranzit əməliyyatlar zamanı Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd, gömrük, o cümlədən nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə sürətli keçidin təmin edilməsi;

5.1.3. tranzit yükdaşımalar üzrə əməliyyatların optimallaşdırılması üçün yüksək texnologiyaların və innovativ həllərin tətbiqi;

5.1.4. tranzit daşımalar zamanı dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi;

5.1.5. müvafiq sahə üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi;

5.1.6. tranzit yüklərin daşınması sahəsində fəaliyyət göstərən dövlət orqanları (qurumları) ilə operator və daşıyıcılar arasında əlaqələndirmənin gücləndirilməsi;

5.1.7. Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərindən aktiv istifadənin təşviqi.

### 6. Prioritet istiqamətlər

6.1. Azərbaycanın tranzit potensialından tam istifadənin reallaşdırılmasına təsir edən çatışmazlıqların aradan qaldırılması məqsədilə aşağıdakı prioritet istiqamətlər üzrə işlər həyata keçiriləcəkdir:

6.1.1. fiziki infrastrukturun təkmilləşdirilməsi:

6.1.1.1. əsaslandırma:

6.1.1.1.1. Azərbaycan Respublikasının ərazisindən keçən tranzit dəhlizlərin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, həmin dəhlizlərə əlavə tranzit yük axınlarını cəlb etmək üçün mövcud nəqliyyat xidmətləri və infrastrukturunun yaxşılaşdırılması ilə yanaşı, yeni infrastrukturun yaradılmasına, eləcə də tranzit daşımalar zamanı sərhəd keçid prosedurlarının müddətinin minimuma endirilməsi və buraxılış qabiliyyətinin artırılmasına zərurət vardır;

6.1.1.2. görüləcək tədbirlər:

6.1.1.2.1. "Qırmızı Körpü", "Mazımqara", "Samur", "Biləsuvar", "Astara" və "Şirvanlı" dövlət sərhədindən buraxılış məntəqələrinin buraxılış qabiliyyətinin artırılması, eləcə də sərhəd və gömrük nəzarətinin effektiv şəkildə aparılmasının təmin edilməsi istiqamətində infrastrukturun təkmilləşdirilməsi;

6.1.1.2.2. "Qırmızı Körpü", "Samur", "Mazımqara", "Biləsuvar" dövlət sərhədindən buraxılış məntəqələrinin yaxınlığında yerləşən mövcud terminalların infrastrukturunun təmiri, bərpası və "Qırmızı Körpü" və "Samur" gömrük postlarının yaxınlığında yeni gömrük terminalların (ticarətin asanlaşdırılması mərkəzlərinin) inşası;

6.1.1.2.3. "Şirvanlı" dövlət sərhədindən buraxılış məntəqəsinin potensialından tam istifadənin təmin edilməsi;

6.1.1.2.4. "Yalama", "Böyük Kəsik" və "Astara" dəmiryol dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd mühafizə və gömrük orqanları tərəfindən səmərəli nəzarətin həyata keçirilməsi məqsədilə infrastrukturun təkmilləşdirilməsi;

6.1.1.2.5. Gürcüstanla birlikdə birgə gömrük nəzarətinin həyata keçirilməsi üçün yeni dövlət sərhədindən buraxılış məntəqələrinin inşası;

6.1.1.2.6. İran İslam Respublikası ilə yeni dövlət sərhədində buraxılış məntəqələrinin inşası;

6.1.1.2.7. Ələt-Osmanlı-Astara dəmir yolunun yenidən qurulması;

6.1.1.2.8. Biləcəri stansiyasının çeşidləmə parkında 3-cü dəstənin dartı yollarının və yoldəyişənlərin əsaslı təmiri;

6.1.1.2.9. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında və Hövsan Limanında dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarətinin, eləcə də tranzit yüklərin rəsmiləşdirilməsinin səmərəli qaydada aparılmasını təmin etmək məqsədilə infrastrukturun təkmilləşdirilməsi;

6.1.1.2.10. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında yük terminalının konteyner üzrə yükaşırma qabiliyyətinin artırılması;

6.1.1.2.11. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında idxal və ixrac gömrük rejimi prosedurlarının tətbiqi;

6.1.1.2.12. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında və Dübəndi terminalında dibdərinləşdirmə işlərinin aparılması;

6.1.1.2.13. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində çeşidləmə məntəqəsində əlavə dörd dəmiryol xəttinin və konteyner terminalının tikintisi;

6.1.1.2.14. Baş Ələt dəmiryol stansiyasının əsaslı təmiri;

6.1.1.2.15. Biləcəri-Yalama dəmiryol xətti üzrə kontakt şəbəkə və mikroprosessor əsaslı rabitə-işarəvermə sisteminin yenidən qurulması, Bakı-Böyük Kəsik dəmiryol xəttinin elektrik təchizatı sisteminin yenidən qurulması ilə bağlı işlərin başa çatdırılması, Ucar-Bakı hissəsinin mikroprosessor əsaslı rabitə-işarəvermə sisteminin yenidən qurulması, Yevlax-Böyük Kəsik sahəsində 38 yoldəyişənin və 7 qəbul-göndərmə yolunun əsaslı təmiri;

6.1.1.2.16. magistral lokomotivlərin əsaslı təmiri və bərpası, yenilərinin alınması, habelə manevr lokomotivlərinin əsaslı təmiri;

6.1.1.2.17. qida məhsullarının idxal-ixrac əməliyyatları və tranziti zamanı nəzarətin operativ həyata keçirilməsi məqsədilə dövlət sərhədindən buraxılış məntəqələrinə yaxın ərazilərdə qida təhlükəsizliyi nəzarəti məntəqələrinin qurulması;

6.1.1.2.18. gömrük sərhəd buraxılış məntəqələrində, limanlarda, dəmir yolunda, yükboşaltma stansiyalarında və məntəqələrində nəqliyyat vasitələrinin, yük vaqonlarının, konteynerlərin, gəmilərin dezinfeksiyası, dezinseksiyası və deratizasiyası xidmətlərinin həyata keçirilməsi üçün məntəqələr yaradılması;

6.1.1.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.1.1.3.1. dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarəti effektiv şəkildə təmin ediləcək və onların buraxılış qabiliyyəti artırılacaqdır;

6.1.1.3.2. malların və nəqliyyat vasitələrinin dövlət sərhədindən buraxılış məntəqələrindən keçidi zamanı sıxlıq aradan qaldırılacaqdır;

6.1.1.3.3. yüklü nəqliyyat vasitələrinin sürətli keçidinin təmin olunması yolu ilə Rusiya Federasiyası ilə sərhəddəki digər gömrük sərhəd buraxılış məntəqələrində sıxlıq azaldılacaq, mövsümlə əlaqədar qeyd olunan istiqamətlərdə nəqliyyat vasitələrinin keçidi zamanı yaranan növbə sıxlığı aradan qaldırılacaqdır;

6.1.1.3.4. sərhəd buraxılış məntəqələrində nəzarət gücləndiriləcək və qatarlara baxış vaxtı qısaldılacaqdır;

6.1.1.3.5. dövlət sərhədindən yeni buraxılış məntəqələri tikiləcək və "Orta dəhliz" üzrə alternativ keçid imkanları yaradılacaqdır;

6.1.1.3.6. Zəngilan rayonunun Ağbənd qəsəbəsində, Naxçıvan Muxtar Respublikasının ərazisində və Astara rayonunda dövlət sərhədində yeni buraxılış məntəqələrinin inşasına dair İran İslam Respublikası ilə razılaşdırıldıqdan sonra tikinti işlərinə başlanılacaqdır;

6.1.1.3.7. Ələt-Osmanlı-Astara dəmir yolu yenidən qurulacaqdır;

6.1.1.3.8. Biləcəri stansiyasının çeşidləmə parkında 3-cü dəstənin dartı yollarının və yoldəyişənlərin əsaslı təmiri işləri başa çatdırılaraq, çeşidləmə parkının buraxılış qabiliyyəti və hərəkət tərkibinin təhlükəsizliyi təmin ediləcəkdir;

6.1.1.3.9. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında və Hövsan Limanında dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarəti, eləcə də digər rəsmiləşdirmənin səmərəli qaydada aparılmasını təmin edən infrastruktur yaradılacaqdır;

6.1.1.3.10. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında yük terminalının konteyner üzrə yükaşırma qabiliyyətinin artırılması üçün infrastruktur genişləndiriləcək və zəruri avadanlıqlar alınacaqdır;

6.1.1.3.11. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında idxal, ixrac rejimli yüklər üzrə genişfunksiyalı əməliyyat imkanlarının yaranması nəticəsində Şərq-Qərb istiqamətində yükdaşımalarda konteyner yüklərinin payı artırılacaq, habelə yük avtomobil nəqliyyat vasitələrinin bir mərkəzdə cəmləşməsi (regional qovşaq konsepsiyasına uyğun) təmin ediləcəkdir;

6.1.1.3.12. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Dübəndi Terminalında dibdərinləşdirmə işlərinin aparılması nəticəsində limanın və terminalın akvatoriyasına yükgötürmə qabiliyyəti və suya oturumu daha yüksək olan gəmilərin girişi təmin ediləcəkdir;

6.1.1.3.13. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində çeşidləmə məntəqəsində əlavə dörd dəmiryol xəttinin və konteyner terminalının tikintisi nəticəsində yüklərin çeşidlənməsində operativlik təmin ediləcəkdir;

6.1.1.3.14. Baş Ələt dəmiryol stansiyasının əsaslı təmiri nəticəsində stansiyanın yükötürmə qabiliyyəti artırılacaqdır;

6.1.1.3.15. Biləcəri-Yalama və Bakı-Böyük Kəsik dəmiryol xətlərində infrastrukturun təkmilləşdirilməsi nəticəsində dəmir yollarının qatarburaxma, eləcə də yükdaşıma qabiliyyəti artırılacaqdır;

6.1.1.3.16. magistral lokomotivlərin əsaslı təmiri və bərpası, yenilərinin alınması, habelə manevr lokomotivlərinin əsaslı təmirinin həyata keçirilməsi və nəticədə dəmiryol nəqliyyatı vasitəsilə daşınan tranzit yüklərin həcmi artırılacaqdır;

6.1.1.3.17. dövlət sərhədindən buraxılış məntəqələrinə yaxın ərazilərdə qida təhlükəsizliyi nəzarəti məntəqələrinin qurulması nəticəsində sənədləşmə və sertifikatlaşdırma prosesi səmərəli və sürətli şəkildə həyata keçiriləcəkdir;

6.1.1.3.18. gömrük sərhəd buraxılış məntəqələrində, limanlarda, dəmir yolunda, yükboşaltma stansiyalarında və məntəqələrində nəqliyyat vasitələrinin, yük vaqonlarının, konteynerlərin, gəmilərin dezinfeksiyası, dezinseksiyası və deratizasiyası xidmətlərinin həyata keçirilməsi nəticəsində ərzaq, qida məhsullarının (heyvan və bitki mənşəli), heyvanların, həmçinin yem və yem əlavələrinin daşınması zamanı xəstəlik törədicilərinin yayılmasının qarşısı alınacaqdır;

6.1.1.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.1.4.1. infrastruktur təminatının yaxşılaşdırılması üçün kifayət qədər maliyyə vəsaitinə və digər texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Həmçinin dövlət sərhədindən buraxılış məntəqələrində infrastrukturun yenilənməsi prosesində həyata keçiriləcək layihələrin aidiyyəti dövlət orqanları (qurumları) arasında razılaşdırılmasında gecikmələr baş verə bilər. Bununla əlaqədar, zərurət olduğu təqdirdə, müvafiq işçi qruplar yaradıla, eləcə də Fəaliyyət Planının 7-ci hissəsində qeyd olunan mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

6.1.2. koordinasiya işinin gücləndirilməsi və Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təbliği və təşviqi:

6.1.2.1. əsaslandırma:

6.1.2.1.1. Azərbaycan Respublikasının ərazisindən keçən tranzit dəhlizlərinin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması üçün logistika mərkəzlərinin yaradılmasına, habelə yerli və xarici investisiyaların cəlb edilməsinə zərurət vardır;

6.1.2.1.2. Azərbaycan Respublikasında nəqliyyat sahəsində görülmüş işlərin və əldə edilmiş nailiyyətlərin ümumiləşdirilərək Azərbaycan Respublikasının tranzit potensialının və imkanlarının beynəlxalq səviyyədə təşviq olunması üçün mütəmadi tədbirlərin həyata keçirilməsi, həmçinin mediada məlumatlandırma işinin təşkili zəruridir;

6.1.2.2. görüləcək tədbirlər:

6.1.2.2.1. logistika mərkəzlərində əsas dövlət xidmətlərinin (gömrük, dövlət fitosanitar, baytarlıq) təşkili;

6.1.2.2.2. beynəlxalq tədbirlərdə, habelə xarici dövlətlərin Azərbaycan Respublikasındakı səfirlik və konsulluqlarının nümayəndələri ilə görüşlərdə Azərbaycan Respublikasının tranzit potensialının təqdimatı və alternativ marşrutlara münasibətdə üstünlüklərinin təbliği yolu ilə Azərbaycan Respublikasının ərazisindən keçən dəhlizlərdən istifadənin təşviqi, mütərəqqi islahatların və uğurlu addımların təbliği;

6.1.2.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.1.2.3.1. görülən tədbirlər özəl sektor tərəfindən logistika mərkəzlərinin yaranmasına, yerli və xarici investisiyaların cəlb edilməsinə, eləcə də logistika mərkəzlərində yaradılan əlavə dəyərin həcminin artmasına şərait yaradacaqdır;

6.1.2.3.2. aparılmış uğurlu təbliğ və təşviq nəticəsində Azərbaycan Respublikasının nəqliyyat sisteminə beynəlxalq arenada inam və güvənin artması, Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinə əlavə yüklərin cəlb edilməsi və Azərbaycan Respublikasının tranzit potensialının artırılması təmin ediləcəkdir;

6.1.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.2.4.1. logistika infrastrukturunun lazımi dərəcədə təkmilləşdirilməməsi, habelə yerli və xarici investorlarla əlaqələrin qurulmaması tranzit daşımalar üçün müəyyən edilmiş hədəflərə nail olunmasında ləngimələrə səbəb ola bilər. Regional miqyasda əməkdaşlığa və təhlükəsizliyə töhfə verilməsi baxımından qarşılıqlı faydalı əməkdaşlıq platformaları və mexanizmlər yaradıla bilər;

6.1.2.4.2. təbliğat və təşviqat işinin aktiv şəkildə aparılmaması Azərbaycan Respublikasının ərazisindən keçən dəhlizlərə əlavə yük həcminin cəlb olunmasına mənfi təsir göstərə bilər. Bu risklərin qarşısının alınması məqsədilə beynəlxalq tədbirlərdə, ikitərəfli və çoxtərəfli görüşlərdə, habelə hökumətlərarası komissiyaların iclaslarında Azərbaycan Respublikasının tranzit potensialının və imkanlarının təşviq olunması zəruridir;

6.1.3. normativ hüquqi bazanın təkmilləşdirilməsi:

6.1.3.1. əsaslandırma:

6.1.3.1.1. tranzit yükdaşımaların həcminin artırılması üçün milli qanunvericiliyin beynəlxalq təcrübəyə uyğunlaşdırılması, sənədləşmə qaydalarının tranzit dəhlizləri boyu unifikasiyası, tranzitinə lisenziya və ya icazə tələb olunan mallara dair müvafiq sənədlərin verilməsini tənzimləyən qaydaların, həmsərhəd dövlətlərlə nəzarət prosedurlarının sürətləndirilməsini təmin edəcək beynəlxalq müqavilələrin, eləcə də tranzit yüklərə münasibətdə tarif metodologiyasının hazırlanması zəruridir;

6.1.3.2. görüləcək tədbirlər:

6.1.3.2.1. tranzit daşımalar zamanı prosedurların sadələşdirilməsi məqsədilə normativ hüquqi bazanın beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına dair təkliflərin hazırlanması;

6.1.3.2.2. tranzitinə lisenziya və ya icazə tələb olunan mallara dair müvafiq sənədlərin verilməsini tənzimləyən qaydaların hazırlanması;

6.1.3.2.3. tranzit yüklərə münasibətdə vahid, çevik və şəffaf qiymət siyasətinin müəyyən edilməsi;

6.1.3.2.4. tranzit yük daşımaları ilə və nəqliyyatla bağlı nəqliyyat-yol sənədlərinin təkmilləşdirilməsi;

6.1.3.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.1.3.3.1. normativ hüquqi akt layihələrinin razılaşdırılması və təsdiqi üçün aidiyyəti üzrə təqdim edilməsi təmin ediləcəkdir;

6.1.3.3.2. tranzit yüklərə münasibətdə tarif metodologiyasının tətbiqi nəticəsində dəhlizlər üçün ölkə üzrə vahid, çevik və şəffaf tariflərin tətbiqinə nail olunacaqdır;

6.1.3.3.3. nəqliyyat və sərhəd buraxılış əməliyyatlarına sərf edilən vaxtın minimuma endirilməsini və Azərbaycan Respublikasının tranzit daşımaları üzrə potensialının artırılmasını təmin edəcək normativ hüquqi aktlar qəbul ediləcəkdir;

6.1.3.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.3.4.1. aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində çətinliklər yarana bilər. Texniki tənzimləmənin şamil olunacağı mallara dair müvafiq münasibətlərin hüquqi tənzimlənməsi sahəsində aidiyyəti dövlət orqanlarının (qurumlarının) səlahiyyətləri nəzərə alınmaqla, bir sıra layihələrin razılaşdırılmasında gecikmələr baş verə bilər. Bununla əlaqədar müvafiq işçi qruplar yaradıla bilər.

### 7. Fəaliyyət Planının maliyyələşdirilməsi

Fəaliyyət Planında nəzərdə tutulan tədbirlər Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün ayrılan vəsait və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

*Ardı 4-cü səh.*

# Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024-2026-cı illər üçün

# FƏALİYYƏT PLANI

*Əvvəli 3-cü səh.*

**8. Fəaliyyət Planının həyata keçirilməsi üzrə**
**TƏDBİRLƏR PLANI**

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı | Digər icraçılar | İcra müddəti (illər üzrə) | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticə | aralıq nəticə | yekun nəticə |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| **8.1. Fiziki infrastrukturun təkmilləşdirilməsi** | | | | | | | |
| 8.1.1. | "Qırmızı Körpü", "Mazımqara", "Samur", "Biləsuvar", "Astara" və "Şirvanlı" dövlət sərhədindən buraxılış məntəqələrinin buraxılış qabiliyyətinin artırılması, eləcə də sərhəd və gömrük nəzarətinin effektiv şəkildə aparılmasının təmin edilməsi istiqamətində infrastrukturun təkmilləşdirilməsi | DGK | DSX , İN, RİNN, "ADY" QSC | 2024-2026 | "Qırmızı Körpü", "Mazımqara", "Samur", "Biləsuvar", "Astara" və "Şirvanlı" dövlət sərhədindən buraxılış məntəqələrində infrastrukturun yenilənməsi üzrə layihə-smeta sənədlərinin hazırlanması və aidiyyəti dövlət orqanlarından (qurumlarından) rəylər alınması | infrastrukturun yenilənməsinə dair layihələrin icrasına başlanılması | dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarətinin effektiv şəkildə təmin edilməsi və onların buraxılış qabiliyyətinin artırılması |
| 8.1.2. | "Qırmızı Körpü", "Samur", "Mazımqara", "Biləsuvar" dövlət sərhədindən buraxılış məntəqələrinin yaxınlığında yerləşən mövcud terminalların infrastrukturunun təmiri, bərpası və "Qırmızı Körpü" və "Samur" gömrük postlarının yaxınlığında yeni gömrük terminallarının (ticarətin asanlaşdırılması mərkəzlərinin) inşası | DGK | İN, RİNN | 2024-2026 | layihə-smeta sənədlərinin hazırlanması və aidiyyəti dövlət orqanlarından (qurumlarından) rəylər alınması | mövcud infrastrukturun yenilənməsi və yeni gömrük terminallarının inşasına dair layihələrin icrasına başlanılması | malların və nəqliyyat vasitələrinin dövlət sərhədindən buraxılış məntəqələrindən keçidi zamanı sıxlığın aradan qaldırılması |
| 8.1.3. | "Şirvanlı" dövlət sərhədindən buraxılış məntəqəsinin potensialından tam istifadənin təmin edilməsi | DGK | DSX, İN, RİNN | 2024-2025 | yüklü nəqliyyat vasitələrinin buraxılışı ilə əlaqədar "Şirvanlı" dövlət sərhədindən buraxılış məntəqəsinin infrastrukturunun yenidənqurulması ilə bağlı Rusiya Federasiyası tərəfi ilə danışıqların aparılması və nəticədən asılı olaraq təkliflər hazırlanması | danışıqların nəticəsinə uyğun olaraq, dövlət sərhədindən buraxılış məntəqəsinin fəaliyyətinin gücləndirilməsi üçün müvafiq işlərin həyata keçirilməsi | yüklü nəqliyyat vasitələrinin sürətli keçidinin təmin olunması yolu ilə Rusiya Federasiyası ilə sərhəddəki digər gömrük sərhəd buraxılış məntəqələrində sıxlığın azaldılması, mövsümlə əlaqədar qeyd olunan istiqamətlərdə nəqliyyat vasitələrinin keçidi zamanı yaranan növbə sıxlığının aradan qaldırılması |
| 8.1.4. | "Yalama", "Böyük Kəsik" və "Astara" dəmiryol dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd mühafizə və gömrük orqanları tərəfindən səmərəli nəzarətin həyata keçirilməsi məqsədilə infrastrukturun təkmilləşdirilməsi | DGK | DSX, "ADY" QSC, RİNN, İN | 2024-2026 | infrastrukturun təkmilləşdirilməsi ilə bağlı zəruri işlərin müəyyən edilməsi və layihə-smeta sənədlərinin hazırlanması | infrastrukturun təkmilləşdirilməsi ilə bağlı işlərin həyata keçirilməsi | sərhəd buraxılış məntəqələrində nəzarətin gücləndirilməsi və qatarlara baxış vaxtının qısaldılması |
| 8.1.5. | Gürcüstanla birlikdə birgə gömrük nəzarətinin həyata keçirilməsi üçün yeni dövlət sərhədindən buraxılış məntəqələrinin inşası | DGK | DSX, İN, RİNN | 2024-2026 | yeni dövlət sərhədindən buraxılış məntəqələrinin tikintisi ilə bağlı təkliflər hazırlanması, maliyyə və smeta xərclərinin müəyyənləşdirilməsi, layihələndirilmə işlərinin aparılması | yeni dövlət sərhədindən buraxılış məntəqələrinin tikintisi üzrə işlərə başlanılması | tranzit daşımalar zamanı alternativ keçid imkanının yaradılması |
| 8.1.6. | İran İslam Respublikası ilə yeni dövlət sərhədində buraxılış məntəqələrinin inşası | DGK | DSX, İN, RİNN, "ADY" QSC | 2024-2026 | | | |
| 8.1.7. | Ələt-Osmanlı-Astara dəmir yolunun yenidən qurulması | "ADY" QSC | RİNN, İN | 2024-2026 | tikinti işləri ilə bağlı təkliflərin, layihə-smeta sənədlərinin və icra qrafikinin hazırlanması | Ələt-Osmanlı-Astara dəmir yolunun tikinti işlərinə başlanılması | Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin buraxılış qabiliyyətinin artırılmasına imkan yaradılması |
| 8.1.8. | Biləcəri stansiyasının çeşidləmə parkında 3-cü dəstənin dartı yollarının və yoldəyişənlərin əsaslı təmiri | "ADY" QSC | RİNN, İN | 2024-2025 | | layihə-smeta sənədlərinə və icra qrafikinə uyğun olaraq tikinti işlərinə başlanılması | layihə-smeta sənədlərinə və icra qrafikinə uyğun tikinti işlərinin başa çatdırılması və çeşidləmə parkının buraxılış qabiliyyətinin, həmçinin hərəkət tərkibinin təhlükəsizliyinin təmin edilməsi |
| 8.1.9. | Bakı Beynəlxalq Dəniz Ticarət Limanında və Hövsan Limanında dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarətinin, eləcə də tranzit yüklərin rəsmiləşdirilməsinin səmərəli qaydada aparılmasını təmin etmək məqsədilə infrastrukturun təkmilləşdirilməsi | BBDTL, BHBTDL | RİNN, İN, DSX, DGK | 2024-2025 | müvafiq infrastrukturun təkmilləşdirilməsinə dair aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə təkliflər hazırlanması | təkliflər əsasında müəyyən edilmiş işlərin icrasına başlanılması | müvafiq limanlarda dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarəti, eləcə də digər rəsmiləşdirmənin səmərəli qaydada aparılmasını təmin edən infrastrukturun yaradılması |
| 8.1.10. | Bakı Beynəlxalq Dəniz Ticarət Limanında yük terminalının konteyner üzrə yükaşırma qabiliyyətinin artırılması | BBDTL | İN, RİNN | 2024-2025 | ağır yüklər terminalında konteynerlərin aşırılması üçün infrastrukturun genişləndirilməsi ilə bağlı layihələndirmə işlərinin həyata keçirilməsi | layihənin hazırlanması və avadanlıqların alınması ilə bağlı müqavilələr imzalanması | ağır yüklər terminalına mobil konteyner kranı, terminal traktorları və digər avadanlıqların quraşdırılması |
| 8.1.11. | Bakı Beynəlxalq Dəniz Ticarət Limanında idxal və ixrac gömrük rejimi prosedurlarının tətbiqi | DGK | RİNN, BBDTL | 2024-2025 | BBDTL-in ərazisində tranzit yüklərin həcminin və idxal, ixrac rejimli yüklər üzrə əməliyyat imkanlarının artırılması üçün təkliflər hazırlanması | Şərqdən Qərbə daşınan açıq yüklərin Qərb ölkələrinə çatdırılmasında konteynerlərin rolunun artırılması və eləcə də yerli daşıyıcıların Gürcüstanın Poti və Batumi şəhərləri istiqamətində yükdaşımalarda (xüsusən də konteyner yüklərinin daşınmasında) payının artması | limanda idxal, ixrac rejimli yüklər üzrə genişfunksiyalı əməliyyat imkanlarının yaranması, konteyner, habelə yük avtomobil nəqliyyat vasitələrinin vahid mərkəzdə cəmləşməsinin (regional qovşaq konsepsiyasına uyğun) təmin edilməsi |
| 8.1.12. | Bakı Beynəlxalq Dəniz Ticarət Limanında və Dübəndi Terminalında dibdərinləşdirmə işlərinin aparılması | BBDTL | İN, RİNN, SOCAR, ASCO | 2024-2026 | dibdərinləşdirmə işlərinin aparılması üçün layihə-smeta xərclərinin müəyyənləşdirilməsi, layihələndirmə işlərinin aparılması | Dübəndi Neft Terminalının maneəsiz giriş-çıxışı üçün imkan yaradılması və Ələt qəsəbəsində yerləşən BBDTL-in giriş kanalına gəmilərin ikitərəfli təhlükəsiz giriş-çıxışının təmin edilməsi məqsədilə dibdərinləşdirmə işlərinin aparılması | limanın və terminalın akvatoriyasına suya oturumu daha yüksək olan gəmilərin girişinin təmin edilməsi;<br>limanın və terminalın yükaşırma qabiliyyətinin artırılması |
| 8.1.13. | Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində çeşidləmə məntəqəsində əlavə dörd dəmir yolu xəttinin və konteyner terminalının tikintisi | "ADY" QSC | BBDTL, RİNN, İN | 2024-2025 | layihə-smeta sənədlərinin və icra qrafikinin hazırlanması | layihə-smeta sənədlərinə və icra qrafikinə uyğun tikinti işlərinə başlanılması | konteyner terminalının və dəmiryol xətlərinin tikintisinin başa çatdırılması, artan yük həcmlərinin çeşidlənməsinin operativliyinin təmin edilməsi |
| 8.1.14. | Baş Ələt dəmiryol stansiyasının əsaslı təmiri | "ADY" QSC | RİNN, İN | 2024-2025 | | | stansiyanın yükötürmə qabiliyyətinin artırılması |
| 8.1.15. | Biləcəri-Yalama dəmiryol xətti üzrə kontakt şəbəkə və mikroprosessor əsaslı rabitə-işarəvermə sisteminin yenidən qurulması, Bakı-Böyük Kəsik dəmiryol xəttinin elektrik təchizatı sisteminin yenidən qurulması ilə bağlı işlərin başa çatdırılması, Ucar-Bakı hissəsinin mikroprosessor əsaslı rabitə-işarəvermə sisteminin yenidən qurulması, Yevlax-Böyük Kəsik sahəsində 38 yoldəyişənin və 7 qəbul-göndərmə yolunun əsaslı təmiri | "ADY" QSC | RİNN, İN | 2024-2026 | | | Biləcəri-Yalama və Bakı-Böyük Kəsik dəmiryol xətlərində planlaşdırılan işlərin icra qrafikinə uyğun tamamlanması, dəmir yollarının qatarburaxma, eləcə də yükdaşıma qabiliyyətinin artırılması |
| 8.1.16. | Magistral lokomotivlərin əsaslı təmiri və bərpası, yenilərinin alınması, habelə manevr lokomotivlərinin əsaslı təmiri | "ADY" QSC | RİNN, İN | 2024-2026 | 7 ədəd magistral lokomotivin alınması, 6 ədəd magistral elektrovozun, 6 ədəd magistral və 16 ədəd manevr teplovozunun əsaslı təmiri | 4 ədəd magistral elektrovozun, 5 ədəd magistral və 16 ədəd manevr teplovozunun əsaslı təmiri | "ADY" QSC-nin lokomotiv parkının yenilənməsinin (7 ədəd magistral lokomotivin alınması, 10 ədəd magistral elektrovozun, 11 ədəd magistral və 32 ədəd manevr teplovozunun əsaslı təmirinin başa çatdırılması) təmin edilməsi və nəticədə daşınan tranzit yüklərin həcminin artırılması |
| 8.1.17. | Qida məhsullarının idxal-ixrac əməliyyatları və tranziti zamanı nəzarətin operativ həyata keçirilməsi məqsədilə dövlət sərhədindən buraxılış məntəqələrinə yaxın ərazilərdə qida təhlükəsizliyi nəzarəti məntəqələrinin qurulması | AQTA | İN, DGK, RİNN | 2024-2026 | qida təhlükəsizliyi nəzarəti məntəqələrinin qurulmasına dair təkliflərin aidiyyəti dövlət orqanlarından (qurumlarından) alınması və layihələrin hazırlanması | qida təhlükəsizliyi nəzarəti məntəqələrinin qurulmasına dair layihələrin icrası | qida təhlükəsizliyi nəzarətinin, habelə sənədləşmə və sertifikatlaşdırma prosesinin səmərəli və sürətli şəkildə həyata keçirilməsi |
| 8.1.18. | Gömrük sərhəd buraxılış məntəqələrində, limanlarda, dəmir yolunda, yükboşaltma stansiyalarında və məntəqələrində nəqliyyat vasitələrinin, yük vaqonlarının, konteynerlərin, gəmilərin dezinfeksiyası, dezinseksiyası və deratizasiyası xidmətlərinin həyata keçirilməsi üçün məntəqələr yaradılması | KTN | DGK, "ADY" QSC, RİNN, DSX, ASCO, BBDTL, AQTA | 2024-2025 | dezinfeksiya, dezinseksiya və deratizasiya xidmətlərinin həyata keçirilməsi məntəqələrinin yaradılması üçün təkliflər hazırlanması | maddi-texniki təchizatının təmin edilməsi və məntəqələrin fəaliyyətə başlaması | çevik baytarlıq xidməti göstərilərək ərzaq, qida məhsullarının (heyvan və bitki mənşəli), heyvanların, həmçinin yem və yem əlavələrinin daşınması zamanı xəstəlik törədicilərinin yayılmasının qarşısının alınması |
| **8.2. Koordinasiya işinin gücləndirilməsi və Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təbliği və təşviqi** | | | | | | | |
| 8.2.1. | Logistika mərkəzlərində əsas dövlət xidmətlərinin (gömrük, dövlət fitosanitar, baytarlıq) təşkili | İN | KTN, DGK, AQTA | 2024-2026 | gömrük, dövlət fitosanitar, baytarlıq sahələrində xidmətlərin logistika mərkəzlərində təşkilinə dair təkliflər hazırlanması | müəyyən edilmiş logistika mərkəzlərində dövlət xidmətlərinin təşkil olunması məqsədilə tədbirlərin həyata keçirilməsi | özəl sektorun logistika mərkəzlərinə marağının artırılması, yerli və xarici investisiyaların cəlb edilməsinə zəmin və yeni logistika mərkəzlərinin yaranmasına təkan verilməsi, logistika mərkəzlərində yaradılan əlavə dəyərin həcminin artmasına şərait yaradılması |
| 8.2.2. | Beynəlxalq tədbirlərdə, habelə xarici dövlətlərin Azərbaycan Respublikasındakı səfirlik və konsulluqlarının nümayəndələri ilə görüşlərdə Azərbaycan Respublikasının tranzit potensialının təqdimatı və alternativ marşrutlara münasibətdə üstünlüklərinin təbliği yolu ilə Azərbaycan Respublikasının ərazisindən keçən dəhlizlərdən istifadənin təşviqi, mütərəqqi islahatların və uğurlu addımların təbliği | RİNN | XİN, TYKŞ, "ADY" QSC, ASCO, BBDTL | mütəmadi | Azərbaycan Respublikasında nəqliyyat sahəsində görülmüş işlərin və əldə edilmiş nailiyyətlərin, beynəlxalq nəqliyyat dəhlizləri üzrə əsaslandırıcı məlumatların əks olunduğu broşürlərin və maarifləndirici materialların hazırlanması və dərc olunması | beynəlxalq əhəmiyyətli tədbirlərdə və görüşlərdə Azərbaycan Respublikasının tranzit imkanlarının təbliğ edilməsi, tranzit potensialının beynəlxalq səviyyədə təşviq olunması üçün müvafiq məlumatların beynəlxalq mediada mütəmadi işıqlandırılması və bu məqsədlə tədbirlərin təşkil edilməsi | Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizləri barədə müfəssəl məlumatların hədəf auditoriyaya çatdırılması yolu ilə dəhlizlərin cəlbediciliyinin artırılması |
| **8.3. Normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | | | | | | |
| 8.3.1. | Tranzit daşımalar zamanı prosedurların sadələşdirilməsi məqsədilə normativ hüquqi bazanın beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına dair təkliflər hazırlanması | NK | ƏN, İN, RİNN, DGK, TYKŞ | 2024-2025 | müvafiq sahədə beynəlxalq təcrübənin öyrənilməsi və normativ sənədlərin layihəsinin hazırlanması ilə bağlı aidiyyəti dövlət orqanlarından (qurumlarından) təkliflər alınması | beynəlxalq təcrübə nəzərə alınmaqla normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı layihələr hazırlanması | normativ hüquqi akt layihələrinin razılaşdırılması və təsdiqi üçün aidiyyəti üzrə təqdim edilməsi |
| 8.3.2. | Tranzitinə lisenziya və ya icazə tələb olunan mallara dair müvafiq sənədlərin verilməsini tənzimləyən qaydaların hazırlanması | İN | RİNN, ƏN, DGK | 2024 | | tranzitinə lisenziya və ya icazə tələb olunan mallara dair müvafiq sənədlərin verilməsini tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə layihələrin hazırlanması | normativ hüquqi akt layihələrinin razılaşdırılması və təsdiqi üçün aidiyyəti üzrə təqdim edilməsi |
| 8.3.3. | Tranzit yüklərə münasibətdə vahid, çevik və şəffaf qiymət siyasətinin müəyyən edilməsi | RİNN | İN, MN | mütəmadi | tranzit yüklərin daşınmasında tətbiq edilən qiymət siyasəti ilə bağlı xarici ölkələrin təcrübəsinin araşdırılması, təkliflərin aidiyyəti dövlət orqanlarından (qurumlarından) alınması və təhlili | tranzit yüklərə münasibətdə tarif metodologiyasının layihəsinin hazırlanması | yeni tarif metodologiyasının tətbiqi nəticəsində tranzit yüklərə münasibətdə vahid, çevik və şəffaf tariflərin tətbiqinə nail olunması |
| 8.3.4. | Tranzit yükdaşımaları, nəqliyyat və nəqliyyat ekipajları ilə bağlı nəqliyyat-yol sənədlərinin təkmilləşdirilməsi | RİNN | ƏN, "ADY" QSC | 2024-2025 | tranzit yükdaşımaları ilə və nəqliyyatla bağlı tətbiq edilən nəqliyyat-yol sənədləri barədə beynəlxalq təcrübənin araşdırılması və təkliflərin aidiyyəti dövlət orqanlarından (qurumlarından) alınması | təkliflərin təhlili və nəqliyyat-yol sənədlərinin layihəsinin hazırlanması | nəqliyyat və sərhəd buraxılış əməliyyatlarına sərf edilən vaxtın minimuma endirilməsini və Azərbaycan Respublikasının tranzit daşımaları üzrə potensialının artırılmasını təmin edəcək normativ sənədlərin qəbul edilməsi |

**AKRONİMLƏR**

**NK** - Azərbaycan Respublikasının Nazirlər Kabineti
**RİNN** - Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
**İN** - İqtisadiyyat Nazirliyi
**XİN** - Xarici İşlər Nazirliyi
**KTN** - Kənd Təsərrüfatı Nazirliyi
**ƏN** - Ədliyyə Nazirliyi
**MN** - Maliyyə Nazirliyi
**DGK** - Dövlət Gömrük Komitəsi
**DSX** - Dövlət Sərhəd Xidməti
**AQTA** - Qida Təhlükəsizliyi Agentliyi
**"ADY" QSC** - "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti
**ASCO** - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
**BBDTL** - "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti
**BHBTDL** - "Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı" Açıq Səhmdar Cəmiyyəti
**SOCAR** - Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti
**TYKŞ** - Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası.

# Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasının və Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş səfirlərini qəbul edib

**Noyabrın 23-də Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov ilə görüşüb.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı səmimiyyətlə salamlayan Milli Məclisin Sədri onu Azərbaycanda səfir kimi diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib, gələcək fəaliyyətində uğurlar diləyib.

Görüşdə diplomatik münasibətlərin qurulmasından ötən 30 il ərzində ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlər üzrə - siyasi, iqtisadi, humanitar və mədəni sahələrdə, habelə regional əməkdaşlıq və nəqliyyat sahələrində uğurla inkişaf etdiyi qeyd olunub. Dövlət başçılarının yüksəksəviyyəli qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin, müntəzəm təmasların, həmçinin müxtəlif sahələrdə imzalanan çoxsaylı sənədlərin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət etdiyi diqqətə çatdırılıb. Bildirilib ki, siyasi və iqtisadi sahələrdəki sıx əməkdaşlıq humanitar sahədə də əlaqələrin genişlənməsinə öz müsbət təsirini göstərməkdədir. Belə əlaqələrin xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına xidmət etdiyinə inam ifadə olunub.

İki ölkə arasında əlaqələrin möhkəmləndirilməsində parlamentlərin önəmli rol oynadığını vurğulayan spiker Milli Məclis ilə Federal Məclis arasında əməkdaşlıq üzrə Parlamentlərarası komissiyanın fəaliyyətinə toxunub, parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin qanunvericilik sahəsində informasiya və təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Sahibə Qafarova müxtəlif vaxtlarda Rusiya Federasiyası Federal Şurasının Sədri Valentina Matviyenko və Dövlət Dumasının sədri Vyaçeslav Volodin ilə qarşılıqlı səfərlər və müxtəlif beynəlxalq tədbirlər çərçivəsində keçirdiyi görüşlərin əhəmiyyətini vurğulayıb, bu təmasların parlamentlərarası əməkdaşlığın genişləndirilməsi baxımından vacib olduğunu deyib. Bildirilib ki, sonuncu belə görüş cari ilin 6 noyabr tarixində Bişkekdə keçirilən MDB PA-nın tədbirləri çərçivəsində Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə baş tutub və görüşdə parlamentlərarası əlaqələrin mövcud vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Cari ilin 15 may tarixində Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək məqsədilə Rusiyaya etdiyi işgüzar səfərini məmnuniyyətlə xatırladan Sahibə Qafarova bu ölkədə keçirilən tədbirləri xalqımızın Ümummilli Liderinə göstərilən hörmət və yüksək ehtiramın təzahürü kimi dəyərləndirib.

Söhbət zamanı regionda yaranmış yeni reallıqlar barədə danışılıb, Azərbaycanın sülhün və təhlükəsizliyin təmin olunmasında maraqlı olduğu, bu istiqamətdə atdığı addımlardan bəhs olunub.

Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov səmimi görüşə görə minnətdarlığını bildirib. O, Rusiya ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin dinamik inkişaf etdiyini, xalqlarımız arasında dostluq münasibətlərinin olduğunu söyləyib. Parlamentlərarası əməkdaşlığın bu əlaqələrin genişləndirilməsində mühüm rol oynadığını söyləyib. Səfir diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə dövlətlərarası və parlamentlərarası əməkdaşlığın inkişaf perspektivləri və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Elə həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfiri İssam bin Saleh əl-Cuteyli ilə görüşüb.

Spiker Sahibə Qafarova qonağı səmimi salamlayaraq, onu Azərbaycana səfir təyin olunması münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.

Qeyd olunub ki, Azərbaycan Respublikası dost və qardaş Səudiyyə Ərəbistanı Krallığı ilə əlaqələrin inkişafına xüsusi önəm verir. Xalqlarımızın tarixi, dini və mədəni köklərlə bir-birinə bağlı olduğunu deyən Sahibə Qafarova Azərbaycanın müstəqillik əldə etməsindən sonra iki ölkə arasında yaranan diplomatik münasibətlərin əlaqələrimizi keyfiyyətcə yeni səviyyəyə yüksəltdiyini bildirib.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1994-cü ildə Səudiyyə Ərəbistanına səfərinin münasibətlərimizin inkişafına təkan verdiyini deyən Milli Məclisin Sədri, Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına səfərləri çərçivəsində keçirilən görüşlərin və ölkələrimiz arasında imzalanmış sənədlərin münasibətlərimizin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirdiyini diqqətə çatdıraraq ölkələrimizin bir-birinə daha da yaxınlaşmasında, ikitərəfli əlaqələrin inkişafında ali və yüksək səviyyəli səfərlərin müstəsna rolunu xüsusi vurğulayıb.

Görüşdə Səudiyyə Ərəbistanının beynəlxalq təşkilatlar çərçivəsində ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə və sərhədlərinin toxunulmazlığına verdiyi dəstək yüksək qiymətləndirilib, Səudiyyə Ərəbistanının Azərbaycan torpaqlarını işğalına görə Ermənistanla diplomatik əlaqələr qurmaqdan imtina etməsi xalqımıza və dövlətimizə göstərilən böyük mənəvi dəstək və qardaşlığın yüksək təzahürü olduğu bildirilib .

Azərbaycanla Səudiyyə Ərəbistanı arasında münasibətlərin hərtərəfli inkişafı, xüsusən də iqtisadi, təhsil, elm, mədəniyyət və digər sahələrdə əməkdaşlığımızın daha da genişləndirilməsi imkanlarından söz açan Sahibə Qafarova ölkələrimizin dostluq əlaqələrinin dərinləşdirilməsində ali qanunverici orqanların rolundan danışıb. Milli Məclisin Sədri Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin işində fəal iştirakına görə Səudiyyə Ərəbistanı Krallığının parlamentinə təşəkkürünü bildirib, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığının inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfiri İssam bin Saleh əl-Cuteyli iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olmasını qeyd edib, müxtəlif sahələrdə, o cümlədən qanunverici orqanlar arasında əməkdaşlığın xalqlarımızın maraqlarına uyğun olduğunu vurğulayıb, dostluq və əməkdaşlıq əlaqələrinin inkişafı ilə bağlı fikirlərini səsləndirib.

Söhbətdə parlamentlərarası təmasların, iqtisadi münasibətlərin, ticarət əlaqələrimizin təşviqi sahəsində yeni əməkdaşlıq imkanları və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Əməkdaşlıq protokolu imzalanıb

**Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Türkiyə Respublikasının Antalya şəhərində "Qadın və kişilər üçün bərabər imkanların təmin edilməsi və qadınların səlahiyyətlərinin artırılması" mövzusunda keçirilən konfransda iştirak edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Türkiyə Böyük Millət Məclisinin evsahibliyi ilə keçirilən konfrans çərçivəsində "Qərarvermə mexanizmlərində qadınların iştirakı", "Qadınların gücləndirilməsində və qadınlar və kişilər üçün bərabər imkanların təmin edilməsində təhsilin rolu", "İş-həyat balansı və ailəyə uyğun siyasət və təcrübələr", "İctimai və özəl sektorda qadınlar və kişilər üçün bərabər imkanların əldə edilməsində imkanlar və çətinliklər" və "Mediada qadın hüquqlarının və uğurlu hekayələrin təşviq edilməsi" mövzularında panel müzakirələr keçirilib. Panellərdə Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) üzv ölkələrinin müvafiq komitələrindən parlamentarilər və digər ekspertlər üzv dövlətlərdə qadın və kişilər üçün bərabər imkanların təmin edilməsi və qadınların səlahiyyətlərinin artırılması məsələləri ətrafında fikir mübadiləsi aparıblar.



Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova konfransın açılışında çıxış edib, Milli Məclisin Sədri Sahibə Qafarovanın salamlarını və konfrans iştirakçılarına Azərbaycan tərəfinin mesajlarını çatdırıb. O, panellərin işinə qatılaraq müzakirə olunan mövzularla bağlı ölkəmizdə həyata keçirilən dövlət siyasəti, formalaşmış qanunvericilik bazası, əldə olunan nailiyyətlər və qarşıda dayanan vəzifələr haqqında ətraflı məlumat verib.

Toplantı çərçivəsində Türkiyənin Ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaşın iştirakı ilə Milli Məclisin komitə sədri Hicran Hüseynova və TBMM komissiya sədri Çiğdem Erdoğan Atabek tərəfindən "Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsi və Türkiyə Böyük Millət Məclisinin Qadınlar və kişilər üçün bərabər imkanların təmin edilməsi komissiyası arasında əməkdaşlıq protokolu imzalanıb.

***"Azərbaycan"***

# Zabuxa qayıdan ailələrin sayı 121-ə çatdı

**Vətən müharibəsindən sonra qalib ölkə kimi Azərbaycanın qarşısında duran ən önəmli məsələ işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılması və keçmiş məcburi köçkünlərin dədə-baba yurdlarına qovuşması idi.**



Zəfərdən ötən üç il ərzində Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri dövlət başçısının birbaşa nəzarəti ilə sürətlə davam edir. Xarabazara çevrilmiş şəhərlər, kəndlər yenidən tikilir, vətəndaşlarımız tədricən dədə-baba yurdlarına qovuşurlar.

Dünən daha 93 nəfərin yurd həsrəti başa çatdı. Daha 25 ailə Laçın rayonunun Zabux kəndinə köçdü.

## Zabuxluların sevincinin hədd-hüdudu yoxdur

Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Doğma yurda qayıdan zabuxlular hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Bununla da, Zabux kəndində 121 ailənin, yəni 475 nəfərin daimi məskunlaşması təmin edilib.

Bu günü üç onillikdir ki gözləyən zabuxlular öz təəssüratlarını bölüşüblər. İkinci Qarabağ müharibəsində iştirak etdiyini bildirən kənd sakini Arzuman Vəliyev şəhidlərimizə Allahdan rəhmət diləyib, onların valideynlərinə təşəkkür edib: "Onlar Vətən uğrunda şəhid oldular. Bu gün bizim sevincimizə səbəb, Laçına qayıtmaq arzumuzu reallaşdıran şəhidlərimizdir. Vətən uğrunda canından keçən qəhrəmanlarımıza borcluyuq. Ata yurdum Laçını heç vaxt görməsəm də, bu qayıdışa çox sevinirəm. Arzu edirəm ki, bütün məcburi köçkünlər öz doğma el-obalarına qayıtsınlar".

Keçmiş məcburi köçkün Kəmalə Əliyeva söyləyir ki, bu gün doğma obalarına Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, şəhidlərimizin şücaəti, qazilərimizin məğrurluğu sayəsində qayıdırlar: "Zabux kəndi ilə bağlı mənim uşaqlıq xatirələrim hələ də ağlımdadır. Biz hər il milli bayramlarımızı kənd camaatı ilə birgə ocaq başına yığılaraq qeyd edərdik. Arzumdur ki, bu gözəl günü, Böyük qayıdışı otuz iki ildir gözləyən digər keçmiş məcburi köçkünlər də yaşasınlar".

Zabuxa ailəsi ilə birlikdə köçdüyünü deyən Aytəkin Nuriyeva hazırda yaşadıqları sevinc hissinin əbədi olması üçün daim dua etdiyini bildirir: "Övladlarım da buna çox sevinirlər. Çünki onlara tez-tez öz ata yurdumla bağlı olan xatirələrimi danışırdım".

## Kənddə müasir infrastruktur qurulub

İşğaldan azad edilmiş ərazilərin bərpası müasir yanaşmalar əsasında həyata keçirilir. Yaşayış məntəqələri "ağıllı şəhər" və "ağıllı kənd" konsepti ilə qurulur və burada sakinlərin rahatlığı üçün hər cür şərait yaradılır. Yaşayış yerlərinin inşası ilə yanaşı, Qarabağ və Şərqi Zəngəzurda irimiqyaslı layihələr də həyata keçirilir. Görülən işlərin miqyası isə olduqca böyükdür. Regionda beynəlxalq hava limanları, avtomobil və dəmir yolları, körpülər, tunellər, su anbarları, elektrik enerjisi stansiyaları, içməli su xətləri, sosial-iqtisadi infrastrukturların yaradılması Azərbaycan dövlətinin iqtisadi gücündən xəbər verir.

İnnovativ texnologiyalardan, həmçinin Laçın şəhərinin və Zabux kəndinin bərpasında da geniş istifadə olunub. Zabuxda tikinti-quruculuq işlərinə martda start verilib. Aparılan işlər birbaşa dövlət başçısının nəzarəti altında həyata keçirilir. Bu il mayın 27-də Prezident İlham Əliyev Zabuxa səfər edərək kənddə aparılan tikinti-quruculuq işlərinin gedişi ilə maraqlanıb.

Kənddə fərdi evlər, uşaq bağçası tikilib, yol infrastrukturu qurulub, kanalizasiya, su, işıqlandırma sistemi çəkilib, abadlıq işləri görülüb, park salınıb. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi inşa edilib. Ümumi sahəsi 81 hektar olan Zabux kəndinə ümumilikdə 245 ailənin köçürülməsi nəzərdə tutulur. İlkin mərhələdə kəndə 223 ailə köçürüləcək.

Qeyd etmək lazımdır ki, Zabuxa ilk köç karvanı avqustun 25-də yola salınıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# ABŞ-nin aqressiv münasibəti cavabsız qalmayacaq

**ABŞ tamam fərqli siyasət seçib və Azərbaycanla ikitərəfli əlaqələrin qorunmasına deyil, münasibətlərin gərginləşməsinə üstünlük verib. Bu cür aqressiv münasibət isə təbii ki, cavabsız qala bilməzdi. Rəsmi Bakının ABŞ-nin bu siyasətinə sərt və qətiyyətli reaksiyası bir daha onu göstərdi ki, kimliyindən asılı olmayaraq, Azərbaycan onunla ultimatum dilində danışanlara və milli maraqlarına qarşı çıxanlara adekvat cavab verməyə gücündədir.**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azay Quliyev bildirib. Onun sözlərinə görə, noyabrın 15-də ABŞ Konqresinin Xarici əlaqələr komitəsində xəyali "Dağlıq Qarabağın" gələcəyi ilə bağlı keçirilən absurd dinləmələr zamanı dövlət katibinin köməkçisi Ceyms Obrayn ölkəsinin Azərbaycana qarşı planlarını açıqladı. Bəlli oldu ki, ABŞ Azərbaycanın sentyabrın 19-20-də həyata keçirdiyi antiterror tədbirləri nəticəsində suverenliyini tam bərpa etməsindən, Ermənistanın ölkəmizdəki qeyri-qanuni silahlı birləşmələrinin tərk-silah olunmasından və yaratdığı separatçı rejimə son qoyulmasından, o cümlədən 30 ildir blokadada olan Naxçıvanla İran üzərindən dəmir və avtomobil yolları vasitəsilə əlaqə yaratması təşəbbüsündən bərk narahatdır. Ona görə də rəsmi Vaşinqton Azərbaycana məhz BMT Nizamnaməsinə uyğun ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyinə görə yüksəksəviyyəli təmasları dayandırır, ölkəmizə birbaşa yardımı qadağan edən 907-ci düzəlişi işə salır, Ermənistanı isə birtərəfli şəkildə dəstəkləyərək işğalçı ölkəyə hərbi yardım göstərəcək.

"ABŞ-nin bu cür absurd, qeyri-dost, qərəzli və irrasional qərarlarına görə heç kim təəccüblənmədi. Çünki biz ABŞ-nin ölkəmizə birbaşa yardımını qadağan edən "Azadlığa dəstək aktı"na etdiyi həmin 907-ci düzəlişin 1992-ci ildə, Ermənistanın işğalına məruz qaldığımız bir vaxtda qəbul etdiyini, 2020-ci ilə qədər Qarabağdakı separatçıların təşkilatlanması üçün hər il milyonlarla dollar yardım ayırdığını və ATƏT-in Minsk qrupu vasitəsilə işğalın nəticəsini legitimləşdirməyə çalışdığını unutmamışıq", - deyə deputat bildirib.

Azay Quliyev deyib ki, uzun illər ərzində ABŞ və Fransanın hazırladıqları məkrli planları 2020-ci ildə məhv edən və torpaqlarının azadlığını təmin edən Azərbaycanın bu tarixi qələbəsini ABŞ və Fransa həzm edə bilmir: "Fransanın ardından ABŞ də siyasi riyakarlıq və ikili yanaşma sərgiləyərək ölkəmizə qarşı haqsızlıq edir. Bu ölkə 1992-ci ildə Azərbaycana qarşı həyata keçirdiyi yanlış siyasəti təkrarlamaqla çox ciddi strateji səhvə yol verir. Çünki ölkəmiz artıq 1992-ci ildəki zəif, siyasi xaosun və hakimiyyət böhranının hökm sürdüyü Azərbaycan deyil, indiki Azərbaycan həm güclü Liderə, güclü dövlətə və orduya malikdir, həm cəmiyyətdə sarsılmaz milli birlik və siyasi həmrəylik mövcuddur, həm də Türkiyə kimi dünyada söz sahibi olan təbii müttəfiqə sahibdir".

Deputatın sözlərinə görə, ümumiyyətlə, ABŞ-nin qərarlarının praqmatik cəhətdən nə izahı, nə də geosiyasi maraqlar baxımdan onun özünə faydası var. Sual yaranır ki, əgər bəzi ekspertlərin dediyi kimi, ABŞ Ermənistanı birtərəfli şəkildə dəstəkləməklə onu Rusiyanın təsirindən və forpostu olmaqdan çıxartmaq istəyirsə, bunu niyə Azərbaycanın milli maraqlarını təhdid etmək və münasibətləri korlamaq hesabına etməlidir? Onsuz da Azərbaycan Qarabağı azad etməklə və münaqişəyə son qoymaqla Ermənistana fəaliyyət azadlığı verib. Sağlam məntiq onu diktə edir ki, məhz buna görə Qərb və ABŞ Azərbaycana minnətdar olmalı, Cənubi Qafqazın ən güclü dövləti ilə strateji münasibətlərini daha da dərinləşdirməlidirlər.

Azay Quliyev vurğulayıb ki, bütün hallarda ABŞ-nin riyakar davranışları cavabsız qalmadı və bundan sonra da qalmayacaq: "Birincisi, Azərbaycan Ermənistanla sülh danışıqlarının Vaşinqton platformasından və noyabrın 20-də hər iki ölkənin xarici işlər nazirlərinin ABŞ-də nəzərdə tutulan görüşündən imtina etdi. ABŞ sülh müqaviləsinin şərtlərini və imzalanma yerini diktə etmək gücündə olan Azərbaycanı narazı salmaqla, ona ciddi geosiyasi dividend qazandıra biləcək vasitəçilik missiyasından məhrum edildi".

Deputat əlavə edib ki, ABŞ dövlət departamentinin 907-ci düzəlişi işə salmaqla ölkəmizə birbaşa yardımı qadağan etməsi də bizim üçün heç nəyi dəyişməyəcək: "Azərbaycan nə maliyyə, nə də hərbi yardım baxımından ABŞ-dən asılıdır. Ölkəmiz keçmiş münaqişənin nəticələrinin aradan qaldırılmasında, Ermənistan tərəfindən dağıdılmış 300-dən çox şəhər və kəndimizin yenidən qurulmasında və minalardan təmizlənməsində heç kimdən, o cümlədən ABŞ-dən yardım almayıb. Ona görə də Azərbaycana tətbiq ediləcək yardım sanksiyası ilk növbədə elə Vaşinqtonun tez-tez istinad etdiyi ABŞ-nin milli maraqlarına zərbə vura bilər. Bu mənada, itirən ABŞ olacaq".

Azay Quliyev onu da qeyd edib ki, James Obreynin Azərbaycanın İran üzərindən 30 ildir blokadada olan Naxçıvanla dəmir və avtomobil yolları vasitəsilə əlaqə yaratmasının ABŞ üçün qəbuledilməz olduğu haqqında dedikləri də digər məsələlər kimi ölkəmiz tərəfindən birmənalı şəkildə rədd edildi. Kommunikasiya xətlərinin haradan və necə aparılması haqqında qərarı yalnız Azərbaycanın özü verir və bu, onun suveren haqqıdır.

"İstənilən halda münasibətlərin korlanması Azərbaycanın seçimi olmayıb, bu səbəbdən əlaqələrin bərpası da ABŞ-nin arsuzu ilə olmalıdır. Bəllidir ki, Bakının qətiyyətli addımları Vaşinqtonu çətin duruma salıb və əvvəlki münasibətlər təcili bərpa olunmazsa, ABŞ Azərbaycanda strateji tərəfdaş kimi statusunu və nüfuzunu tezliklə itirə bilər", - deyə deputat yekunda bildirib.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Azərbaycan Prezidenti: "Ərazi bütövlüyümüzü qorumaq üçün daha güclü olmalıyıq"




**"Biz görürük ki, dünyada qaydalar tamamilə pozulub, davranış qaydalarına, beynəlxalq hüquqa əməl edilmir. Biz, demək olar ki, bunu hər gün görürük, hər gün. Böyük dövlətlər, hansılar ki beynəlxalq hüququn təminatçısı rolunu öz üzərinə götürüblər, birinci onlar bu hüququ pozurlar və sonra da onu əsaslandırırlar.**

Ölkələr deyəndə mən bütün böyük ölkələri nəzərdə tuturam. Necə deyərlər, hərəsi öz xətti ilə ya konvensiyaları pozur, ya beynəlxalq hüquq normalarını pozur, ya da oturuşmuş beynəlxalq davranış qaydalarını pozur və bunu heç gizlətmir də. Ona görə də biz ilk növbədə özümüzü qorumaq üçün, öz müstəqilliyimizi qorumaq üçün, seçimimizi qorumaq üçün, həyat tərzimizi qorumaq üçün, ərazi bütövlüyümüzü qorumaq üçün daha güclü olmalıyıq. İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz dayanmadan bu istiqamətdə çox ciddi addımlar atmışıq və mən bunu artıq bildirmişəm, bir də demək istəyirəm: bu gün Azərbaycan Silahlı Qüvvələri daha böyük hərbi potensiala malikdir".

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 129-cu kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı söyləyib.

AZƏRTAC xəbər verir ki, çoxcildliyin yeni kitabında toplanmış materiallar 2023-cü ilin may-iyul aylarını əhatə edir. Bu kitaba Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfərinə, Prezident Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimində iştirakına, həmçinin Azərbaycana dövlət səfərinə gəlmiş Prezident Rəcəb Tayyib Ərdoğanla görüşünə, liderlərin mətbuata bəyanatlarla çıxışlarına, Bakıda Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılış mərasimində iştirakına dair materiallar daxil edilib.

Prezident İlham Əliyevin Pakistan Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə, Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə görüşləri haqqında informasiya və mətbuata bəyanatlarının mətnləri də yeni kitabda verilib.

Bu nəşrdə Azərbaycan Prezidentinin "Avropa siyasi birliyi" 2-ci Zirvə toplantısında iştirak etmək üçün Moldovaya işgüzar səfəri, Kişineuda keçirdiyi görüşlər, Belçika Krallığına işgüzar səfəri haqqında materiallar da yer alıb.

Çoxcildliyin 129-cu kitabında dövlətimizin başçısının Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılış mərasimində iştirakı haqqında materiallarla da tanış olmaq mümkündür.

Yeni nəşrdə Prezident İlham Əliyevin Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə birgə Zəngilan rayonuna səfərinə, Cəbrayılda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin açılış mərasimində iştirakına dair informasiyalar da verilib.

Dövlətimizin başçısının Bakıda keçirilən "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə çıxışının mətni də oxuculara 129-cu kitabda təqdim edilib.

Prezident İlham Əliyev həmçinin Cəlilabad, Füzuli rayonlarına səfər edib, Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığınaq kəndlərini ziyarət edib, Şuşa şəhərinə gedib, 90 çarpayılıq Şuşa şəhər xəstəxanasının, 1 nömrəli tam orta məktəbin binalarında tikinti işlərinin gedişi ilə tanış olub, habelə "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində iştirak edib və jurnalistlərin suallarını cavablandırıb. Yeni kitaba bununla bağlı materiallar daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 129-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 425** **QƏRAR** **Bakı şəhəri, 22 noyabr 2023-cü il**

### "Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 dekabr tarixli 269 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 934 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi haqqında Əsasnamə"nin 14-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 dekabr tarixli 269 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1108; 2014, № 8, maddə 1006; 2017, № 4, maddə 638; 2018, № 9, maddə 1912) 1-ci hissəsinin "Kollegiyanın üzvləri:" bölməsi aşağıdakı redaksiyada verilsin:

**"Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisinin müavini

Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Arxiv işinin təşkili, monitorinq və beynəlxalq əlaqələr şöbəsinin müdiri

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Milli Arxiv Fondu sənədlərinin komplektləşdirilməsi, qeydiyyatı və idarə arxivləri ilə iş şöbəsinin müdiri

Azərbaycan Respublikası Dövlət Arxivinin direktoru

Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin direktoru.".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# YAP ilə VKP arasındakı əlaqələr Azərbaycan-Vyetnam münasibətlərinin mühüm tərkib hissəsidir

**Noyabrın 22-də Vyetnam Sosialist Respublikasında səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti ilə Vyetnam Kommunist Partiyasının (VKP) Siyasi Bürosunun üzvü, Mərkəzi Komitəsinin Katibliyinin daimi üzvü və Təşkilat Komissiyasının sədri xanım Çionq Txi May arasında görüş keçirilib.**



Nümayəndə heyətini salamlayan Çionq Txi May Azərbaycanla Vyetnamın bir-birinin maraqlarına hörmət edən dost ölkə olduqlarını, çoxşaxəli münasibətlərin inkişafının məmnunluq doğurduğunu qeyd edib. O, "İstər dövlətlər, istərsə də partiyalar arasında hər bir təmas ümumi hədəflərimizə, ilk növbədə münasibətlərin inkişafına yönəlib və əməkdaşlığın genişlənməsinə xidmət edir" deyib.

Azərbaycanın qazandığı nailiyyətlərin dost Vyetnam xalqını sevindirdiyini bildirən Çionq Txi May ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin əsasının Vyetnam xalqının Lideri Ho Şi Min və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayıb. O bildirib ki, müasir dövrdə dövlət başçılarının diqqəti sayəsində inkişafa hədəflənən bərabərhüquqlu işbirliyinin gücləndirilməsi milli maraqlarımıza cavab verməklə uğurlu nəticələr vəd edir.

2017-ci ilin sentyabr ayında Azərbaycanda səfərdə olduğunu qeyd edən Çionq Txi May Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayıb və səfərin xoş təəssüratlarla yadda qaldığını diqqətə çatdırıb. O, Azərbaycan Prezidentinin həm ölkələrimiz, həm də partiyalarımız arasında münasibətlərin inkişafına xüsusi diqqət yetirməsinin böyük önəm daşıdığını vurğulayıb.

YAP ilə VKP arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyətinə diqqəti yönəldən Çionq Txi May "Əminəm ki, Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin ölkəmizə səfəri faydalı olacaq, hərtərəfli əməkdaşlığa stimul verəcək. Xüsusilə də bu səfər çərçivəsində partiyalarımız arasında Əməkdaşlıq Sazişinin imzalanması hər iki tərəf üçün yeni imkanlar yaradır. Ümid edirəm ki, bundan sonra da birlikdə addımlayaraq yeni uğurlar qazanacaq, dostluq münasibətlərimizin daha da möhkəmlənməsinə nail olacağıq ",- deyə bildirib.

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tarixi köklərə əsaslanan Azərbaycan-Vyetnam münasibətlərinin konstruktiv xarakter daşıdığını,



dostluq əlaqələrinin möhkəmlənməsi və əməkdaşlığın dərinləşməsi fonunda mühüm perspektivlər vəd etdiyini diqqətə çatdırıb. Azərbaycanın Cənubi Qafqaz regionunda, Vyetnamın isə Cənub-Şərqi Asiyada aparıcı mövqelərə malik olduğunu söyləyən Tahir Budaqov hər iki ölkənin milli maraqlara və müasir çağırışlara əsaslanan siyasət həyata keçirməklə davamlı sosial-iqtisadi inkişafı təmin etdiyini bildirib. O, iqtisadi-ticari, mədəni-humanitar, təhsil, turizm, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, prioritet hədəflərin reallığa çevrilməsi üçün böyük potensialın olduğunu diqqətə çatdırıb: "Sizin də qeyd etdiyiniz kimi, ölkələrimiz arasında uzunmüddətli dostluq münasibətlərinin təməli xalqlarımızın öndərləri tərəfindən yaradılıb. Xalqlarımızın taleyində və dövlətçilik tariximizdə müstəsna yeri olan dahi liderlərin - Ho Şi Minin 1959-cu ildə Azərbaycana, Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfəri tariximizin önəmli və parlaq səhifələrindəndir. Qeyd etmək istəyirəm ki, Heydər Əliyevin səfəri o zaman təkcə SSRİ-Vyetnam münasibətlərinin inkişafı baxımından deyil, eyni zamanda Azərbaycan və Vyetnam xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi nöqteyi-nəzərindən böyük əhəmiyyət daşımışdır. Müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycanın müstəqilliyinin bərpasından sonra ölkəmizə rəhbərlik etdiyi dövrdə də Vyetnam ilə münasibətlərin inkişafına ciddi diqqət yetirib".

Tahir Budaqov müasir dövrdə Azərbaycan-Vyetnam münasibətlərinin tarixi ənənələrə söykəndiyini və yeni çağırışlar əsasında inkişaf etdiyini bildirib. Prezident İlham Əliyevin 2014-cü ildə Vyetnama, Vyetnamın ozamankı Prezidenti Truong Tan Sangın isə 2015-ci ildə Azərbaycana səfərini xatırladan YAP Sədrinin müavini deyib: "Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Vyetnamla əməkdaşlığın dərinləşdirilməsinə xüsusi diqqət yetirir. İki ölkənin fəal siyasi dialoqu tərəflər arasında çoxşaxəli işbirliyinin dərinləşməsini şərtləndirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Biz ikitərəfli əlaqələrimizin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, mədəni-humanitar, təhsil və digər sahələrdə inkişafına böyük əhəmiyyət veririk". Dövlətlərimiz eyni zamanda beynəlxalq müstəvidə də bir-birinin maraqlarının müdafiəsinə böyük önəm verir, çoxşaxəli qarşılıqlı münasibətlərin milli mənafelər və beynəlxalq hüquq normaları əsasında inkişafını zəruri hesab edir".

Daimi təmasların istər ölkələr, istərsə də siyasi partiyalar arasında münasibətlərin inkişafına töhfə olduğunu söyləyən Tahir Budaqov qarşılıqlı səfərlərin önəminə diqqəti cəlb edib: "Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasındakı əlaqələr Azərbaycan-Vyetnam münasibətlərinin mühüm tərkib hissəsidir. Ötən il Vyetnam Kommunist Partiyasının nümayəndə heyətinin ölkəmizə səfərini məmnunluqla xatırlatmaq istəyirəm. Həmin səfər zamanı biz səmərəli fikir mübadiləsi apardıq, əlaqələrin genişləndirilməsi istiqamətində ardıcıl fəaliyyətin davam etdirilməsinin, yeni təşəbbüslərin irəli sürülməsi və reallaşdırılmasının vacibliyini bildirdik. Xüsusi vurğulamaq istəyirəm ki, Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Vyetnama hazırkı səfəri çərçivəsində faydalı təmaslarımız, məhsuldar görüşlərimiz oldu. YAP ilə VKP arasında Əməkdaşlıq Sazişi imzalamaqla dostluq və tərəfdaşlıq əlaqələrinin əsaslarını möhkəmləndirdik və işbirliyinin yeni istiqamətlərini müəyyənləşdirdik. Heç şübhəsiz, sazişdən irəli gələn vəzifələrin icra olunması səmərəli nəticələr verəcək, yeni nailiyyətlər qazanaraq qarşılıqlı faydalı əməkdaşlığımızı daha da gücləndirəcəyik".

YAP Sədrinin müavini hər iki ölkənin parlamentləri arasında əlaqələrin sıxlaşdırılmasının Azərbaycan-Vyetnam münasibətlərinin inkişafı baxımından önəmli olduğunu diqqətə çatdırıb.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində müasir texnologiyalardan istifadə etməklə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin aparıldığını bildirən YAP Mərkəzi Aparatının rəhbəri Vyetnam şirkətlərinin də bu prosesdə iştirakının arzuedilən olduğunu söyləyib. Tahir Budaqov yeni çağırışlar və reallıqlar fonunda Azərbaycan-Vyetnam münasibətlərinin uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsi müdirinin müavini Hülya Məmmədli daxildir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın inkişaf modeli Vyetnamda böyük maraq doğurur

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Vyetnam Sosialist Respublikasına səfəri çərçivəsində noyabrın 22-də Quanq Nin Vilayəti Xalq Komitəsinin sədri Kao Tuonq Huy ilə görüş keçirilib.**





Nümayəndə heyətini salamlayan Kao Tuonq Huy əvvəlcə Quanq Nin vilayəti haqqında ətraflı məlumat verib. O, Vyetnam ilə Azərbaycan arasında əməkdaşlığın hər iki ölkənin milli maraqlarına xidmət etdiyini, fəal siyasi dialoqun bütün sahələrdə əlaqələrin inkişafı üçün etibarlı zəmin yaratdığını qeyd edib.

Vyetnamın ölkəmizlə münasibətlərin inkişafına, çoxşaxəli işbirliyinə önəm verdiyini diqqətə çatdıran Kao Tuonq Huy Azərbaycanın inkişaf modelinin böyük maraq doğurduğunu söyləyib. O, iki ölkənin regionları arasında da səmərəli işbirliyinin formalaşdırılmasının vacib və perspektivli olduğunu deyib.

Kao Tuonq Huy Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası (VKP) arasında əlaqələrin genişləndirilməsinin ölkələrimizin mənafelərinə cavab verdiyini bildirib. Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin səfəri çərçivəsində YAP ilə VKP arasında Əməkdaşlıq Sazişinin imzalanmasının əhəmiyyətindən bəhs edən Kao Tuonq Huy partiyalar arasında sıx əməkdaşlığın Azərbaycan-Vyetnam münasibətlərinə dinamizm gətirəcəyinə inamını ifadə edib.

Qonaqpərvərliyə görə nümayəndə heyəti adından minnətdarlığını bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan ilə Vyetnamın bir-birinin maraqlarına hörmət edən dost ölkələr olduğunu söyləyib. YAP Sədrinin müavini bildirib ki, iki ölkə arasında bir çox sahədə səmərəli əməkdaşlıq əlaqələri formalaşdırılıb və işbirliyinin genişləndirilməsi üçün real imkanlar mövcuddur.

Azərbaycanın regionlarının dinamik inkişafa və geniş potensiala malik olduğunu qeyd edən YAP Sədrinin müavini iki ölkənin bölgələri arasında da əməkdaşlığın perspektivli olduğunu, bu məsələnin xüsusi diqqət mərkəzində saxlanılmasının əhəmiyyətini diqqətə çatdırıb.

Bu gün yüksələn xətt üzrə inkişaf edən Azərbaycan-Vyetnam münasibətlərində partiyalararası əlaqələrin mühüm rol oynadığını diqqətə çatdıran Tahir Budaqov qarşılıqlı səfərlərin həm təcrübə mübadiləsi, həm də sistemli əməkdaşlıq üçün önəmli olduğunu vurğulayıb. O, YAP ilə VKP arasında Əməkdaşlıq Protokolu imzalanması ilə ikitərəfli münasibətlərdə keyfiyyətcə yeni mərhələnin əsasının qoyulduğunu, qarşılıqlı öhdəliklərin yerinə yetirilməsi nəticəsində əlaqələrin dinamik inkişaf edəcəyini bildirib.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# *Peter SİYARTO:* "Macarıstan Azərbaycanla münasibətlərin daha da inkişafında maraqlıdır"

**Noyabrın 23-də xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) çərçivəsində görüşlərdə və sammitdə iştirak məqsədilə ölkəmizdə səfərdə olan Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Macarıstan arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri, o cümlədən cari regional vəziyyət müzakirə edilib.

Azərbaycan və Macarıstan arasında siyasi, iqtisadi, nəqliyyat, ticarət, enerji təhlükəsizliyi, təhsil, humanitar və digər sahələr üzrə əməkdaşlığın yüksələn xətt üzrə inkişafı məmnunluqla qeyd edilib. İki ölkə arasında enerji təhlükəsizliyi, o cümlədən alternativ enerji sahəsində əməkdaşlığın inkişafı vurğulanıb.

Nazir Ceyhun Bayramov həmçinin postmünaqişə dövründə regionda mövcud vəziyyət, sülh gündəliyinin irəli aparılması istiqamətində Azərbaycan tərəfindən atılmış son addımlar və sülh prosesinin perspektivləri, ölkəmizin mövqeyi barədə qonağa məlumat verib. Eyni zamanda işğaldan azad olunmuş ərazilərdə Azərbaycan tərəfindən aparılan bərpa və yenidənqurma işlərində macar şirkətlərinin iştirakı təqdirəlayiq hesab edilib.

Nazir Peter Siyarto Macarıstanın Azərbaycanla strateji xarakter daşıyan münasibətlərin daha da inkişafında maraqlı olduğunu, bu xüsusda mövcud potensialdan istifadənin zəruriliyini qeyd edib. İkitərəfli iqtisadi komissiya üzrə aparılan işlərdən məmnunluq ifadə olunub. Avropanın enerji təhlükəsizliyində Azərbaycanın roluna istinad edən nazir Peter Siyarto bu xüsusda həyata keçirilən birgə layihələrin əməkdaşlığa töhfəsini vurğulayıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə UNECE arasında əməkdaşlığın perspektivləri müzakirə edilib

**Noyabrın 23-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) həftəsi çərçivəsində ölkəmizdə səfərdə olan BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçan ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə UNECE arasında əməkdaşlıq gündəliyi və perspektivləri, eləcə də SPECA daxil olmaqla, ölkəmizin Orta Asiya ilə əlaqələri və bu çərçivədə UNECE-nin mümkün rolu müzakirə olunub.

Nazir Ceyhun Bayramov UNECE-nin əhatə dairəsinə daxil olan ətraf mühit, enerji, şəhər planlanması və s. istiqamətlərdə birgə səylərin artırılmasının vacibliyini vurğulayıb. SPECA-nın əsasının qoyulmasından etibarən ölkəmizin bu platforma çərçivəsində fəaliyyətə fəal töhfə verdiyini, bu istiqamətdə, xüsusilə Mərkəzi Asiya ölkələri ilə üçtərəfli əməkdaşlıq formatlarının mövcudluğunun birgə uğurlu layihələrin həyata keçirilməsinə daha böyük təkan verdiyini diqqətə çatdırıb.

SPECA ölkələri ilə müxtəlif, o cümlədən iqtisadi, ticarət, enerji təhlükəsizliyi, alternativ enerji mənbələri, nəqliyyat, kommunikasiyalar, ətraf mühit, innovasiyalar, dayanıqlı inkişaf məqsədləri və digər sahələrdə faydalı əməkdaşlıq gündəliyinin mövcudluğu məmnunluqla qeyd olunub. Xüsusilə regional nəqliyyat və kommunikasiya xətlərinin inkişafı, o cümlədən Orta dəhlizin imkanlarının genişləndirilməsi sahəsində mövcud təşəbbüslər və layihələrin əhəmiyyəti vurğulanıb.

2023-cü ildə SPECA-ya sədrliyimiz dövründə bu platforma çərçivəsində əməkdaşlığın gücləndirilməsi, habelə SPECA ölkələrinin ikitərəfli, regional və beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində Azərbaycanın səylərindən bəhs edən nazir Ceyhun Bayramov Bakıda keçirilən SPECA həftəsi çərçivəsində baş tutacaq SPECA Sammitinin bu səylərin vacib nəticələrindən biri olduğunu qeyd edib.

Tatyana Molçan Azərbaycanın SPECA-ya sədrliyi dövründə onun müasir dövrün çağırışlarına uyğun platformaya çevrilməsi istiqamətində göstərdiyi səylərin təqdirəlayiq olduğunu diqqətə çatdırıb. Bu istiqamətdə növbəti gün Bakıda keçiriləcək SPECA Zirvə görüşünün regional və beynəlxalq çağırışların fonunda Proqram çərçivəsində əməkdaşlığın gücləndirilməsində əhəmiyyətli rol oynayacağına dair ümidvarlıq ifadə olunub.

Söhbət zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Tacikistan sosial sahədə əməkdaşlıq sənədi imzalayıb

**Noyabrın 23-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Tacikistanın əmək, miqrasiya və əhalinin məşğulluğu naziri Gülnora Hasanzodanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş olub.**



Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycan və Tacikistanın ortaq tarixə, dinə və mədəniyyətə malik ölkələr olduğunu və iki ölkənin dövlət başçılarının siyasi iradəsi və birgə səyləri ilə əlaqələrin daim genişləndiyini vurğulayıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın və qarşılıqlı dəstəyin əhəmiyyəti, əmək və sosial müdafiə sahəsində də əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi qeyd olunub.

G.Hasanzoda əməkdaşlığın genişlənməsi üçün böyük potensial olduğunu və bu sahədə gələcəkdə də səylərin artırılacağını, fəal təcrübə mübadilələrinin əhəmiyyətini diqqətə çatdırıb.

Görüşün yekunu olaraq nazirlər "2024-2025-ci illər üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Tacikistan Respublikasının Əmək, Miqrasiya və Əhalinin Məşğulluğu Nazirliyi arasında əməkdaşlığa dair Tədbirlər Planı"nı imzalayıblar. Sənəddə həmin dövrdə iki nazirlik arasında müvafiq fəaliyyət sahələrində əməkdaşlığın həyata keçirilməsi üçün görüləcək tədbirlər əhatə olunur.

# Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların iclasının vaxtı açıqlanıb

**Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların növbəti görüşü noyabrın 30-da keçiriləcək.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, əldə olunan razılaşmaya əsasən, noyabr ayının 30-da Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sərhəd bölgəsində Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə dövlət komissiyasının Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın növbəti 5-ci iclası keçiriləcək.

# Mərkəzi Asiya ölkələrinin Avropa ilə əlaqələrinin inkişafında mühüm rol oynayan Azərbaycan daha bir mötəbər tədbirə - SPECA-nın Zirvə görüşünə evsahibliyi edir

Bu günlər Azərbaycan daha bir mötəbər tədbirə evsahibliyi edir. Belə ki, paytaxt Bakıda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı - SPECA həftəsi keçirilir. Noyabrın 24-də isə SPECA-nın 25-ci ildönümünə həsr olunan Zirvə görüşü keçiriləcək. Sammitdə Proqramın üzvü olan ölkələrin prezidentləri və digər yüksəksəviyyəli rəsmiləri iştirak edəcəklər.




AZƏRTAC Azərbaycanın SPECA Proqramının əhatə etdiyi ölkələrlə münasibətlərinə, bu ölkələrlə əməkdaşlığına və onların iqtisadi inkişafına verdiyi töhfələrə qısa nəzər salır.

### Azərbaycanın SPECA Proqramının əhatə etdiyi ölkələrlə əməkdaşlığına baxış

1998-ci ildə BMT tərəfindən yaradılmış SPECA Mərkəzi Asiya ölkələrində iqtisadiyyatın davamlı inkişafını və qarşılıqlı əlaqələrin gücləndirilməsini təşviq edən iqtisadi platformadır. Proqrama üzv olan ölkələr Azərbaycan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Əfqanıstandır. Proqramın əhatə etdiyi ölkələrin siyahısına və coğrafi mövqeyinə nəzər salsaq görərik ki, Azərbaycan xüsusilə son illərdə bu ölkələrlə əməkdaşlığın daha da inkişafı istiqamətində çoxşaxəli fəaliyyət həyata keçirir. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığa xüsusi önəm verir. Prezident İlham Əliyev ölkəmizin bu regiondakı dövlətlərlə əlaqələrini belə xarakterizə edib: "Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir. Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur".

Azərbaycanın bu regionda yerləşən ölkələrlə münasibətlərinin intensivləşməsini göstərən daha bir amil isə dövlət başçısının regiona səfərləri ilə bağlıdır. Belə ki, son iki ildə Prezident İlham Əliyev Mərkəzi Asiya dövlətlərinə 10-dan çox səfər edib. Bu müddət ərzində bütün qardaş dövlətlərin başçıları isə Azərbaycana dəfələrlə səfərlər həyata keçiriblər. Qarşılıqlı səfərlərin fəal dinamikası davam edir.

Azərbaycanla region dövlətləri arasında əməkdaşlığın daha bir istiqaməti isə qarşılıqlı ticarət və sərmayə qoyuluşlarıdır. Bu iki istiqamət üzrə göstəricilərdə davamlı artım müşahidə olunur. Belə ki, ötən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 3 dəfədən çox, bu ilin 7 ayı ərzində isə daha 50 faiz artıb.

Təbii ki, Azərbaycan həmçinin Mərkəzi Asiya ölkələrinin Avropa ilə iqtisadi əlaqələrinin inkişafında mühüm rol oynayır. Azərbaycansız bu region ölkələrinin Avropaya çıxışı demək olar sıfıra bərabərdir. Ölkəmizin həm Şərqlə Qərbin, həm də Şimalla Cənubun qovuşuğunda yerləşməsi ona əlverişli tranzit imkanları yaradır. Çünki Şərqdən Qərbə gedən yollar Azərbaycan ərazisindən keçir. Burada Orta dəhlizin rolu xüsusi vurğulanmalıdır. Orta dəhliz Çin-Qazaxıstan sərhədindən başlayaraq Mərkəzi Asiya ölkələri və Xəzər dənizindən, daha sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazilərindən keçərək Avropaya qədər geniş bir ərazini əhatə edir. Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrut sayılan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi Çindən Türkiyəyə, oradan da Avropa ölkələrinə və əks istiqamətdə yükdaşımalarda böyük üstünlüklər vəd edir. Belə ki, bu dəhlizlə hərəkət edən qatarlar yükləri Çindən Avropaya orta hesabla 20-25 günə çatdırır. Müqayisə üçün qeyd edək ki, Çindən Avropaya gedən yük qatarı Orta dəhliz vasitəsilə Türkiyədən keçməklə 10 min kilometr deyil, 7 min kilometr məsafə qət etməli olur. Bu da Asiya və Avropa arasında qlobal ticarətdə dəhlizin nə qədər sərfəli olduğunu təsdiqləyir. Orta dəhliz boyunca vahid tarif, "bir pəncərə" sisteminin tətbiqi isə bu marşrutla yükdaşımaların həcminin ildən-ilə artmasına səbəb olur. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin uğurlu fəaliyyətinin təmin olunmasında Azərbaycanın müstəsna rolu var. Hazırda Avropa ilə Asiya arasında körpü rolu oynayan Azərbaycanın coğrafi mövqeyi bütün sahələrdə, o cümlədən beynəlxalq yükdaşımalarda əməkdaşlığın inkişaf etdirilməsinə imkan yaradır. Azərbaycan özü də bu sahədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Belə ki, Şərq-Qərb marşrutu ilə yükdaşımalara artan tələbatı təmin etmək məqsədilə Azərbaycan Bakı-Tbilisi-Qars dəmir yolunu müasirləşdirir. Bu dəmir yolu ilə daşınan yüklərin həcmi gələn il 1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Eyni zamanda Bakı Dəniz Ticarət Limanının imkanları 15 milyon tondan 25 milyon tonadək artırılır.

Xəzərdə 50-dən çox gəmidən ibarət ən iri ticarət donanmasına malik olan Azərbaycan Mərkəzi Asiya ölkələrindən yük göndərənlərin artan tələbatını nəzərə alaraq gəmiqayırma zavodunun imkanlarının genişləndirilməsi istiqamətində fəal çalışır. Belə ki, zavodda istehsal olunacaq tanker və quru yükdaşıyan gəmilərin sayı hazırda ildə 6 gəmidən 10-15 gəmiyə qədər artacaq.

Həmçinin Azərbaycanla Mərkəzi Asiya dövlətləri birgə sərmayə fondları yaradıblar, növbəti 3 il üzrə 1 milyard dollardan artıq qarşılıqlı sərmayələrin həcmi razılaşdırılıb. Sənaye əməkdaşlığı, maşınqayırma, avtomobil sənayesi, gəmiqayırma, kənd təsərrüfatı, xüsusən də pambıqçılıq, ipəkçilik, bağçılıq və heyvandarlıq sahələrində çoxsaylı layihələr həyata keçirilir. Bir sıra digər sahələrdə yeni sərmayə layihələrinin icrasına başlanılıb. Eyni zamanda Mərkəzi Asiyadan olan şirkətlər Azərbaycanda yaradılmış Ələt Azad İqtisadi Zonasına maraq göstərirlər.

### Azərbaycanın regionda yaratdığı reallıqların Mərkəzi Asiya ölkələrinin inkişafına təsiri

Təbii ki, Mərkəzi Asiya dövlətlərinin Avropa ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün tranzit ölkə olaraq Azərbaycanı seçməsi iqtisadi amillərlə yanaşı, həm də siyasi və təhlükəsizlik məsələləri ilə bağlıdır. Belə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın 2020-ci ildə öz torpaqlarını erməni işğalından qurtararaq ərazi bütövlüyünü bərpa etməsi regionda yeni reallıq yaradıb. Dövlət başçısının qətiyyəti, siyasi iradəsi sayəsində bu gün Azərbaycan Cənubi Qafqazda sülhün və təhlükəsizliyin qarantına çevrilib, irəli sürdüyü təşəbbüslərlə bir çox ölkənin, eləcə də daha böyük mənada Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına böyük töhfələr verir. Bütün bunlar isə Mərkəzi Asiya ölkələrinin Azərbaycana marağını artırır.

Ölkəmizin eyni zamanda etibarlı tərəfdaş, dost ölkələrlə əməkdaşlığa açıq olması da burada mühüm rola malikdir. Azərbaycanın Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarları istiqamətində etibarlı tranzit ölkəsi olduğunu vurğulayan Prezident İlham Əliyev bu barədə deyib: "Mərkəzi Asiyadakı qardaşlarımız bilirlər ki, Azərbaycanın bütün nəqliyyat-logistika infrastrukturu onlar üçün açıqdır".

Azərbaycanın SPECA Proqramının əhatə etdiyi ölkələrlə əlaqələrinə ayrı-ayrılıqda nəzər saldıqda görürük ki, burada da artım dinamikası müşahidə olunur. Belə ki, bu ilin yanvar-iyul aylarında Azərbaycanın Qazaxıstanla ticarət dövriyyəsi illik müqayisədə 32 faiz, Türkmənistanla 3,6 dəfə, Qırğızıstanla isə 4,8 dəfə artıb. Əfqanıstana gəldikdə isə Azərbaycan əvvəlki illərdə bu ölkənin təhlükəsizliyinə böyük töhfələr verib. Belə ki, Azərbaycan Əfqanıstandakı sülhməramlı missiyasına 2002-ci ildə başlayıb və 2021-ci il avqustun sonunda onu başa çatdırıb. Azərbaycan hərbçiləri Əfqanıstanı sonuncu tərk edən koalisiya qüvvələrinin hərbçiləri arasında olublar.

### Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan beynəlxalq proseslərə istiqamət verən ölkəyə çevrilib

Ümumiyyətlə, Prezident İlham Əliyevin şəxsi nüfuzu, yürütdüyü müdrik və uzaqgörən siyasət, qazanılan uğurlar sayəsində bu gün Azərbaycan beynəlxalq proseslərə istiqamət verən, yeni və uğurlu təşəbbüslərlə çıxış edən, beynəlxalq aləmdə öz sözünü deyən ölkəyə çevrilib. Ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatında, həmçinin Türk Dövlətləri Təşkilatında, İslam Əməkdaşlıq Təşkilatında, İqtisadi Əməkdaşlıq Təşkilatında və digər qurumlarda aktiv fəaliyyəti onun qlobal miqyasda cərəyan edən proseslərə təsir imkanlarını genişləndirib.

Azərbaycan həm də Mərkəzi Asiya ölkələrinin Cənubi Qafqazla münasibətlərində birləşdirici rol oynayır. Qeyd etdiyimiz kimi, ölkəmiz Türk Dövlətləri Təşkilatında oynadığı fəal rolu ilə türk dünyasının birləşməsi istiqamətində də yorulmaz səylər göstərir. Təsadüfi deyil ki, son üç ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə bu təşkilatın iki fövqəladə Zirvə görüşü keçirilib. Onlardan birincisi 2020-ci ilin aprelində videokonfrans vasitəsilə olub və koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr edilib. Digəri isə Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra - bu ilin martında "Fəlakət - Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusunda olub. Bu Zirvə görüşlərində həm koronavirusla mübarizə sahəsində, həm də zəlzələdən sonra Türkiyə ilə həmrəylik nümayiş etdirilməsi istiqamətində mühüm qərarlar qəbul edilib. Son illər türk dövlətləri arasında əlaqələrin intensivləşməsi fonunda təşkilata daxil olan ölkələrdə baş verən hadisələrə münasibətdə üzv dövlətlərin başçılarının bir araya gələrək məqsədə doğru birlikdə addım atmaları bu ölkələr arasında münasibətlərin daha da möhkəmlənməsi, qarşılıqlı fəaliyyətin gələcək istiqamətlərinin müəyyənləşdirilməsi baxımından olduqca vacibdir. Bu məsələlərdə Prezident İlham Əliyevin liderlik funksiyasını öz üzərinə götürməsi, bunun üzv ölkələrin rəhbərləri tərəfindən yekdilliklə qəbul edilməsi və alqışlanması dövlətimizin başçısının şəxsi nüfuzunun və ona göstərilən dərin hörmətin təzahürüdür.

Bütün bunların nəticəsidir ki, Prezident İlham Əliyev bu gün bir sıra təşkilatların Zirvə görüşlərinə fəxri və ya xüsusi qonaq qismində dəvət olunur, etdiyi çıxışlarla ölkəmizin Cənubi Qafqazda yaratdığı reallıqları və Azərbaycanın mövqeyini bütün dünyaya çatdırır.

Bütün bunlar bir daha göstərir ki, bu gün Azərbaycan regionda, həmçinin daha böyük coğrafiyada sabitləşdirici rol oynamaqla, bir çox ölkənin iqtisadi inkişafına, enerji təhlükəsizliyinə töhfə verməklə yanaşı, həm də qlobal miqyasda ədalətin carçısına, bəzi böyük dövlətlərin ədalətsiz davranışlarına və müstəmləkəçi siyasətlərinə qarşı çıxan xalqların azadlıq mübarizəsinə dəstək verən qüvvəyə çevrilib.

# Azərbaycanla Qazaxıstan arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq müzakirə olunub

**Noyabrın 23-də Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev SPECA həftəsi çərçivəsində ölkəmizdə rəsmi səfərdə olan Qazaxıstanın rəqəmsal inkişaf, innovasiya və aerokosmik sənaye nazirinin müavini Aset Nurlanoviç Turısovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Bu barədə AZƏRTAC-a Müdafiə Sənayesi Nazirliyinin Mətbuat xidmətindən bildirilib.



Qazaxıstanın "Ag Tech" şirkətinin baş direktoru Aleksandr Podvalovun da iştirak etdiyi görüşdə şirkətin fəaliyyət istiqamətləri barədə məlumat verilib.

Görüşdə gələcəkdə müdafiə sənayesi sahəsində müasir rəqəmsal texnologiyaların tətbiqi üzrə əməkdaşlığın mümkünlüyünə baxılacağına dair razılıq əldə edilib və qarşılıqlı maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi aparılıb.

Aset Turısov Azərbaycanla bu ölkə arasında ikitərəfli əlaqələrin bundan sonra da inkişaf edəcəyindən əminliyini bildirib.

# ABŞ ikiüzlü siyasət yürüdür

**Son günlər ABŞ senatorları və konqresmenləri ölkəmiz əleyhinə qeyri-obyektiv bəyanatlar yaymaqla Cənubi Qafqazda sülhün və sabitliyin bərpa olunmasına əngəl törədirlər. ABŞ-nin ölkəmizə qarşı aşkar qərəzi, absurd bəyanatları iki ölkə arasında strateji münasibətlərə ciddi zərbə vurmaqla yanaşı, həm də Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına mane olur. Milli Məclisin ABŞ Senatının "2023-cü il erməniləri müdafiə aktı" ilə əlaqədar qəbul etdiyi bəyanatında da ABŞ-nin belə davranışları şiddətlə qınanılıb.**



Bəyanatda qeyd olunub ki, Azərbaycan milli maraqlarına zidd olan bütün mənfi addımları qətiyyətlə və adekvat şəkildə cavablandıracaq.

Bu mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib ki, ABŞ Azərbaycana qarşı açıq-aşkar qərəzli mövqe nümayiş etdirir: "Həmçinin ABŞ-nin 30 il ərzində işğalçılıq siyasəti yürütmüş Ermənistana göstərdiyi dəstək də yüksələn xətlə inkişaf edir. ABŞ Senatının bu günlərdə "2023-cü il erməniləri müdafiə aktı"nı qəbul etməsi bunu bir daha təsdiqləyir".

Deputat xatırladıb ki, bu sənəd qəbul olunmazdan əvvəl, hələ noyabrın 15-də ABŞ-nin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin Avropa və Avrasiya altkomitəsində "Dağlıq Qarabağın gələcəyi" mövzusunda dinləmələr də keçirilib və orada çıxış edənlər Azərbaycana qarşı düşmənçilik mövqeyi sərgiləyiblər: "Nəzərə almaq lazımdır ki, ABŞ vaxtilə ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olub və Azərbaycan Ermənistanın işğalından əziyyət çəkdiyi 30 il ərzində Vaşinqton işğalçıya qarşı heç bir addım atmayıb. Həmin dövrdə ABŞ təcavüzkarı heç vaxt öz adı ilə çağırmayıb, əksinə, bəyanatlarda işğalçı Ermənistanın maraqlarına uyğun davranıb".

Sevinc Fətəliyevanın sözlərinə görə, Azərbaycan cəmiyyəti haqlı olaraq ABŞ-nin bu mövqeyinə etiraz edir. O cümlədən Milli Məclisin noyabrın 21-də keçirilən iclasında ABŞ Senatının "2023-cü il erməniləri müdafiə aktı" ilə əlaqədar bəyanat qəbul etməsi də tədirəlayiqdir. Bəyanatda qeyd olunduğu kimi, "Azadlığa dəstək aktı"na 907-ci düzəlişin tətbiqinin dayandırılmasını ləğv etməklə ABŞ tərəfi Azərbaycana qarşı 1992-ci ildə yol verdiyi tarixi səhvi təkrarlayır. Halbuki, 2001-ci ildə baş vermiş 11 sentyabr hücumlarından sonra 907-ci düzəlişin icrasının müvəqqəti dayandırılması qərarını verən də ABŞ idi. 11 sentyabr terrorundan sonra beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ-nin yanında olduğunu bəyan edən ilk dövlətlərdən biri məhz Azərbaycan olub. Görünən odur ki, erməni sevdası ABŞ-nin gözlərini kor edib.

"Bir sıra amerikalı konqresmen və dövlət rəsmiləri erməni diasporunun və lobbisinin əlində alətə çevriliblər. Xüsusilə Qarabağdakı separatçı rejim özünü buraxdığını elan etdikdən sonra ABŞ-nin onu müdafiə etməsi beynəlxalq hüquq normalarının açıq-aşkar tapdanmasıdır. Sözdə ərazi bütövlüyümüzü və suverenliyimizi tanıyan ABŞ ölkəmiz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra Azərbaycana qarşı qeyri-dost addımlarını intensivləşdirməklə ikiüzlü siyasət yeritdiyini nümayiş etdirir", - deyə deputat bildirib.

Sevinc Fətəliyeva qeyd edib ki, ABŞ beynəlxalq hüququn norma və prinsiplərini pozmaqla özünün dünyadakı nüfuzuna ciddi zərbə vurur. Bunun nəticəsidir ki, son illər qlobal miqyasda baş verən proseslər fonunda dünya xalqlarının və ölkələrin ABŞ-yə inamı ciddi şəkildə sarsılıb. Rəsmi Vaşinqton hərbi və iqtisadi təsir rıçaqları ilə dünyaya "hökmranlıq" edəcəyini, başqa dövlətlərin daxili işlərinə qarışacağını düşünürsə, yanılır. Son hadisələr fonunda isə Azərbaycan xalqı ABŞ-nin ikiüzlü siyasətinə kəskin etirazını bildirir və Milli Məclisin məlum bəyanatı da cəmiyyətimizin haqlı etirazını özündə ifadə edir.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Azərbaycanın ədalət çağırışı

## Müstəmləkəçilikdən azad dünya uğrunda

**Bu gün dünyanın, demək olar ki, bütün ölkələri müxtəlif çağırışlarla üzləşir. Yaranan çağırışların əsas hissəsi böyük güclərin sülh və təhlükəsizlik, ölkələrin ərazi bütövlüyü, sosial-iqtisadi inkişafı, ətraf mühit və s. məsələlərlə bağlı zaman-zaman yaratdıqları təhdidlərdir. Bu təhdidlərin dəf olunması, dünyamızdakı problemlərin yoluna qoyulması, bəşəriyyətin xoşbəxtliyi yaranmış vəziyyətə görə məsuliyyətini dərk edən bütün ölkələrin bir araya gəlməsindən asılıdır.**

Bu baxımdan Azərbaycan BMT-dən sonra dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatının rəhbəri kimi ümumilikdə bəşəriyyət üçün faydalı təşəbbüsləri davam etdirməkdədir. Müasir dünyamızın çağırışları, qlobal problemlər ətrafında mütəmadi beynəlxalq müzakirələrin təşkili də həmin təşəbbüslərə aiddir. Bu günlər Bakıda "Dekolonizasiya: qadınların gücləndirilməsi və inkişaf" mövzusunda keçirilən konfrans xüsusi aktuallığı ilə yadda qaldı. 18 ölkədən 40-dan çox təmsilçinin qatıldığı tədbir Qoşulmama Hərəkatının Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilirdi.

Hazırda bütün dünyada qadınların hüquq bərabərliyinin aktuallaşdığı, zərif cinsin nümayəndələrinə müxtəlif sahələrdə bərabər imkanlar mühitinin yaradılması üçün layihələrin həyata keçirildiyi zamanda mövzunun adı son dərəcə maraqlı təsir bağışlayır. Çoxumuza elə gəlir ki, müstəmləkə dövrü də, böyük dövlətlərin müstəmləkəsi altında yaşayan qadınların ağır vəziyyəti də dünya tarixinin artıq keçilmiş mərhələsidir. Amma əfsuslar olsun ki, belə deyil, müstəmləkə siyasəti XXI əsrdə də davam edir.

Bu siyasəti davam etdirən, müstəmləkə altında saxladıqları ölkələrdə müxtəlif sosial qrupların, o cümlədən qadınların inkişafına imkan verməyən, eyni zamanda riyakarcasına özlərini dünyada qadın hüquqlarının müdafiəçiləri qismində təqdim edən bəzi böyük dövlətlər öz müstəmləkələrindəki qadınların vəziyyətini dünya ictimaiyyətindən gizlədirlər. Hələ də davam edən kolonializm siyasətinin gündəmə gətirilərək pislənməsi, bu ərazilərdə qadınların vəziyyətinə dair gerçəklərin dünya ictimaiyyətinə çatdırılması baxımından Bakıda keçirilən konfransın çox böyük əhəmiyyəti var. Belə təşəbbüslər müstəmləkəçiliyin aradan qaldırılması istiqamətində sistemli və ardıcıl iş aparılmasına, təşkilatlanma məsələlərinə, eləcə də müstəmləkəçiliyin yaratdığı ayrı-ayrı sosial, iqtisadi, siyasi, mədəni problemlərin aradan qaldırılması üçün ortaq həllərin tapılmasına kömək göstərir. Problemin həlli yolu neokolonializmlə mübarizə mövzusunun bütün mümkün platformalar vasitəsilə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasından keçir. BMT Baş Assambleyasının 4-cü Komitəsinin bununla bağlı fəaliyyətinin və beynəlxalq təşkilatlar çərçivəsində mübarizənin daha da canlandırılmasına böyük ehtiyac var. Dünyamızın tarixin bu utancverici problemindən qurtuluşu üçün qadınların rolu daha da gücləndirilməli, onların dekolonizasiya yolunda mübarizəsi möhkəm şəkildə dəstəklənməlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətində qeyd edilən məqamlar dekolonizasiya proseslərinin, qadınların gücləndirilməsi və inkişafının günümüz üçün nə qədər mühüm aktuallıq kəsb etdiyini göstərir: "Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Respublikası hər zaman bəşəriyyət üçün aktual olan məsələlərə xüsusi diqqət ayırmış, xalqların üzləşdiyi ədalətsizliklərin aradan qaldırılması istiqamətində səmərəli iş aparmışdır. Bu xüsusda qadın və kolonializm mövzularının bir araya gətirilməsi, dekolonizasiya prosesində qadınların rolunun gücləndirilməsi zamanın tələbidir. XXI əsrdə qadınların təəssüf ki, hələ də koloniyalarda köləliyə və istismara məruz qalması fundamental insan hüquqlarından məhrum olması deməkdir".

Belə bir konfransın keçirilməsi təşəbbüsü ilə Azərbaycanın çıxış etməsinin həm də simvolik mənası var. Azərbaycan dövləti, xalqı belə məsələləri gündəmə gətirmək, dünyaya örnək olmaq üçün mənəvi haqq, zəngin tarixi




ənənələrə sahibdir. Azərbaycanda və ümumən türkdilli xalqlar arasında tarixən qadına böyük hörmət göstərilib, qadın, ana adı uca tutulub. Dövlətimizin başçısının müraciətində vurğulandığı kimi, bu, xalqımızın ən ali mənəvi keyfiyyətlərindən biridir. Azərbaycan qadınları tarixin bütün dövrlərində taleyüklü məsələlərin həllinə, habelə xalqımızın azadlıq mübarizəsində və torpaqlarımızın Ermənistan Respublikasının işğalından azad edilməsinə öz töhfəsini vermişlər.

"Azərbaycan kolonializmin hələ də davam etməsindən, xüsusilə koloniyalarda qadın və uşaqların hüquqlarının kobud şəkildə pozulmasından olduqca narahatdır. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir", - deyə Azərbaycan Prezidentinin müraciətində qeyd edilir.

### Fransanın utancverici əməlləri

Dünyada kolonializm tarixinə nəzər yetirsək, bu tarixin ən dəhşətli cinayətlərinin çoxunun məhz Fransanın əməli olduğunu görərik. Yaradıcı şəxsiyyətlərinin əsərləri ilə bəşəriyyətin mədəniyyət tarixinə zəngin töhfələr vermiş bu ölkə, bu xalq, təəssüflər olsun ki, Afrikada, Cənub-Şərqi Asiyada, Sakit Okeanda, Atlantik və Hind Okeanı regionunda, Latın Amerikasında və başqa onlarca ölkədə işğalçılıq cinayətlərinin, sərvətlərin talan edilməsinin, xalqların uzun illər əsarət altında saxlanmasının da müəllifidir. Fransa bu əraziləri, on milyonlarla insanı əsarət altında saxlamaqla da kifayətlənməyib. Həmin torpaqlarda hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törədib, sırf etnik mənsubiyyətlərinə, dini inanclarına görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyaraq uşaqlı-böyüklü qətlə yetirib. Bu gün demokratiyadan, insan haqlarından danışan Fransanın fəal surətdə məşğul olduğu qul ticarəti də insanlığın ən utancverici səhifələrindəndir. Bu ticarət zamanı məhv edilmiş milyonlarla afrikalının ölümünün qara ləkəsi indi də Fransa dövlətinin üzərindədir.

Qoşulmama Hərəkatının Sədri kimi Azərbaycan Respublikasının Prezidenti müraciətində Fransanın işğal etdiyi ölkələrdə həyata keçirdiyi insanlıq əleyhinə çoxsaylı cinayətlər, törətdiyi vəhşiliklər faktlarla sadalanıb. Əlcəzair, Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Benin, Kot-d'İvuar, Mərkəzi Afrika Respublikası, Qabon, Toqo, Kamerun, Vyetnam, Qəmər Adaları İttifaqı, Haiti və digər ölkələrdə bir neçə milyon günahsız insanın, o cümlədən qadınların və uşaqların Fransa tərəfindən qətlə yetirildiyi diqqətə çatdırılıb. Fransanın eyni zamanda 1994-cü ildə Ruandada tutsi qəbiləsinin 800 mindən çox üzvünün öldürülməsində birbaşa məsuliyyət daşıması da Azərbaycan Prezidentinin müraciətində xüsusi diqqətə çatdırılır. Bütün bunlar belə cinayətlərin sənədləşdirilməsi, insanlıq əleyhinə ağır qəsd törətmiş şəxslərin, dövlətlərin gec də olsa həmin əməllərinin cəzasını çəkməsi, ən mühümü isə onların yeni bəşəri cinayətlərinin qarşısının alınması baxımından son dərəcə önəmlidir. Çünki bu gün Fransa kimi ölkələr müstəmləkəçilik siyasətindən, əsarət altında saxladıqları xalqların müxtəlif vasitələrlə əzilməsindən, onların hüquqlarının məhdudlaşdırılmasından yenə də əl çəkmək niyyətində görünmür. Xalqlara qarşı müstəmləkəçilik siyasətini həyata keçirən dövlətin hazırda BMT kimi ali qurumun Təhlükəsizlik Şurasında təmsil olunması da tarixin bir başqa ədalətsiz yazısıdır. Azərbaycan Prezidentinin "Dekolonizasiya: qadınların gücləndirilməsi və inkişaf" mövzusunda konfransın iştirakçılarına müraciətində maraqlı bir fakta diqqət yönəlib. Bu fakt Mayot adası ilə bağlıdır. Yada salaq ki, 1975-ci ildə Qəmər Adaları İttifaqı Mayot da daxil olmaqla arxipelaqın müstəqilliyini elan edib. BMT Baş Assambleyası isə Qəmər dövlətinin Mayot adası üzərində suverenliyini təsdiqləyib. Amma Fransa bu qərarlara məhəl qoymadan bu gün də Mayot adasını öz departamenti kimi idarə edir. Müraciətdə bununla bağlı başqa maraqlı faktlara da diqqət yetirilərək yada salınır ki, BMT Baş Assambleyası 20-dən artıq qətnamə qəbul edərək Qəmərin Mayot adası üzərində suverenliyini təsdiq edib. BMT həmçinin Fransa hökuməti tərəfindən Qəmər arxipelaqının Mayot adasında təşkil edilmiş referendumları pisləyib və etibarsız hesab edib. Eyni zamanda Qəmər arxipelaqının Mayot adasında bundan sonra Fransa tərəfindən hər hansı digər formada referendum və ya məsləhətləşmələr təşkil edilməsini, adıçəkilən adada istənilən formada fransız müstəmləkəçiliyini leqallaşdıran hər hansı bir xarici qanunu rədd edib. Həmin qətnamədə BMT Mayot adasının Fransa tərəfindən işğalını BMT-nin üzvü olan Qəmərin milli birliyinə kobud qəsd kimi qiymətləndirib: "BMT BA-nın çoxsaylı qərarlarına baxmayaraq, Fransa beynəlxalq hüququ kobud şəkildə pozaraq Mayot adasında bundan sonra da referendumlar keçirib. Bu səbəbdən referendumların nəticələri qeyri-qanunidir".

### İşğal və beynəlxalq hüquq pozuntusu

Qeyd edək ki, BMT ilə yanaşı, Afrika İttifaqının İcraedici Şurasının və İslam Əməkdaşlıq Təşkilatının da Mayot adasının Qəmərə aid olması ilə bağlı müvafiq qərarları var. Əfsuslar olsun ki, Fransa beynəlxalq təşkilatların və beynəlxalq birliyin çağırışlarına məhəl qoymadan daha da irəli gedərək 2003-cü ildə Mayotu hətta öz Konstitusiyasına daxil edib. 2011-ci ildə Mayot Fransanın 101-ci departamenti, 2014-cü ildə isə Avropa İttifaqının ultraperiferik bölgəsi olub. Mayota Aİ-nin ultraperiferik bölgəsi statusunun verilməsi faktı isə Mayotun Fransanın tərkib hissəsi kimi tanınması deməkdir.

Müraciətdə göstərilir ki, bütün bunlar Fransanın BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan sui-istifadə etməsi, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozmaqda davam etməsi, başqa ölkənin ərazisini zorakı yolla öz ərazisinə qatması deməkdir. Bunun da açıq-aşkar "işğal və anneksiya"dan başqa adı yoxdur.

Əslində, bu, həyata keçirilən siyasətin mənfur mahiyyəti və təfəkkür problemindən irəli gəlir. Siyasət və təfəkkür dəyişmədiyindən Fransa müstəmləkəçiliyin ən utancverici yeni metodlarına bu gün də sadiqlik göstərir. Bununla da təmsil olunduğu BMT kimi ali qurumları da gözdən salır. Avropadan kənarda, Sakit, Hind və Atlantik okeanlarında dənizaşırı icma və ərazilərində yaşayan xalqların azadlıq arzularını və hüquqlarını zorakılıqla tapdayır, bu arzuların reallaşmasının qarşısını almaqdan ötrü hər cür bəd əməllərə əl atır. Həmçinin Afrika qitəsindəki keçmiş müstəmləkələrinin daxili işlərinə kobud müdaxilələrə davam edir, burada sabitliyin əldə olunmasına maneçilik törədir. Azərbaycan Prezidentinin müraciətində Fransanın pozucu əməllərinin hətta Cənubi Qafqaz bölgəsinə qədər uzandığı diqqətə çatdırılır: "Fransa təkcə keçmiş və indiki müstəmləkələrində deyil, eyni zamanda bizim regionumuzda - Cənubi Qafqazda stabilliyi pozur, separatizm meyillərini və separatçıları dəstəkləyir. Ermənistanı silahlandırmaqla militarist siyasət həyata keçirir, revanşist qüvvələri təşviq edir, regionumuzda yeni müharibələrin başlaması üçün zəmin hazırlayır. Eyni zamanda Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur, Qərb təşkilatlarını digər dövlətlərə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə cəhdlər edir".

Ən maraqlısı budur ki, neokolonializm siyasətini davam etdirən Fransada buna paralel irqçilik, ksenofobiya və islamofobiya da geniş yayılmaqdadır. Bu ölkə öz daxilindəki belə problemləri yoluna qoymaq, qanlı cinayətlərlə zəngin kolonializm tarixinə görə utanıb bu tarixdən ibrət dərsi almaq əvəzinə başqa ölkələrin daxili işlərinə qarışmaqdan, müstəmləkə siyasətini müxtəlif üsullarla davam etdirməkdən əl çəkmir. Amma baş verənlər Fransanın artıq yolun sonuna çatdığını göstərir. Elə bu yaxınlarda Fransa qoşunlarının Mali, Niger və Burkina-Fasodan qovulması onun Afrikadakı amansız neokolonializm siyasətinin necə biabırçı sonluqla nəticələnməsinin nümayişidir. İndi Fransa özündə mənəvi güc tapıb bütün qanlı cinayətlərinə görə heç olmasa üzr istəməlidir. Müstəmləkə siyasətinə birdəfəlik son qoymalıdır. Müraciətdə xüsusi vurğulanır ki, Fransa Beynəlxalq Ədalət Məhkəməsinin Sakit Okeanda keçirdiyi nüvə sınaqları ilə bağlı qərarlarını yerinə yetirməlidir. Tarixdəki qanlı əməllərinə görə utanıb başqa dövlətlərə dərs keçmək praktikasından əl götürməlidir. Amma rəsmi Paris bunu etmək əvəzinə digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır.

Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatının Sədri kimi bütün bu faktları heç kimdən çəkinmədən beynəlxalq platformalarda dünya ictimaiyyətinin diqqətinə çatdırması böyük qətiyyət və bəşəriyyətin gələcəyi qarşısında yüksək məsuliyyət hissidir. Belə qətiyyətli çağırışlar kolonializmə qarşı mübarizə sahəsində birgə səylərin səfərbər olunmasına kömək göstərir, bəşəriyyətin rifahı və gələcək nəsillərə "kolonializmdən azad dünya" miras qoymaq məqsədilə yeni ideya və təşəbbüslərin irəli sürülməsinə mühüm töhfələr verir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan kimi müttəfiqi itirmək ABŞ-yə ciddi problemlər yaradacaq

**"Son dövrlərdə Amerikanın bəzi rəsmilərinin Azərbaycana qarşı ittiham xarakterli çıxışları iki dövlət arasında münasibətlərdə gərginlik yaradıb. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan və Amerika arasında həmişə qarşılıqlı anlaşma, bir-birinin maraqlarına hörmətlə yanaşma, ədalət prinsipi özünü göstərib".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Deputat qeyd edib ki, Azərbaycan birgünlük antiterror əməliyyatı keçirdikdən və bütün əraziləri üzərində suveren hüquqlarını bərpa etdikdən sonra ABŞ-nin bəzi rəsmi şəxsləri Azərbaycanın fəaliyyətinə kölgə salmaq, onu ittiham etmək niyyətinə düşüblər. Noyabrın 15-də ABŞ Senatında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilən dinləmələrdə dövlət katibinin köməkçisi Ceyms O'Brayn Azərbaycan-ABŞ münasibətlərinin bundan sonra müəyyən suallar doğuracağını bildirib. Əlbəttə, Azərbaycan bunu özünə qarşı ədalətsiz bir mövqe kimi qiymətləndirdi, eyni zamanda Senatın Ermənistanı müdafiə haqqında qəbul etdiyi qərarına da etirazını bildirdi. Otuz ilə yaxın müddətdə Ermənistan Azərbaycan torpaqlarının bir hissəsini işğalda saxlayıb, bu dövrdə xalqımıza qarşı genosid addımlar atıb, işğal etdiyi ərazilərdə bütün infrastrukturu, mənzil fondunu və sosial obyektləri dağıdıb, həmçinin torpaqlarımızın böyük hissəsini minalayıb. Hələ Vətən müharibəsindən sonrakı dövrdə 300-dən çox şəxs mina terrorunun qurbanına çevrilib.

Ermənistanın bu gün də Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina etdiyini vurğulayan deputat bildirib ki, belə olan halda Amerikanın Azərbaycanı deyil, Ermənistanı müdafiə etməsi ölkəmizə qarşı qərəzli, düzgün olmayan siyasətin bariz nümunəsidir. "Bu kimi məsələlər noyabrın 21-də Milli Məclisin iclasında müzakirə edildi və ABŞ-nin Azərbaycana qarşı son dövrlər apardığı siyasətə etirazlar səsləndi. Bu siyasətin iki dövlət arasındakı münasibətləri heç də yaxşılaşdırmadığı vurğulandı və belə hallara son qoyulması tələb edildi. Aydın məsələdir ki, Azərbaycan öz suveren hüquqlarını qorumaq üçün beynəlxalq hüquqdan irəli gələn bütün imkanlardan istifadə edir. İndiki vəziyyətdə Amerikanın yüksəksəviyyəli siyasi şəxslərinin Azərbaycana səfərini qeyri-məqbul hesab edirik. Rəsmi Vaşinqton bugünkü vəziyyətə aydınlıq gətirməlidir. Azərbaycanın suveren hüquqlarının tapdalanmasına, ona sayğısız yanaşılmasına son qoyulmalıdır. Azərbaycan sıradan bir dövlət deyil, regionun lider ölkəsidir, Şərqdə böyük nüfuza malikdir. Artıq beşinci ildir ki, Qoşulmama Hərəkatının sədridir", - deyə deputat əlavə edib.

A.Mirzəzadə vurğulayıb ki, Azərbaycan Vaşinqtonun bu regionda sülh, stabillik yaratmaq addımlarına həmişə hörmətlə yanaşıb və dəstək verib. Azərbaycan kimi müttəfiqi itirmək, əlbəttə ki, ABŞ-nin bu regionda apardığı siyasətə ciddi problemlər yaradacaq. Deputat hesab edir ki, yaranmış vəziyyətin normallaşması üçün ABŞ tərəfindən ciddi addımlar atılmalıdır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



# Naxçıvanda "Qərbi Azərbaycana qayıdış" festivalı və "Qərbi Azərbaycana qayıdışa gedən yol" adlı konqres işə başlayıb

**Noyabrın 23-də Naxçıvan şəhərində "Qərbi Azərbaycana qayıdış" festivalı və "Qərbi Azərbaycana qayıdışa gedən yol" adlı konqres işə başlayıb.**



AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçirilən festival-konqresin iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə tər güllər düzüb, xatirəsinə ehtiramlarını bildiriblər.

Heydər Əliyev Muzeyinə gələn ziyarətçilərə görkəmli dövlət xadiminin zəngin, çoxşaxəli siyasi irsi və mənalı ömür yolundan bəhs edən eksponatlar barədə məlumat verilib.

Sonra Naxçıvan Dövlət Milli Dram Teatrında "Qərbi Azərbaycana qayıdış" festivalı və "Qərbi Azərbaycana qayıdışa gedən yol" konqresinin açılış tədbiri keçirilib.

Tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Qərbi Azərbaycana məxsus folklor nümunələrindən ibarət kompozisiya və videoçarx nümayiş etdirilib.

Festival və konqresin açılışı münasibətilə tədbir iştirakçılarını salamlayan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, bu gün xalqımız öz tarixinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edib. Uzun illər gizli saxlanılan, zaman-zaman təhrif edilmiş hadisələr özünün əsl mahiyyətini və qiymətini alır. Sözsüz ki, bunun ən mühüm səbəblərindən biri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Azərbaycanın 30 illik işğala son qoyaraq ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməsi oldu. 2023-cü il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri isə dövlətimizin suverenliyinin onun bütün ərazisində təmin olunması ilə nəticələndi. Tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın yaratdığı bugünkü reallıqlar Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi və inkişafı ilə yanaşı, həm də Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpası işinə stimul verir. Daha dəqiq ifadə etsək, Qərbi Azərbaycana qayıdış üçün zəmin yaradır.

Vurğulanıb ki, 2022-ci il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı sistemli tədbirlərin keçirilməsinə başlanılıb, bu məqsədlə konsepsiya qəbul olunub. "Qərbi Azərbaycana qayıdış" festival-konqresi də Prezidentin bu istiqamətdə müəyyənləşdirdiyi tapşırıqların icrası, xüsusilə də Qərbi Azərbaycanın tarixi, mədəni irsi və azərbaycanlıların tarixi-etnik torpaqlarından kütləvi deportasiyası ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlərin tərkib hissəsidir.

Səlahiyyətli nümayəndə tarixi faktlara istinad etməklə azərbaycanlıların deportasiyasının tarixin tam açılmamış və beynəlxalq səviyyədə hüquqi-siyasi qiymətini almamış səhifələrindən olduğunu diqqətə çatdıraraq deyib: "Təəssüf ki, xalqımıza qarşı törədilmiş etnik təmizləmə və deportasiya siyasəti müstəqilliyin ilk illərində lazımınca araşdırılmayıb. Yalnız Ümummilli Liderimiz Heydər Əliyev ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra ilk dəfə azərbaycanlıların deportasiyasına hüquqi-siyasi qiymət verib, 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman imzalayıb".

"Bu gün hər bir Azərbaycan vətəndaşı möhtəşəm tarixi hadisələrə şahidlik edir. Dünya birliyində söz sahibinə çevrilən güclü və qüdrətli Azərbaycan yeni reallıqlar formalaşdırır" deyən Fuad Nəcəfli bildirib ki, Ulu Öndərin siyasətini davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ata vəsiyyətinə əməl edərək torpaqlarımızı işğaldan azad etdiyi kimi, Qərbi Azərbaycana qayıdış konsepsiyasını da uğurla həyata keçirir. Artıq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində böyük yol qət edilib. Qərbi Azərbaycandan qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq səviyyəyə çıxarılıb. Hazırda Qərbi Azərbaycana qayıdış konsepsiyası üç prinsipə - tarixi faktlara, beynəlxalq hüquqa və sülhə əsaslanır. Prezidentin müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq, ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı görülən sistemli tədbirlərin davamı kimi bu gün Naxçıvanda keçirilən festival-konqres də ciddi mövzuları əhatə edir. Məqsəd deportasiyaya məruz qalmış soydaşlarımızın hüquqlarının bərpası, Qərbi Azərbaycanda etnomədəni terrora məruz qalmış tarixi-mədəni irsimizlə bağlı faktların ortaya qoyulması və dünya elmi ictimaiyyətinə çatdırılmasından ibarətdir.

Səlahiyyətli nümayəndə qarşıya qoyulan vəzifələrin icrasında tədbir iştirakçılarına uğurlar arzulayaraq "Qərbi Azərbaycana qayıdış" konqres-festivalının təşkilatçılarına, dəvəti qəbul edib tədbirdə iştirak edən hər kəsə təşəkkürünü bildirib. Fuad Nəcəfli çıxışını Prezident İlham Əliyevin "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar" fikirləri ilə tamamlayıb.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək bildirib ki, sovet hakimiyyətinin ilk illərində Qərbi Azərbaycanda 1922-1923-cü illərdə 36, 1924-cü ildə 62, 1929-1930-cu illərdə 112, 1931-ci ildə isə 245 Azərbaycan məktəbi fəaliyyət göstərib. Həmin dövrdə 113 azərbaycandilli məktəbəqədər təhsil müəssisəsi mövcud olub. 1981-1982-ci tədris ilində Qərbi Azərbaycanda 155 azərbaycandilli məktəb, 1986-1987-ci tədris ilində isə 206 azərbaycandilli məktəb fəaliyyət göstərib. Nazir vurğulayıb ki, Qərbi Azərbaycandakı Azərbaycan məktəblərinin məzunları arasından elmin müxtəlif sahələrini əhatə edən 10 akademik, akademiyanın 9 müxbir üzvü, 140 elmlər doktoru və 740 elmlər namizədi yetişib. Emin Əmrullayev ali təhsil proqramlarına Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, folkloru, toponimləri, İrəvan Müəllimlər Seminariyası ilə bağlı dərslərin, seçmə fənlərin daxil edilməsinin olduqca vacib olduğunu bildirib. Azərbaycanın elm və təhsil müəssisələrində Qərbi Azərbaycan tarixinin araşdırılması sahəsində ardıcıl, sistemli tədqiqatların aparılması və elmi-tarixi nəzəri əsərlərin yaradılması zərurətini qeyd edib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında vurğulayıb ki, Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımıza məxsus tarixi faktlar, ədəbi-mədəni dəyərlər, folklor nümunələri, toponim məlumatları, o yurd yerlərindəki tarixi-mədəni abidələr barədə məlumatların tədqiq olunması ziyalıların, elm adamlarının qarşısında duran mühüm vəzifələrdir. Bu baxımdan keçirilən festival-konqres mühüm əhəmiyyət kəsb edir. Konqresdə 200-dək elmi çıxışlar olacaq və onlar toplanaraq nəşr ediləcək. Burada yer alan tarixi-mədəni faktlar qərbi azərbaycanlıların layiqli və ədalətli şəkildə yurdlarına qovuşmasını təmin edəcək Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına mühüm töhfə olacaq.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli qeyd edib ki, Prezident İlham Əliyevin qərbi azərbaycanlılar məsələsində daim nümayiş etdirdiyi prinsipial mövqe, onların hüquqlarının bərpa olunmasına və öz doğma torpaqlarına qayıtmasına qəti və birmənalı dəstək ifadə etməsi, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını hazırlamaqla bağlı tapşırıqları tarixi torpaqlarımıza dönüş uğrunda səylərə yeni təkan verib: "1987-1991-ci illərdə baş vermiş sonuncu deportasiyadan əvvəl Qərbi Azərbaycandakı 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşamış, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edib. Bütövlükdə 300-ə yaxın yaşayış məntəqəsində azərbaycanlı soydaşlarımız yaşayıblar. Lakin təəssüf ki, onların hamısı ermənilərə xas metodlarla sonuncu nəfərinə qədər Qərbi Azərbaycandakı ata-baba yurdlarından qovulublar. Bu prosesdə 200-dən çox soydaşımız ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilib, 400-dən artıq insanımız bədən xəsarəti alıb. 17,5 milyard ABŞ dolları həcmində maddi ziyan vurulub ki, beynəlxalq qiymətləndirmə standartlarına görə, bu gün həmin ziyanın məbləği 700 milyard ABŞ dolları həcmindədir. Yeraltı-yerüstü sərvətləri, tarixi-mədəni abidələrə vurulan ziyanı da bura əlavə etsək, yəqin ki, bu ziyan bir neçə dəfə artar. Mənəvi ziyanı isə heç bir məbləğlə əvəz etmək olmaz",- deyə Əziz Ələkbərli vurğulayıb.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva çıxış edərək beynəlxalq hüquqda xalqın tarixən yaşadığı doğma yurdundan zorla çıxarılmasının cinayət əməli hesab olunduğunu diqqətə çatdırıb. Ombudsman bildirib ki, soydaşlarımızı Qərbi Azərbaycan torpaqlarından zorla çıxaranlar və etnik təmizləmə siyasətini yerinə yetirənlər beynəlxalq müstəvidə cinayət məsuliyyətinə cəlb olunmalıdırlar: "Ermənistan tərəfi 4 minə yaxın itkin düşmüş soydaşlarımızla bağlı sorğularımıza cavab vermir, minalanmış ərazilərimizlə bağlı heç bir məlumat açıqlamır. Bu isə işğaldan azad olunmuş ərazilərimizə qayıdış və quruculuq prosesini ləngidir. Bundan başqa, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvan 30 ildir blokada şəraitində yaşayır. Üçtərəfli Bəyanatda öz əksini tapan Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında kommunikasiyaların təmin olunması müxtəlif bəhanələrlə təmin olunmur". Səbinə Əliyeva beynəlxalq təşkilatlara səslənərək Azərbaycana qarşı ədalətli mövqe göstərməyə, qərbi azərbaycanlıların ləyaqətli və tam təhlükəsiz qayıdışına səssiz qalmamağa çağırıb.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun prorektoru, professor Mahirə Hüseynova vurğulayıb ki, toponimləri və folklor nümunələrini öyrənməklə Qərbi Azərbaycan torpaqlarının tarixən Azərbaycan türklərinə məxsus olduğunu sübut etmək mümkündür. Alim qeyd edib ki, bu xüsusda olan yüzlərlə yer adını, tarixi faktları saxtalaşdırmaq heç nəyi dəyişmir. Çünki Azərbaycan xalqı öz tarixinə sahib çıxır: "Hesab edirəm ki, konqres min illərlə məskunlaşdığı, tarixi və təbii sərhədləri daxilində böyük maddi-mənəvi dəyərlərin nümunələrini yaşatmış xalqımızın son 200 ildə keçdiyi yolun bütün aspektlərdə əsl mənzərəsini ortaya qoyacaq. Hər kəs elmi tədqiqatların təkzibolunmaz faktlarla ortaya qoyduğu məruzələrdə iki əsr müddətində geosiyasi vəziyyətlərin yaratdığı reallıqların ağrı-əzabları ilə yaşamış xalqımızın iradəsini görə biləcək", - deyə o bildirib.

Bədii hissə ilə davam edən tədbir işini sabah davam etdirəcək.

# Baş prokuror Tacikistanın müstəqil antikorrupsiya qurumunun rəhbəri ilə görüşüb

**Baş prokuror Kamran Əliyevin dəvəti ilə Tacikistan Respublikasının Dövlət Maliyyə Nəzarəti və Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktoru Suleymon Sultonzodanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdədir.**




Fəxri xiyabanı ziyarət edən qonaqlar xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət ediblər. Daha sonra qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarları üzərinə tər qərənfillər düzərək, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Baş Prokurorluqda keçirilən ikitərəfli görüşdə qonaqları salamlayan baş prokuror ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dövlət başçılarının uzaqgörən siyasətləri nəticəsində yüksələn xətlə inkişaf etdiyini vurğulayıb.

Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi ilə demokratik və hüquqi dövlət quruculuğu yolunu tutan ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən ardıcıl və sistemli qabaqlayıcı tədbirlər, aparılmış hüquqi və institusional islahatlar, milli antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, həmçinin çağdaş dövrdə qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Baş prokuror ölkəmizin suveren ərazi bütövlüyünün tam şəkildə bərpa edildiyini, ölkə rəhbərliyinin diqqət və qayğısı ilə işğaldan azad edilmiş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işlərinin aparıldığını xüsusilə vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Suleymon Sultonzoda rəhbərlik etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirməklə iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə bundan sonra da dəstək verəcəklərinə əminliyini ifadə edib.

Nümayəndə heyəti Baş Prokurorluğun Tarix Muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olublar.

Daha sonra qurumlarımız arasında hüquqi əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı işgüzar səfərlərin təşkil edilməsi, həmçinin təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədilə 2024-2025-ci illər üzrə Əməkdaşlıq Proqramı imzalandı.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

# İslam ölkələrinin nazirləri DOST Mərkəzində olublar

**İslam Əməkdaşlıq Təşkilatı (İƏT) əmək nazirlərinin Bakıda keçirilən 5-ci konfransında iştirak edən İslam ölkələrinin nazirləri 5 saylı Bakı DOST Mərkəzində olublar.**



AZƏRTAC xəbər verir ki, qonaqlara Prezident İlham Əliyevin fərmanı ilə 2019-cu ilin may ayında DOST Agentliyi və bundan sonra 7 DOST Mərkəzinin açıldığı, hazırda bu mərkəzlərin şəbəkəsinin genişləndirilməsi işlərinin davam etdirildiyi barədə məlumat verilib.

Bildirilib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası 159 sosial xidmətin "bir pəncərə"dən operativ, şəffaf, vətəndaş məmnunluğuna uyğun təqdim olunmasına imkan verir.

DOST konsepsiyasının innovativ üstünlükləri və nailiyyətləri, bu konsepsiyanın dünyanın qabaqcıl təcrübələri sırasına daxil edildiyi və beynəlxalq uğurları diqqətə çatdırılıb.

Qonaqlar üçün DOST konsepsiyasına və sosial sahədə e-xidmətlərə dair təqdimatlar edilib.

# TDT-yə üzv dövlətlərin diaspor məsələlərinə məsul şəxsləri Bişkekdə bir araya gəliblər

**Qırğızıstanın paytaxtı Bişkek şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin diaspor məsələlərinə məsul dövlət qurumlarının və təşkilat rəhbərlərinin 5-ci iclası keçirilib.**




Komitədən AZƏRTAC-a bildiriblər ki, toplantının gündəliyinə üzv dövlətlərin diaspor qurumları və türk diasporları arasında koordinasiya və əməkdaşlığın gücləndirilməsi məsələləri daxil edilib.

Qırğız Respublikasının əmək və sosial təminat naziri Gülnarə Batırova iclası açaraq qonaqları salamlayıb.

Sonra TDT Baş katibi Kubanıçbek Ömüralıyev gündəlikdəki məsələlər barədə ümumi məlumat verib, hazırda dünyada gedən mürəkkəb proseslərin diasporun fəaliyyətinə də birbaşa təsir göstərdiyini diqqətə çatdırıb.

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov çıxışında gələn il TDT-nin yaranmasının 15 illiyi münasibətilə Naxçıvan şəhərində üzv dövlətlərin diaspor məsələlərinə məsul dövlət qurumlarının və təşkilat rəhbərlərinin görüşünün keçirilməsini, eləcə də TDT diaspor alimlərinin ümumi məlumat bazasının yaradılmasını təklif edib.

Tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

# Ombudsman Aparatı və Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən Naxçıvanda birgə seminar keçirilib




Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) ölkəmizdəki nümayəndəliyinin birgə təşkilatçılığı ilə Naxçıvanda "Beynəlxalq humanitar hüquq çərçivəsində xüsusi kateqoriyaya aid şəxslərin hüquqlarının müdafiəsinin praktiki aspektləri" mövzusunda seminar təşkil olunub. Tədbirdə bir sıra dövlət qurumlarının əməkdaşları, beynəlxalq ekspertlər və media nümayəndələri iştirak ediblər.

Ombudsman Aparatından bildirilib ki, seminarın keçirilməsində məqsəd aidiyyəti dövlət qurumlarının əməkdaşlarının beynəlxalq humanitar hüququn milli səviyyədə implementasiyası sahəsində bilik və bacarıqlarının daha da artırılması olub.

Tədbirdə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva və Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Draqana Kojiç açılış nitqi ilə çıxış edib və seminarın işinə uğurlar arzulayıblar.

Ombudsman çıxışı zamanı otuz ilə yaxın müddət ərzində Ermənistan tərəfindən torpaqlarımızın işğalı zamanı beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulduğunu, ərazilərimizin minalarla çirkləndirildiyini, İkinci Qarabağ müharibəsindən indiyədək 330-dan çox şəxsin mina qurbanına çevrildiyini bildirib.

Müvəkkil Birinci Qarabağ müharibəsində 4000-ə yaxın azərbaycanlının itkin düşdüyünü, onların taleyi barədə Ermənistan tərəfindən indiyədək məlumat verilmədiyini qeyd edib. S.Əliyeva işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən minatəmizləmə və bərpa-quruculuq işləri zamanı azərbaycanlılara məxsus kütləvi məzarlıqların aşkar olunduğunu, həmin şəxslərin amansız işgəncələrə məruz qaldığını deyib.

Tədbirdə tematik qrup müzakirələri təşkil olunub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Yekunda seminar iştirakçılarına sertifikatlar təqdim edilib.

# Fransa regiondan məğlub kimi geri çəkiləcək

## Ermənistan rəhbərliyi Parisin oyuncağına çevrilib

**"Fransa əsrlərdir ki, kolonializm siyasəti həyata keçirir, Afrika dövlətlərinə, Sakit, Hind və Atlantik okeanlarında icma və ərazilərdə yaşayan xalqlara qarşı soyqırımı siyasəti yürüdüb. Bu gün də Fransa Prezidenti Makron digər bölgələrdə müstəmləkə siyasəti həyata keçirməyi planlaşdırır".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. Fransa hakimiyyətinin Ermənistan vasitəsilə Cənubi Qafqaza nüfuz etmək niyyətində olduğunu deyən deputat hesab edir ki, 2018-ci ildə Ermənistanda çevriliş edərək Paşinyanı hakimiyyətə gətirən Fransa və ona müttəfiq dövlətlər Cənubi Qafqaz regionunda sülhün yaranmasında maraqlı deyillər. Ermənistanın Azərbaycan torpaqlarını 30 il işğalda saxladığı dövrdə Fransa bu ölkəyə hər zaman yardım edib. 2020-ci ildə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin başçılığı ilə Azərbaycan Ordusu Ermənistan ordusunu məğlub edərək torpaqlarımızı işğaldan azad etdi. 2023-cü ilin sentyabr ayında uğurla başa çatdırılan antiterror tədbirləri Azərbaycanın konstitusiya quruluşunu və ərazi bütövlüyünü təmin edib.

Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin regionda sülhün, əmin-amanlığın yaranması, inkişaf etməsi üçün Ermənistan rəhbərliyinə sülh müqaviləsi təklif etdiyini xatırladan deputat qeyd edib ki, amma Fransanın təsiri altında olan Ermənistan yaranan bu fürsəti dəyərləndirmək gücündə deyil. "Fransa dövlətinin Ermənistana silah verməsi regionda yeni müharibənin başlanmasında maraqlı olduğunu sübut edir. İstər Fransa Prezidenti, istərsə də Senatı Azərbaycana qarşı mütəmadi olaraq əsassız, yalan və iftira dolu bəyanatlar səsləndirir, dünya ictimaiyyətində Azərbaycanın mənfi imicini formalaşdırmaq istəyirlər. Fransa bu il iki dəfə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı qətnamə çıxarılması üçün təşəbbüslə çıxış edib. Hər dəfə acı məğlubiyyətə uğrayıb", - deyə deputat əlavə edib.

K.Əliyeva Fransa Prezidenti Makronun ermənilərin Qarabağdan Azərbaycan dövləti tərəfindən zorla çıxarılması barədə iddialar səsləndirdiyini qeyd edərək bildirib ki, BMT müşahidəçiləri Qarabağa iki dəfə səfər etsələr də, yekunda ermənilərə qarşı heç bir zor tətbiq edilmədiyini bildiriblər.

Beynəlxalq Ədalət Məhkəməsi də Ermənistanın Azərbaycan dövlətinə qarşı irəli sürdüyü iddiaları rədd etmişdi. Buna baxmayaraq, Fransa Azərbaycana qarşı qərəzli siyasətindən əl çəkmir. Prezident İlham Əliyev keçirdiyi rəsmi görüşlərdə, beynəlxalq təşkilatlarda Fransanın müstəmləkəçilik, kolonializm siyasəti yürütdüyünü, bu ölkənin iç üzünü bütün dünyaya çatdırır. Fransanın nüfuzu beynəlxalq aləmdə getdikcə azalır. Təəssüflər olsun ki, Ermənistan rəhbərliyi hələ də Parisin onu müdafiə edəcəyini düşünür. Ermənistan bu dövlətin oyuncağına, erməni xalqı isə qurbanlıq xalqa çevrilib. Sonda Ermənistan meydanda tək qalacaq. Fransa isə Azərbaycan qarşısında məğlub vəziyyətə düşərək Cənubi Qafqazdan geri çəkiləcək.

"Prezident İlham Əliyev hər zaman qeyd edir ki, Cənubi Qafqazda yaranmış problemləri yalnız region dövlətləri özləri həll etməlidir" deyən deputat əlavə edib ki, Azərbaycan ikitərəfli danışıqlarla münasibətlərin normallaşmasına müsbət təsir göstərir. Çox güman ki, Ermənistan sonda bu həqiqəti başa düşəcək, regionun çiçəklənməsi və inkişafı üçün Azərbaycanın təklif etdiyi sülh sazişini qəbul edəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Bakı Parisi oyundankənar vəziyyətə salır

## Fransa qanlı tarixindən utanmaq əvəzinə yeni müstəmləkələr üçün müharibə planları hazırlayır

**Cənubi Qafqazda sabitliyə, sülhə mane olaraq Ermənistanı silahlandıran, revanşa qızışdıran, vaxtaşırı Azərbaycana qarşı əsassız ittihamlar irəli sürən, bəyanatlar qəbul edən Fransanın geosiyasi intriqalarla məşğul olduğu açıq şəkildə görünür.**

Rəsmi Paris beynəlxalq hüququn norma və prinsiplərini pozan bütün bu qanunsuz əməlləri ilə yanaşı, həm də islamofob, türkofob, irqçi siyasət yürüdür.

Noyabrın 21-də Bakıda keçirilən "Dekolonizasiya: qadınların gücləndirilməsi və inkişaf" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində Prezident İlham Əliyev də xüsusi diqqətə çatdırdı ki, Fransa təkcə keçmiş və indiki müstəmləkələrində deyil, eyni zamanda Cənubi Qafqazda stabilliyi pozur, separatizm meyillərini və separatçıları dəstəkləyir. Ermənistanı silahlandırmaqla militarist siyasət həyata keçirir, revanşist qüvvələri təşviq edir, regionumuzda yeni müharibələrin başlaması üçün zəmin hazırlayır.

### Makron hakimiyyətinin bölgə ilə bağlı cızdığı riyakar trayektoriya

Vasitəçi olaraq keçmiş Qarabağ münaqişəsinin həlli istiqamətində heç bir əməli fəaliyyət göstərməyən, Azərbaycanın işğalla barışmasında maraqlı olan "demokratik" Fransa 44 günlük Vətən müharibəsinin bölgədə yaratdığı reallıqları qəbul edə bilmir. Çünki onilliklərdir yalançı vədlərlə erməni lobbisindən qopardığı pullar əlindən çıxıb. İşğal altında olan Azərbaycan torpaqlarında qanunsuz olaraq sərvətlərimizi talamasına son verilib. Ümumiyyətlə, müstəmləkəçi ölkə Cənubi Qafqazdan, yumşaq desək, qovulub və yenidən özünü bu bölgəyə pərçimləmək üçün forpostuna çevirdiyi Ermənistandan istifadə edir.

Ötən üç il müddətində Makron hakimiyyətinin bölgə ilə bağlı cızdığı riyakarlıq trayektoriyası təxminən belə olub: ölkəmizə qərəzli münasibətindən utanmayaraq Ermənistanla Azərbaycan arasında normallaşma ilə əlaqədar aparılan danışıqlarda tərəf olaraq iştirak etmək istəyib, bu niyyəti baş tutmadıqda isə əsl üzünü göstərməyə başlayıb. Qoca qitənin məkr dağarcığı olan Fransa, gah Aİ missiyası çərçivəsində öz pensionerlərini sərhədimizə yığaraq binokldan kəm gözlərlə Azərbaycana tərəf baxıb, gah Laçın yolu ətrafında şoular yaradıb, ölkəmizə qarşı informasiya kampaniyası başladıb, gah da Avropa Parlamenti kimi riyakar Qərb təşkilatlarından ölkəmizə qarşı təzyiq vasitəsi kimi istifadə edib, onlara qərəzli qətnamələr qəbul etdirib.

Azərbaycanın Qarabağda suverenliyini bərpa etməsi və birbaşa Fransadan maliyyələşən separatçıların əl-qolunu qandallaması isə Parisə tərs şillə olub.

Qarabağı könüllü tərk edən erməniləri siyasi ambisiyalarının qurbanına çevirən Fransa onların adından yalanlar, böhtanlar uydurараq beynəlxalq ictimaiyyəti çaşdırır.

### Beynəlxalq hüquq təhqir olunur

Eyni zamanda "insan haqlarının müdafiəçisi" Fransa beynəlxalq hüququ da heçə sayır, Beynəlxalq Ədalət Məhkəməsinin (BƏM) qərarlarına belə məhəl qoymur.

Məlum olduğu kimi, Beynəlxalq Ədalət Məhkəməsi 2023-cü il 17 noyabr tarixli qərarı ilə Ermənistanın Azərbaycana qarşı əsas iddialarını rədd etdi. Azərbaycanın Qarabağ üzərində suverenliyini və ərazi bütövlüyünü təsdiq edən BƏM bu qərarı ilə ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həyata keçirdiyi milli maraqlarını qəbul etdiyini göstərmiş oldu.

Lakin Fransa Xarici İşlər Nazirliyi tərəfindən BƏM-in sözügedən tarixli qərarını təhrif edən gülünc bəyanatı göstərdi ki, Makron hakimiyyəti ədalətin yerini tutmasından çox narazı və narahatdır. Eyni zamanda bu hal, Fransanın öz maraqlarına xidmət etməyən bütün danışıqları, nüfuzlu qurumların qətnamələrini, məhkəmə qərarlarını saymadığını ortaya qoyur.

O da faktdır ki, Fransanın 27 il ərzində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz Azərbaycan torpaqlarını tərk etməsi ilə bağlı qəbul etdiyi 4 qətnaməsinin yerinə yetirilməməsinə görə İrəvana bir dəfə də olsun hansısa bəyanat verməsinin, qətnamə qəbul etməsinin, sanksiya, təzyiq göstərməsinin şahidi olmamışıq.

### Bakı Parisin zəhlətökənliyindən yorulub

Hazırda isə neokolonialist Fransa böyük iştahla Cənubi Qafqazda müharibəyə zəmin yaratmaq üçün dəridən qabıqdan çıxır, təcavüzkar Ermənistanı silahlandıraraq yenidən bölgədə savaş olmasını istəyir.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova da bildirib ki, Qərbin və Fransanın məqsədi xüsusilə Cənubi Qafqazı daha bir qarşıdurma meydanına çevirməkdir. Onlar region ölkələrinin maraqlarına məhəl qoymurlar, bölgədə təhlükəsizliyin, sabitliyin və çiçəklənmənin təmin olunması üçün heç nə etmirlər: "Hesab edirəm ki, Bakı və həmçinin bəzi ölkələr artıq dünyanın digər yerlərində özünün kökdən düşmüş siyasi nüfuzunu Cənubi Qafqazda bərpa etməyə çalışan Parisin zəhlətökənliyindən yorulub".

Tarixi soyqırımları üzərində qurulan Fransa sözün əsl mənasında dünyanı bezdirib. Özünü "demokratiyanın beşiyi" sayan Paris elə hesab edir ki, bütün ölkələrin işlərinə müdaxilə edə, müstəmləkəçilik siyasəti yeridə bilər.

Əlcəzairlilər başda olmaqla, müxtəlif xalqlara qarşı törətdiyi qanlı əməllərə görə utanmaqdansa, Azərbaycanı "etnik təmizləmə"də günahlandırması isə Fransanın bir başqa ikrah doğuran həyasızlığıdır.

Lakin Fransanın dünyada törətdiyi cinayət əməllərini bütün beynəlxalq tribunalarda ifşa edən Azərbaycan heç zaman imkan verməyəcək ki, neokolonialist ölkə Cənubi Qafqaza soxulub, buranı da müharibə meydanına, qan gölünə çevirsin.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Beynəlxalq İnkişaf Agentliyi Amerikanın hörümçək torudur

**Yer kürəsinin böyüklü-kiçikli istənilən ölkəsində baş verən müharibələrə, dövlət çevrilişlərinə, siyasi kataklizmlərə diqqət yetirəndə burada mütləq ABŞ-nin əlinin izini görmək olur. Bu fakt onu göstərir ki, ABŞ-nin əli çox uzundur. O qədər uzundur ki, dünyanın istənilən ucqar bir küncünə gedib çatır.**



Əslinə baxanda əlin uzun olması elə də pis deyil. O pisdir ki, həmin əl xeyirxahlıq üçün deyil, pis niyyətlə uzadılsın. Təəssüflər olsun ki, ABŞ əlini hər yerə pis niyyətlə, pis məqsədlə uzadır. Buna görə də harada, hansı işdə Amerikanın imzası, adı varsa, orada müharibə və fəlakət mövcuddur.

Əvvəllər ABŞ-nin uzun əli Qafqaza çatmırdı. Keçmiş ittifaq tarixin arxivinə gömüləndən sonra Amerikanın uzun əli bu yerlərdə də görünməyə başladı. Görünən kimi də Qafqazda aranı qarışdırdı. Təəssüflər olsun ki, ABŞ-nin 1992-ci ildən Ermənistanın əli ilə ölkəmizə qarşı başlatdığı təxribat davam edir. Azərbaycan Ordusu 19-20 sentyabrda Qarabağda lokal xarakterli antiterror tədbiri keçirəndən, separatizmə son qoyandan, ərazi bütövlüyünü tam bərpa edəndən sonra bu təxribat daha da güclənib. Görünür ki, Amerika Azərbaycanın Ermənistan üzərində qələbəsini həzm edə bilmir, müharibənin, işğalın bitməsini istəmir. Buna görə də Ermənistanı Fransanın vasitəsilə silahlandıraraq yeni müharibə ocağı yaratmağa çalışır. Bütün bunlar isə Azərbaycanla ABŞ arasında ikitərəfli və çoxtərəfli formatlarda olan münasibətlərə zərbə vurur.

Konqresin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilmiş dinləmələr ölkəmizdə və, ümumiyyətlə, Cənubi Qafqazda sabitliyin bərqərar edilməsinə qarşı ABŞ-də fəaliyyət göstərən erməni lobbisinin növbəti təxribatıdır. Uzun illər ərzində qatı antitürk və anti-Azərbaycan fəaliyyəti ilə tanınmış Bob Menendezə qarşı rüşvət iddiası ilə cinayət işi açıldıqdan sonra təəssüflər olsun ki, ABŞ Konqresində erməni maraqlarını gündəmə gətirən yeni üzdəniraq simalar peyda olub.

Dönüb yaxın keçmişə baxanda görürük ki, Cənubi Qafqazla bağlı ABŞ-nin son 30 ildə apardığı siyasət bölgənin maraqları baxımından heç zaman ürəkaçan olmayıb. Torpaqlarımızın uzun müddət işğalda qaldığı vaxtlarda ABŞ bir dəfə də olsun Ermənistanı qınamayıb, onu təcavüzkar, işğalçı adlandırmayıb. Əksinə, ABŞ Konqresi işğal illəri ərzində davamlı olaraq Qarabağdakı separatçılara ildə 10 milyon dollar vəsait ayırıb. Bütün bunları xatırlayanda ABŞ-nin Azərbaycana xoş olmayan münasibəti tam çılpaqlığı ilə üzə çıxır. Separatçıya milyonlarla pul ayıran ölkədən bundan artıq nə gözləmək olar ki?!

İndi bölgədə vəziyyət dəyişib. Ali Baş Komandanın, Azərbaycan Ordusunun və xalqının şücaəti və fədakarlığı sayəsində tarixi ədalət bərqərar olunub. Amma bu ədalətin bərqərar olunmasında nə ABŞ, nə də Avropa dövlətləri bir addım atıb. Əksinə, Azərbaycanın öz gücünə işğala son qoymasına bir çox qlobal güc mərkəzi, ABŞ ilə bərabər, Avropanın bir sıra dövlətləri qısqanclıqla yanaşırlar. Görünən odur ki, ABŞ, Fransa və bəzi Avropa ölkələri Azərbaycanla Ermənistan arasında 30 il davam edən, minlərlə insanın həyatına son qoyan müharibənin bitməsində maraqlı deyillər. Çünki onlar bundan sonra bütövlükdə Cənubi Qafqaz bölgəsinə müdaxilə etmək, region dövlətlərinə öz iradələrini yeritmək üçün təzyiq imkanlarından məhrum olurlar. Bax, budur ABŞ-nin, Fransanın və başqa bizi istəməyən dövlətlərin başlarının ağrısı.

Fransa ABŞ-nin tapşırığı ilə Ermənistanı silahlandırmaqla iki ölkə arasında münasibətlərin normallaşmasına əngəl yaradır, sülh müqaviləsinin imzalanmasını arxa plana keçirir. Fransadan geri qalmayan ABŞ Ermənistanı revanşa həvəsləndirir, siyasi və hərbi yardımlar vasitəsilə erməni faşizmini dirçəltməyə çalışır. Məqsədinə çatmaq üçün bütün imkanlarını işə salır. ABŞ-nin də, Fransanın da əsas məqsəd və məramı Ermənistan vasitəsiylə bölgədə sabitliyi pozmaq və bundan istifadə edərək Cənubi Qafqazda məskunlaşmaq, sonra da yavaş-yavaş Rusiyanı bu bölgədən sıxışdırıb çıxarmaqdır. Bu ölkələr məqsədlərinə çatmaq üçün Ermənistandan istifadə edirlər. Hadisələrin gedişi onu göstərir ki, Ermənistanın da böyük güclərin Cənubi Qafqaz oyununda peşka olmaqdan xoşu gəlir. Çünki verilən şirin vədlərə aldanan Ermənistanın bu oyunda öz maraqları var.

ABŞ-nin dünyanın ayrı-ayrı ölkələrində məqsədinə çatmaq üçün istifadə etdiyi təşkilatlardan biri də Beynəlxalq İnkişaf Agentliyidir (USAID). Deyilənlərə və yazılanlara inansaq, 1961-ci ildə yaradılan bu təşkilatın məqsədi qlobal miqyasda kasıb ölkələrə humanitar yardım etməkdən ibarətdir. Amma 63-cü ildir fəaliyyətdə olan USAID bu cür nəcib ideyalar üçün işlədiyini elan etsə də, zaman-zaman bir çox ciddi sual və şübhələr ortalığa çıxıb. Ən əsas və ciddi ittiham USAID-in ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CIA) altstrukturu kimi fəaliyyət göstərməsidir. Bu təşkilatın çirkin işlərlə məşğul olduğunu təsdiq edən faktlar kifayət qədərdir. USAID-in xoşagəlməz fəaliyyəti ilə ətraflı tanış olandan sonra bu təşkilatı bir növ Amerikanın dünyanın bir çox ölkəsində qurduğu hörümçək toruna bənzətmək olar. ABŞ bu təşkilat vasitəsilə ölkələrdə torunu qurur, proseslərə nəzarət edir, siyasətini həyata keçirir, lazım olanda da şikarını qəflətən tutur.

USAID Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərir. Təşkilat fəaliyyət sahələrinin əsasən kənd təsərrüfatı və turizm olduğunu, mikro, kiçik və orta sahibkarlıq müəssisələrinə diqqət yetirilməsi olduğunu elan edib. Amma istər 2020-ci ildəki 44 gün davam edən Vətən müharibəsi, istər 2022-ci ilin sentyabrında Azərbaycan-Ermənistan sərhədində baş verən toqquşma, istərsə də Qarabağdakı separatçı qurumun varlığına birdəfəlik son qoyan antiterror tədbirləri zamanı bu təşkilat Azərbaycan cəmiyyətinin müharibəyə qarşı olması, hətta Azərbaycanın Ermənistan ərazisinə təcavüz etməsi barədə yanlış rəy yaradırdı. USAID-in Azərbaycandakı fəaliyyətində qeyri-şəffaflıq və siyasi proseslərə müdaxilə ilə yanaşı, mənfi amillərdən biri agentliyin "erməni kartı"ndan istifadəsi ilə bağlıdır. USAID-in hazırkı direktoru Samanta Pauer əvvəllər ABŞ-nin BMT-dəki daimi nümayəndəsi kimi çalışmış və "erməni soyqırımı"nın tanınmasının əsas tərəfdarı olmuşdu. Utanıb qızarmadan ABŞ-nin "soyqırımı" tanımamasına görə dərin təəssüf hissi keçirdiyini də bildirmişdir. Bu günlər Pauer rəhbərlik etdiyi USAID-in Qarabağı könüllü tərk etmiş ermənilərə əlavə 4,1 milyon dollar ayırdığını, həmin şəxslərin "məcburi köçkün" olduğunu söyləmişdir. Rəsmi Bakı da onun cavabını real faktlarla və layiqincə vermişdir.

Dünyanın işləri bu cür qalmayacaq. Bulanıq sular axıb-axıb günlərin birində durulacaq. Həmin günlər ABŞ uzun illər haqsızcasına Ermənistanı dəstəkləməklə Azərbaycana qarşı tutduğu qərəzli mövqeyə görə peşiman olacaq. Bu günə qədər peşimançılıq heç kimə fayda verməyib. Heç Amerikaya da verməyəcək. Çünki peşimançılıq bir növ arxadan atılan daşa bənzəyir. Arxadan atılan daşın da hara dəydiyini hamı bilir. Yəqin ki, dünyanın bütün şər işlərində uzun əli olan Amerika da bunu bilməmiş deyil.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Qrant, yoxsa şərə, böhtana verilən "mükafat"?

**Dünya od içindədir. Hər tərəfdə partlayışlar, güllə səsləri eşidilir. İnsanlar qan gölündə boğulur. Böyük-böyük şəhərlər dağıdılır, insanların illərlə qurduqları, yaşadıqları yurdları viran edilir. Harada qan-qada, qırğın varsa, arxasından ya Qərb çıxır, ya da ABŞ-nin buz kimi soyuq baxışı boylanır.**

ABŞ Senatı cümə axşamı Ukraynaya 40 milyard dollarlıq növbəti yardım paketini təsdiqlədi. Ayrılan vəsait əsasən Rusiya qoşunlarını ölkədən çıxarmağa çalışan Ukrayna ordusunun silahla təminatına sərf ediləcək. Senatdakı demokratik çoxluğun rəhbəri Çak Şumer bildirib ki, ayrılan vəsait "yaşamaq üçün mübarizə aparan" Ukraynaya lazımdır.

Bir anlığa çox da uzaq olmayan yaxın keçmişə qayıtmaq imkanımız olsa, bu gün qan gölündə boğulan xalqların, viran qalmış şəhərlərin sakit, indiki kimi faciəli olmayan keçmişini görərik. Soyuq müharibə bitdikdən, SSRİ dağıldıqdan sonra ABŞ dünyaya təkbaşına ağalıq etmək həvəsinə düşdü. Dünyaya demokratiya ixrac edən ABŞ göz qoyduğu ölkələrə "rəngli inqilab"ları həyata keçirəcək qrantlarla ayaq açdı. Bu gün Ukraynada baş verənlər ABŞ-nin, Qərb dövlətlərinin maliyyələşdirdiyi "rəngli inqilab"ların nəticələridir. Yaxşı ya pis olması barədə qiyməti bu "proje"ni həyata keçirənlər yox, evləri dağıdılıb dünyaya səpələnmiş insanlar və tarix verəcək…

Sirr deyil ki, ABŞ və Qərb dövlətləri onların maraqlarını təmin etməyən ölkələri "demokratiya", "azadlıq", "insan hüquqları" və "azad söz"ü inkişaf etdirmək məqsədilə yaradılmış beynəlxalq fondlar vasitəsilə ələ almaq istəyirlər. Bu işdə əsas işi ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi (USAID), Milli Demokratiya İnstitutu, NED kimi tanınan Milli Demokratiya Fondu, German Marşal Fondu və digər fondlar vasitəsilə həyata keçirirlər. Qərbdə isə demokratiya yükünü çəkmək Aİ-nın boynuna düşür.

Avropa İttifaqı Ukrayna, Gürcüstan, Moldova, Ermənistan, Azərbaycan və Belarusda "demokratiya və insan hüquqlarının inkişaf etdirilməsi" üçün yüksək məbləğli qrant layihələri elan edib. Müxtəlif sahələr üzrə ictimai maraq kəsb edən məsələlərə dair "jurnalist araşdırmaları"nın həyata keçirilməsi üçün 100 min avro ayrıldığı bildirilib. "Araşdırmalar" əsasən korrupsiya, maliyyə cinayətləri, mütəşəkkil cinayətkarlıq, ictimai təhlükəsizlik, demokratiya və insan hüquqları, ətraf mühit və iqlim dəyişikliyi, səhiyyə kimi sahələri əhatə etməlidir. Çərçivə genişləndirilə də bilər.

Fikir versək, görərik ki, bu mövzuların istiqamətləri yalnız "Şərq tərəfdaşlığı" ölkələrinə aiddir. Guya Qərb dövlətlərində nə maliyyə fırıldağı var, nə korrupsiya, nə də rüşvətxorluq.

Bu kimi layihələrin zahiri cəlbediciliyi ilə yanaşı, şirnikləndirici mahiyyət daşıdığını hər kəs bilir. Aydın məsələdir ki, beynəlxalq donorlar, Qərb, indiki halda Avropa İttifaqı qrant adı ilə ayırdıqları vəsait hesabına özlərinin agentura şəbəkəsini yaradıb, onlardan açıq şəkildə informasiya toplamaq, yeri gələndə öz planlarını həyata keçirmək üçün iğtişaşlar yaradıb sabitliyi pozmaq üçün istifadə edirlər. İctimai təhlükəsizliyə dəstək adı altında həyata keçirilən bu layihələr həmin ölkənin təhlükəsizliyinə birbaşa təhdiddir.

Bir məsələyə də diqqət yetirməyi vacib bilirik. Bu yaxınlarda Avropa Şurası tərəfindən 2023-cü il üçün nəzərdə tutulan 4,5 milyon avroluq layihələrin yalnız 500 mini rəsmiləşdirilib, qalan vəsaitdən isə heç bir xəbər yoxdur. Şəffaflığın təmin edilməməsi istər-istəməz haqlı şübhə doğurur. Bəs Avropa Şurası yerdə qalan 4 milyon avronu kimə və nə məqsədlə verib?

ABŞ-nin Milli Demokratiya Fondu yalnız ötən il Azərbaycanda "insan haqları, şəffaflıq (korrupsiya ilə mübarizə), müstəqil KİV və ölkədə demokratiyanın inkişafı" istiqamətləri üzrə 15 qeyri-layihə üçün vəsait ayırıb. Qrantların dəyəri 26 345-156 358 ABŞ dolları civarındadır. Üç istiqamət üzrə "Müstəqil xəbər veb-saytı" 96 900, "Xəbər aqreqatoru" 34 028, "Azərbaycanda müstəqil KİV-ə dəstək" 156 358 ABŞ dolları olub.

Bu gün ölkəmizə qarşı qərəzli mövqe tutan, ABŞ-nin və Qərb dövlətlərinin belə səxavətlə pul paylamasının bir adı var: bu pullar şərə, böhtana xidmət edən, sapı özümüzdən olan baltalara ölkəmizə, dövlətimizə qarşı atdıqları şər və böhtanlara görə verilən "mükafat"lardır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Qərbdən gələn qeydiyyatsız qrantlar Azərbaycanda necə realizə edilir?

**Əvvəlki yazımızda qeyd etmişdik ki, ABŞ-nin təxribat institutları Azərbaycanda radikal feministlər, "Abzas Media", "Toplum TV", "Demokratik Təşəbbüslər İnstitutu" qismində "yığcam və çevik qruplar" formalaşdırıblar. Onlar ayrı-ayrılıqda çalışan muxtar şəbəkələr kimi görünsələr də, sonda eyni mərkəz ətrafında birləşir, ABŞ-dən yönləndirilən "qrant şəbəkəsi"nin diktəsi ilə hərəkət edirlər. Onu da bildirmişdik ki, belə lokal şəbəkələrin sayı çoxdur, bütün sferalarda təmsil olunurlar. Bir-birinə dəstək verərək, ictimai rəyə təsir edən güc mərkəzi kimi çıxış edirlər. Yazıda adını çəkdiyimiz təşkilatlar onların sırasından sadəcə nümunə olaraq seçilib istifadə edilirlər.**

İnformasiya agentliyinin məlumatına görə, noyabrın 21-də baş verən bir olay yazdıqlarımızı təsdiqləyən əlavə arqumentlər yaratdı. Təfsilatı budur ki, "Abzas Media" xəbər saytının direktoru Ülvi Həsənli Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. Vəkil Zibeydə Sadıqovanın iştirakı ilə onun ofisində axtarış aparılıb. Mənbəyi bilinməyən 40 min avro məbləğində vəsait götürülərək sənədləşdirilib. Hüquq-mühafizə orqanlarının məsələ ilə bağlı rəsmi açıqlaması gecikdi. Görünür, izahat işi aparıb faktları dəqiqləşdirməyə çalışırlar. Ofisdə axtarışların aparılmasına səbəb olan faktların təsdiqini tapıb-tapmayacağını yoxlayırlar.

Amma "qrant şəbəkəsi"nin üzvləri rəsmi açıqlamanı gözləmədən və heç bir dəqiqləşdirmə aparmadan bəyanatlar yaydılar. "Abzas Media"nın guya "müstəqil KİV qurumu" olduğunu, direktor Ü.Həsənlinin də məhz "həqiqəti yazdığına görə həbs edildiyini" bildirdilər. "Sərhədsiz Reportyorlar" Təşkilatı (Paris) və "Jurnalistlərin Hüquqlarını Müdafiə Komitəsi" (Nyu York, ABŞ) operativ şəkildə bəyanatlar yayaraq hadisəni "müstəqil mediaya qarşı təzyiq" kimi qiymətləndirdi.

Prosesin gedişində diqqət çəkən, araşdırılması zəruri olan nüanslar üzə çıxdı. Həmin nüansları təhlil etməklə, indiyədək cavabı bilinməyən bir sıra suallara aydınlıq gətirmək mümkündür. Bunları bir-bir nəzərdən keçirək.

Ü.Həsənlinin saxlanılması barədə Azərbaycan KİV-lərində ilk xəbərin dərc edilməsi ilə "Sərhədsiz Reportyorlar"ın bəyanat yayması arasındakı vaxt kəsimi cəmi 31 dəqiqə çəkdi. Elə təəssürat yaranır ki, sanki "Sərhədsiz Reportyorlar" hadisənin baş verəcəyini öncədən bilirmiş, hazır mətn yazıb saxlayırmış. Bu məsələdə daha bir məqam var: "Sərhədsiz Reportyorlar"ın bəyanatının Azərbaycan dilinə tərcümə edilib yayılması da çox operativ şəkildə həll edildi. Buradakı vaxt intervalı 26 dəqiqə oldu. Belə çıxır ki, "Sərhədsiz Reportyorlar" hadisənin baş verəcəyini "öncədən bildiyi kimi", bəzi KİV-lər də "Sərhədsiz Reportyorlar"ın bəyanat verəcəyindən xəbərdar olublar. Ülvi Həsənlinin saxlanılması barədə ilkin məlumatın açıqlanması, bu məlumatın monitorinq mərkəzlərinin diqqətinə düşməsi, tərcümə edilərək "Sərhədsiz Reportyorlar"a göndərilməsi, bəyanatın hazırlanması və yayılmış bəyanatın Azərbaycan dilinə tərcümə edilərək KİV-lərdə yayılması təəccüblü deyilmi? Bütün bu zəncirvari proses cəmi 1 saat ərzində necə baş verib? Təcrübə göstərir ki, belə proseslər adətən 1 gün, azı bir neçə saat vaxt aparır. Hətta elə nümunələr var ki, həftələrlə, aylarla, illərlə uzanır. Məsələn, 2020-ci il noyabrın 11-də İrəvanda "Azadlıq Radiosu"nun redaksiyasına basqın olub. Üzərindən 3 il 12 gün keçib, amma hələ də qeyd edilən xəbər "Sərhədsiz Reportyorlar"ın saytında yerləşdirilməyib. Yaxud TF-1 kanalının əməkdaşı 2020-ci ilin oktyabrında Parisdə erməni icması tərəfindən ölümlə hədələnib. Üzərindən 3 il 2 ay vaxt keçsə də, həmin hadisə barədə xəbər hələ də "Sərhədsiz Reportyorlar"ın lentinə yerləşdirilməyib. "Abzas Media" hadisəsinin 31 dəqiqə ərzində diqqət çəkməsi, tərcümə edilməsi, bəyanata çevrilməsi, həmçinin bəyanatın 26 dəqiqə ərzində Azərbaycan dilinə çevrilərək KİV-lərdə dərc edilməsi təcrübədə rast gəlinməmiş hadisədir. Hətta fiziki cəhətdən çatdırılması imkansızdır. Belə operativlik fövqəladə diqqət və çeviklik tələb edir. Həmin fövqəladə diqqət haradan formalaşır? Hələ onu demirik ki, bu hadisələrin baş verməsi Bakıda gündüz, Nyu Yorkda isə gecə saatlarına təsadüf edir. ABŞ-dəki təşkilatlar gecələr yatmayıb Azərbaycanımı izləyirlər? Suallar mürəkkəb görünsə də, cavabı çox sadədir. Proses ona görə belə intensiv şəkildə həll edilib ki, onun bütün mərhələləri bir məkanda, bir redaksiya otağında baş verib.

Ü.Həsənlinin həbsi barədə ilk informasiyanı "Turan" İnformasiya Agentliyi və "Amerikanın səsi" radiosunun Azərbaycan redaksiyası yayıb. Bu iki redaksiyanın əməkdaşları, demək olar ki, müştərək heyətdən ibarətdir. Əlavə olaraq, "Turan" İnformasiya Agentliyinin redaktoru olan Şahin Hacıyev paralel şəkildə "Sərhədsiz Reportyorlar" təşkilatının Azərbaycan üzrə təmsilçisidir. Beləliklə, onun hazırladığı informasiya paralel şəkildə həm "Sərhədsiz Reportyorlar", həm "Turan" İA, həm də "Amerikanın səsi" vasitəsilə eyni anda yayıla bilir. İllərdir ki, "Sərhədsiz Reportyorlar"la yaşanan gərginlik həm də bu mənbədən qaynaqlanır.

Problem ondadır ki, Ş.Hacıyev uzun illər ərzində "Sərhədsiz Reportyorlar"ın təmsilçisi olsa da, təşkilatın saytında bu barədə qeyd verilməyib. Dəqiq səbəbi yalnız onun özünə bəllidir. Amma ehtimal etmək olar ki, üzləşəcəyi təzyiqlərdən ehtiyatlanır. Kimsə çıxıb soruşa bilər ki, hansı əsasla "Abzas Media"nı peşəkar KİV qurumu adlandırır? Hansı arqumentlə Ülvi Həsənlinin saxlanılmasını müstəqil KİV-ə qarşı təzyiq elementi kimi qiymətləndirir? Bu dırnaqarası "KİV" qurumunun heç rekvizitləri yoxdur. "Media haqqında" qanuna əsasən, hər bir KİV qurumu öz səhifəsində təsisçisi, işçi heyəti, məsul şəxsi və əlaqə vasitələri haqqında məlumat yerləşdirməlidir. "Abzas Media"nın saytında isə bu rekvizitlərin heç biri qeyd edilməyib. Hətta "Abzas Media" xəbər saytında Ülvi Həsənlinin baş direktor olması barədə də hər hansı məlumat yoxdur. Saytdakı "Haqqımızda" kateqoriyasında cəmi 2 cümlə var. Orada yazılıb ki, sayt 2016-cı ildə qurulub.

Elə bunun nəticəsidir ki, Həsənlinin saxlanılması barədə yayılan informasiyalarda çaşqınlıq üzə çıxır. Bəzi KİV qurumları onu "direktor", digərləri isə "baş redaktor" kimi təqdim edirlər.

Əgər "Abzas Media" leqal, qanuni fəaliyyət göstərən, peşəkar KİV qurumudursa, öz saytında bu məlumatları təqdim etməlidir. Etmirsə, deməli, ya KİV qurumu deyil, ya da qanunları pozaraq qeyri-leqal fəaliyyət göstərir. Bu məqamdan başlayaraq, digər şübhələr də yaranır. "Sərhədsiz Reportyorlar", "Amerikanın səsi" və digər təşkilatlar bu şübhəli məqamları nəzərə almadan, "Abzas Media"nı nə üçün "peşəkar KİV qurumu" adlandırırlar?

Burada da suallar çoxdur, amma cavab sadədir. Şəbəkə işidir, tapşırıq belədir. Bu şəbəkələr, hətta haqsız olsalar belə bir-birini müdafiə etməyə məhkumdurlar. Azərbaycanın əleyhinə olan bütün informasiyaları operativ şəkildə işləyib beynəlxalq aləmin diqqətinə çatdırmalıdırlar. Əgər neqativ fakt olmasa da, uydurmalıdırlar, süni şəkildə hazırlayıb göndərməlidirlər. Necə ki 2000-ci illərin ortalarında Emin Hüseynovun rəhbərlik etdiyi Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutu (RATİ) adında təşkilat Azərbaycana qarşı təxribatçı fəaliyyət göstərən İranın "Səhər" kanalının Azərbaycanda qeyri-qanuni fəaliyyət göstərən çəkiliş qrupunun həbs olunmuş sürücüsünü həbs edilmiş jurnalistlər siyahısına daxil edərək Beynəlxalq Jurnalistlər Federasiyasının həmin vaxt Azərbaycanda səfərdə olan direktoru Aydan Uayta təqdim etmişdi. Çünki o vaxt RATİ və onun kimi təşkilatların qarşısına belə bir vəzifə qoyulmuşdu ki, Azərbaycanda həbsdə olan jurnalistlərin siyahısında azı 10 şəxsin adı olmalıdır. Bunlar da siyahını şişirtmək üçün fəaliyyət sferasından asılı olmayaraq, kimi gəldi o siyahıya daxil edərək beynəlxalq hüquq-müdafiə təşkilatlarına göndərirdilər. O vaxt ortaya qoyulan siyasət bu gün də davam edir. Bu gün də tapşırıq belədir ki, Azərbaycanın adının beynəlxalq reytinq cədvəllərində daim aşağı mərtəbələrdə göstərilməsi təmin edilməlidir. Bu, bir siyasətdir. ABŞ və onun proksi qüvvələri üçün təsir alətidir. Hədəfdə olan ölkələri bu yolla daim təzyiq altında saxlayırlar.

Bu mexanizmi işlək halda saxlamaq üçün "lokal şəbəkələr"ə külli miqdarda vəsaitlər ayrılır. İnanılmaz görünsə də, faktdır ki, ayrılan vəsaitlərin həcmi milyon dollarlarla ölçülür. Radikal feministlər, "Abzas Media", "Toplum TV", "Demokratik Təşəbbüslər İnstitutu", "Sərhədsiz Reportyorlar"ın yerli ofisi və buna bənzər digər lokal qruplar xüsusi şəbəkə şəklində bəslənilib inkişaf etdirilirlər. Bircə nüansa diqqət yetirməklə bu istiqamətə yekun vuraq: "Sərhədsiz Reportyorlar"ın Bakı ofisi kimi "Toplum TV" redaksiyası da dünən bütün proqramlarını Ülvi Həsənli mövzusuna həsr etdi. Ülvi Həsənli mövzusu onlara maddi baxımdan nə qazandırır? Yəqin ki, "maddi baxımdan heç nə" deyəcəklər. Bəs bu redaksiyanın gəlirləri, maliyyəsi haradan formalaşır? 3 mərtəbəli ofis, texniki təminat, əməkhaqqı fondu necə yaranır? Təbii ki, qrant hesabına.



OCCRP-nin, USAID-in, "Soros"un sifarişlərini icra etmək onlara "yüksək məbləğli qrantlar" qazandırır. Başqa mənbələrdən - satışdan, reklamdan, elandan gələn gəlir onlar üçün maraqlı deyil.

Maraqlı nüanslardan biri də bu məqamda ortaya çıxır. Azərbaycan 2014-cü ildən etibarən "Qrant haqqında qanunu" sərtləşdirib. Milli maraqlarla uzlaşmayan xarici qrantların ölkəyə gətirilməsini məhdudlaşdırmaq üçün mexanizmlər tətbiq edilib. Bəs ABŞ institutları qanunsuz qrantları ölkəyə necə gətirib realizə edə bilirlər?

### Qrant trafikində yeni nüanslar: "Gürcüstan yolu" öz aktuallığını itirir

2014-cü ildən etibarən qeydiyyatsız qrantların Azərbaycana Gürcüstan üzərindən ötürülməsi faktı xüsusi qabardılır. Qeyd edilir ki, təyinatı şübhə doğuran qrantların Azərbaycanda qeydə alınması çətinləşdiyi üçün Azərbaycanda xarici sifarişləri icra edən QHT və KİV-lərə xüsusi imtiyaz verilib. Onlar öz qrantlarını Gürcüstanda qeydiyyata aldırırlar. "Qrant üçün" ayrılmış vəsaiti Gürcüstanda qəbul edirlər. Sonra həmin vəsaiti nağdlaşdıraraq Azərbaycana gətirirlər, siyasi sifarişlər üçün xərcləyirlər. Əslində, bu fakt öz təsdiqini tapıb. AXCP fəalı, mərhum Gözəl Bayramlı və jurnalist Əfqan Muxtarlı insidenti bu motivdə baş vermişdi. Bu baxımdan qanunsuz qrant məsələsi barədə danışılarkən ilk növbədə "Gürcüstan yolu" üzərində dayanılır.

Amma indi bəlli olur ki, "Gürcüstan yolu" versiyasının belə çox qabardılması, əslində, siyasi motivli qrantlar ayıran "donor təşkilatların" işinə yarayıb. Belə yanaşma onların istifadə etdikləri digər variantları diqqətdən yayındırıb. Son müşahidələr onu göstərir ki, qeydiyyatsız qrantlar təkcə Gürcüstan yolu ilə deyil, fərqli üsullarla da realizə edilir. Bunun üçün çox hiyləgər variantlar hazırlanıb.

Bəzən xarici qrantlar Azərbaycan hökumətinin özü tərəfindən verilən qrantlara qatışdırılaraq icra edilir. Yəni işbaz QHT-lər xaricdən aldıqları qrantları diqqətdən yayındıraraq daxili qrant kimi icra edirlər. Bu halın mövcudluğunu görmək üçün bir qədər diqqət ayırmaq kifayət edir. Məsələn, 2022-ci ildə QHT Agentliyinin maliyyə dəstəyi ilə "Gənc qadınların hüquqları və İctimai iştirakçılıqda maneələr" adlı layihə icra edilib. Xəbərlərdən görürük ki, eyniadlı layihə 2022-ci ildə həm də USAID-in maliyyə dəstəyi ilə icra olunub. Ən maraqlısı budur ki, hər iki donor təşkilatın vəsait ayırdığı eyni layihə həm də eyni QHT tərəfindən gerçəkləşdirilib.

Əslində, qrantların müştərək maliyyələşdirilməsi təcrübəsi dünyada mövcuddur. Amma bu halda icraçı QHT yaydığı məlumatda qeydlər verməli, durumu aydınlaşdırmalıdır. Biz adıçəkilən layihənin icraçısı olan QHT-ni şübhəyə almaq fikrində deyilik. Amma ən azı onun eyni layihəni nə məqsədlə 2 müxtəlif donorun adı ilə icra etməsinin və bu barədə məlumat verməməsinin səbəbləri araşdırılmalıdır.

Təəccüblü məqamlardan biri də budur ki, bu prosesdə daha çox Açıq Hökumətin Təşviqi Platformasının (AAHTP) üzvü olan təşkilatlar görünürlər. Yuxarıda adını çəkdiyimiz "Gənc qadınların hüquqları və İctimai iştirakçılıqda maneələr" adlı layihəni icra edən QHT də AAHTP-nin üzvüdür. Bu platforma Azərbaycanda xaricdən gələn qanunsuz qrantların zərərini azaltmaq üçün formalaşdırılıb. Ona öz missiyasını yerinə yetirmək üçün fürsətlər tanınıb. Bir zamanlar AXCP və Müsavat partiyasının yedəyində olmuş QHT-lərin platformada təmsilçiliyinə şərait yaradılıb. Azərbaycanda 2014-cü ildə qrant qanunvericiliyinin sərtləşdirilməsindən sonra bütün milli QHT-lərin xarici qrantlara çıxış imkanları məhdudlaşanda AAHTP üzvü olan təşkilatlara yaşıl işıq yandırılıb. Həmin dövrdə Ədliyyə Nazirliyində qeydə alınmış məhdud sayda xarici qrantların təqribən 80 faizi məhz AAHTP üzvlərinə məxsus olub. Bu layihələrin də əksəriyyəti USAID-dən qaynaqlanıb.

Açıq Hökumətin Təşviqi üzrə Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının adı beynəlxalq trendlərə uyğun seçilib. "Açıq Hökumət", "Açıq Cəmiyyət" və sair adlar/platformalar beynəlxalq trenddirlər. Xarici layihələri cəlb etmək üçün ən yaxşı platformadırlar. Təqribən 17 milli QHT-nin birləşdiyi bu platformaya keçmiş cəbhəçilərin - Hafiz Həsənovun (Hüquq və İnkişaf Mərkəzi İctimai Birliyi), Mirəli Hüseynovun ("Demokratiyanı öyrənmə" İctimai Birliyinin sədri ) və digərlərinin cəlb edilməsi də təsadüfi deyil. Bu şəxslərin AXCP-çi imici imkan verir ki, onlar xarici donorlardan asanlıqla qrant layihələri alsınlar. Həmin qrant layihələrini Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilməsi də asandır. Çünki hökumət qeyd etdiyimiz kimi, AAHTP-yə yaşıl işıq yandırıb.

Bu qədər etimaddan sonra paltforma təmsilçisinin adının ikili qrant layihələrində hallanması, USAID-in maxinasiyalarına alət olmuş kimi görünməsi təəccüblü qarşılanmaya bilməz. Görünür, hökumət öz siyasətinə yenidən baxmalıdır.

Praktika göstərir ki, təkcə USAID-dən deyil, Avropa Şurasından, Avropa İttifaqından layihə alan təşkilatlar da bənzər metodlardan istifadə edirlər. Onlar rəsmi elanda layihənin icrasını fərqli adlar altında təqdim etməklə, icrası narazılıq doğuran layihələr barədə narahatçılığı aradan qaldırırlar. Xarici layihələrə nəzarət edən dövlət qurumlarının diqqətini yayındırırlar. Bu yolla arzu olunmayan mövzular üzrə layihələrini fərqli adlar altında icra edirlər. Hətta rəsmi şəxslərin bu tədbirlərdə iştirakını təmin edə bilirlər. Dəvət olunanlar çox zaman iştirak etdikləri tədbirlərin hansı layihənin tərkib hissəsi olmasını ayıra bilmirlər.

USAID, Aİ, AŞ öz niyyətlərinə uyğun qrant layihələrini reallaşdırmaq üçün digər metodlardan da istifadə edirlər. Məsələn, əvvəllər layihələrinin icrasına cəlb etdikəri QHT-lər və ekspertlərlə rəsmi müqavilələr bağlayır, hesabatlılıq naminə ödənişləri mütləq şəkildə bank hesabı vasitəsilə edirdilərsə, son dövrlərdə bu şərtləri dəyişiblər. İndi nəzarətdən yayındırmaq üçün "yerli QHT və KİV-lərə" ödənişləri nağd şəkildə çatdırırlar. Həmçinin rəsmi qrant müqaviləsi deyil, "xidmət müqaviləsi" bağlayırlar.

Əvvəllər "Soros Fondu", NED və bu kimi donor təşkilatların istifadə etdikləri maxinasiyalar, bu gün dolayı formada ABŞ səfirliyi, USAID ofisi, AŞ və Aİ-nin Bakı ofisləri tərəfindən təkrarlanır. Məsələ ondadır ki, "Soros Fondu" və NED qismində donorlardan fərqli olaraq, bu qurumlar tərəfindən ayrılan qrantların ölkəyə girişini məhdudlaşdırmaq mümkün deyil. Çünki özəl donor fondlardan fərqli olaraq, səfirliklərin, USAID, AŞ və Aİ-nin ölkələrdəki fəaliyyətləri dövlətlərarası anlaşmalarla tənzimlənir.

Avropa İttifaqının Bakı nümayəndəliyi 2022-ci ildə "Dezinformasiyaya qarşı mübarizədə dayanıqlığın yaradılması" mövzusunda yeni layihənin icrasına başlayıb. Bəlli olub ki, layihənin Azərbaycan üçün nəzərdə tutulan məbləği təqribən 2,5 milyon avrodur. Məbləğin hansı təyinatlara sərf edildiyi, hansı təşkilatlarla partnyorluq şəraitində icra edildiyi indiyədək müəmma olaraq qalır. 2,5 milyon avronun kimə, hara, hansı məqsədlə xərcləndiyi barədə heç bir məlumat verilmir. Kənar mənbələrdən alınan xəbərlər göstərir ki, "dezinformasiyaya qarşı mübarizə layihəsi" "Fakt Yoxla" komandası, yəni Akif Qurbanov şəbəkəsi ilə müştərək icra edilib. "Xidmət müqavilələri"ndən istifadə edərək, vəsaiti qarşı tərəfə ötürüblər.

2022-ci ildə məlumat yayılıb ki, Avropa Şurasının Bakı ofisi Azərbaycanda 2023-2025-ci illəri əhatə edən yeni layihənin icrasına başlayır. "Azərbaycanda Media Peşəkarlığı və İnformasiya Azadlığı" adlandırılan layihə üçün təqribən 4,5 milyon avro həcmində büdcənin nəzərdə tutulduğu görünür. Ötən bir il ərzində həmin layihə çərçivəsində 2 simvolik tədbirin keçirildiyi ictimailəşdirilib. Qalan vəsaitin hara xərcləndiyi, hansı tədbirlər keçirildiyi və kiminlə əməkdaşlıq edildiyi barədə heç bir məlumat yoxdur. Amma AŞ ilə əvvəllər əmkdaşlıq etmiş QHT və KİV-lərin fəaliyyətlərində aktivləşmə özünü büruzə verir... Deməк, layihə icra edilir.

Burada daha bir fakta diqqət çəkmək lazım gəlir. AŞ tərəfindən icra olunan "Azərbaycanda Media Peşəkarlığı və İnformasiya Azadlığı" adlandırılan layihənin elementlərindən biri "gender əsaslı zorakılıq", digər biri isə "media qanunvericiliyinin araşdırılması"dır. AŞ Bakı ofisinin fəaliyyətində "Gender bərabərliyi", "Məişət zorakılığı", "İstanbul Konvensiyasının təşviq edilməsi" kimi silsilə layihələr icra edilib. Hətta "Media peşəkarlığı" layihəsinin içində bir qol kimi bu istiqaməti inkişaf etdirirlər. Amma heç bir yerdə bu layihələri hansı QHT-lərlə partnyorluq şəraitində icra etdiklərini açıqlamırlar. AŞ-nin mərkəzi ofisinin hesabatlarından görünür ki, layihənin icrasına Azərbaycanda "gender təyinatlı 8 QHT cəlb edilib". Söhbət hansı QHT-lərdən gedir? Onların adları niyə açıqlanmır? Əslində, mürəkkəb sual deyil. Radikal feministlərin Bakıdakı aksiyasını təşkil edən şəxslərin hər birinin ayrıca QHT-si var. İş onlarla partnyorluq şəraitində icra edilir. Təkcə bu faktın özü "radikal feministlərin bir tərəfi də AŞ-nin Bakı ofisinə bağlanır" deməyə əsas verir.

ABŞ səfirliyinin, USAID ofisinin layihələri də bu formada icra edilir. Kiminlə partnyorluq edildiyi, hansı tədbirlər keçirildiyi barədə məlumat verilmir. Bir layihə başlayanda, bir də layihə bitəndə simvolik elan verməklə iş bitmiş sayılır.

Diqqətli oxucu düşünə bilər ki, yazı əsasən USAID və digər ABŞ fondlarının üzərində qurulub. Amma nümunə olaraq bəzən Avropa Şurasından, Avropa İttifaqından da misallar çəkilir. Burada təəccüblü bir şey yoxdur. ABŞ öz niyyətlərini icra etmək üçün bəzən digər dövlətlər və beynəlxalq təşkilatlardan yararlanır. Məsələn, "Abzas Media" ABŞ təşkilatları tərəfindən yönləndirilsə də, onun maliyyəsi fərqli istiqamətdən - Norveçdən ötürülür. Nə məqsədlə Norveçdən ötürülür və necə ötürülür?

Bu barədə növbəti yazımızda məlumat veriləcək...

# Ağ Evin "ədalət" oyunu

**ABŞ-nin son zamanlar Azərbaycana qarşı daha da fəallaşan qərəzli siyasəti, ittihamları qəbuledilməzdir. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, sülhün əldə olunması istiqamətində danışıqlarda vasitəçilik edərək Cənubi Qafqazda guya sabitliyin yaranmasının təşəbbüskarı olan Amerika, əslində, regionda gərginliyin daha da artmasına rəvac verir.**



Hələ 1992-ci ildə "Azadlığa dəstək haqqında" akta əlavə edilən 907-ci düzəlişlə Vaşinqton iç üzünü aydınlığı ilə ortaya qoymuşdu. Amma 2020-ci ildə Azərbaycanın hərb yolu ilə öz torpaqlarını işğaldan azad etməsi, bu ilin sentyabrında antiterror tədbirləri keçirərək suverenliyini tam təmin etməsi müəyyən dövlətlərin "maraq"larına uyğun olmadığı üçün onlar da dərhal "fəaliyyət"ə keçiblər. Müxtəlif istiqamətlərdə ölkəmizə qarşı qarayaxma kampaniyaları aparır, bu azmış kimi ölkəmizi etnik təmizləmədə də günahlandırmaq istəyirlər.

"Sülhpərvər" ABŞ Azərbaycanla heç nəyin normal olmayacağı ilə bağlı bizi hədələyir. Hətta bunu ölkəmizin "sülh cığırı"nda olmaması ilə əlaqələndirir.

Azərbaycana qarşı davamlı qərəzli, ədalətsiz yanaşmaların, ABŞ Senatının erməniləri müdafiə aktı ilə bağlı qəbul etdiyi qərara dair Milli Məclis tərəfindən də bəyanat qəbul edilib. Bəyanatda Milli Məclis bu il noyabrın 15-də ABŞ Senatının "2023-cü il erməniləri müdafiə aktı" qəbul etməsinə qəti etirazını bildirib və ölkəmizi hədəf alan bu hərəkəti şiddətlə qınayıb.

Qeyd olunub ki, ABŞ Nümayəndələr Palatasının Xarici işlər komitəsinin Avropa üzrə altkomitəsində keçirilmiş dinləmələr, orada ölkəmiz əleyhinə səslənən çıxışlar, ümumiyyətlə, son dövrdə ABŞ dövlət rəsmilərinin Azərbaycana qarşı ifadə etdikləri qərəzli fikirlər iki ölkə arasında strateji münasibətlərə ciddi zərbə kimi qiymətləndirilir. Sözügedən aktın qəbul edilməsi və Azərbaycana qarşı irəli sürülən əsassız ittihamlar regionda sülh və sabitlik yaradılması səylərinə ciddi maneçilik törədir.

Mövzu ilə bağlı Milli Məclisin deputatı Jalə Əliyeva "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, ABŞ Senatının qərarı ilə bağlı Milli Məclisdə müzakirələr nəticəsində qəbul olunan bəyanat Azərbaycanın haqlı mövqeyini bir daha sərgiləyib.

Deputat qeyd edib ki, əslində, Amerika, Fransa 30 illik münaqişə dövründə heç zaman ədalətin, haqqın yanında olmayıblar: "Bu dövlətlər heç vaxt Azərbaycanın yanında olmayıb və onların həmsədrliyi ilə yaradılan ATƏT-in keçmiş Minsk qrupu da öz fəaliyyətsizliyi ilə bu münaqişənin nəhayətdə müharibə yolu ilə həllinə rəvac verib.

Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdi ki, son çarə tükənənə qədər biz bu problemin danışıqlar masası arxasında həllinə çalışacağıq. Lakin bu, mümkün olmazsa, Azərbaycanın hərb yolu ilə öz torpaqlarının hər qarışını düşmən tapdağından azad etməyə imkanı, gücü, qüvvəsi var. Biz bunu həm 44 günlük Vətən müharibəsində, həm iki ay bundan əvvəl həyata keçirilmiş 23 saatlıq antiterror tədbirləri vaxtı, həm də Aprel döyüşlərində sübut etdik. Azərbaycan Ordusunun gücünü, xalqın iradəsini və ordusunun yanında olduğunu, Azərbaycan dövlətinin güclü siyasətini bir daha nümayiş etdirdik".

J.Əliyeva deyib ki, sırf ermənilərə xoş olsun deyə ABŞ və bəzi Qərb dairələrinin ermənipərəst mövqeyi, məsələlərə erməni diasporu, erməni mövqeyindən yanaşması, nə Konqresə, nə də digər dövlətlərə başucalığı gətirir. ABŞ son qərarlarıyla, addımlarıyla ədalətin, haqqın deyil, nahaqqın yanında, xeyirin deyil, şərin yanında olduğunu bir daha göstərmiş oldu. Bununla özlərinin bölücü, irqçi, milliyyətçi siyasətlərini bir daha göstərdilər.

Deputat düşünür ki, Azərbaycan parlamentinin qəbul etdiyi bəyanat sadəcə Milli Məclisin, deputatların deyil, eyni zamanda xalqın və dövlətin mövqeyini ortaya qoyub.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





◆ Qarabağ Azərbaycandır!



## Gənclər bu günümüzün, sabahımızın qürur və iftixar mənbəyidir

**Şahidi olduğumuz, gördüyümüz, oxuduğumuz bütün qəhrəmanlıqlar, igidliklər Vətənin azadlığı uğrunda göstərilir. Amma igidliyi, şücaəti heç də hamı bacarmır. Təsadüfən deyilməyib ki, mübarizə meydanı cəsurların yeridir. Döyüşlər zamanı qəhrəmanlığı yalnız və yalnız ürəyində, qəlbində Vətən sevgisi, Vətən məhəbbəti olan insanlar göstərirlər. Vətən məhəbbəti, vətənpərvərlik tərbiyəsi isə zaman-zaman yaranır. Əsl vətəndaş vətənpərvər olmalıdır.**

"Azərbaycanın gələcəyi gənclərə məxsusdur" deyən Ümummilli Lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə gənclərimizin hərtərəfli inkişafına imkanlar açan zəruri tədbirlər həyata keçirmiş və bunun da nəticəsində müstəqil Azərbaycanımızın gələcəyini qoruyub saxlayacaq gənc nəsil yetişmişdir. Ulu Öndər gəncliyə əminliyini bu dəyərli sözlərlə ifadə etmişdir: "Müstəqil Azərbaycan ifadəsi indi hamı üçün əzizdir, bunu hamı təkrar edir. Ancaq hər kəs də başa düşməlidir ki, müstəqil Azərbaycanın müstəqil yaşaması üçün hər bir vətəndaşın vətəndaşlıq borcu var. Bunu təmin etmək üçün hər bir vətəndaş öz payını verməli, öz xidmətini göstərməlidir".

Ulu Öndər vətənpərvərliyi, vətəndaşlıq duyğusunu xalqın, vətənin taleyinin tərkib hissəsi hesab edirdi. Dahi şəxsiyyətin azərbaycançılıq ideyasının güclənməsində, onun dövlətçilik və vətənpərvərlik müstəvisinə keçirilməsində müstəsna xidmətləri vardır. Ümummilli Lider hər bir azərbaycanlının bu hisslərlə yaşamasını daim önə çəkərək deyirdi: "Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından - hər şeydən üstün tutsun".

Azərbaycançılıq ideologiyasını dövlətçiliyin başlıca ideoloji xətti bilən Heydər Əliyev əvəzolunmaz tarixi bir şəxsiyyət olub - respublikamız SSRİ-nin tərkibində olanda da, dövlət müstəqilliyi bərpa edildikdən sonra da. Hələ sovetlər dönəmində azərbaycanlı çağırışçılar ordunun əsasən xidmət hissələrində qulluq edirdilər. Bu, gənclərin hərbi bilikləri mənimsəmə prosesindən məqsədyönlü şəkildə uzaqlaşdırılması demək idi. Belə bir vəziyyət xalqını sevən, onun qəhrəmanlıq tarixinin unudulmamasını istəyən Ümummilli Lideri ciddi narahat edirdi. Bu narahatlıq sovetlər dönəminin hərbi xidmət siyasətində ciddi dəyişiklik yaratdı - azərbaycanlı gənclərin də digər hərbi hissələrdə xidmətə aparılmasına başlanıldı.

Azərbaycanda hakimiyyətə gəldiyi ilk illərdən Heydər Əliyevi düşündürən əsas məqsəd və amallardan biri də azərbaycanlı gənclərin orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi olmuşdur. Bütün fəaliyyəti dövründə Ulu Öndər öz taleyini hərb sənətinə, zabitlik peşəsinə həsr edən gənclərə hörmətlə yanaşmış və onların xidmətinə yüksək dəyər vermişdir. Hələ sovet hökumətinin ən sərt dövründə Heydər Əliyev Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratdı. Bu gün kursantlarımızın təhsil aldıqları hərbi məktəbin əsası 1971-ci ildə Ümummilli Liderin təşəbbüsü və uzaqgörən siyasəti nəticəsində qoyulmuşdur. Bu tədris ocağı fəaliyyətdə olduğu müddətdə ordu üçün yüzlərlə, minlərlə peşəkar hərbçi hazırlamışdır. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrlarının hazırlanmasında və o dövrdə ali hərbi məktəbləri bitirənlərin Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna dərəcədə rolu vardır. Bu gün də ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır. Onlar həm Birinci, həm də İkinci Qarabağ müharibələrində böyük hünər göstərmişlər.

Vətənpərvərliyin kökündə min illər boyu yaşamış, möhkəmlənmiş dövlətçilik durur. Azərbaycan xalqının yaxın və uzaq keçmişi, elm, mədəniyyət, siyasət sahəsində əldə etdiyi nailiyyətləri, qəhrəmanlıq tarixi, ölkənin müasir inkişaf göstəriciləri gənclərdə Vətən sevgisini formalaşdıran amillərdir. Hər bir dövlətin varlığı və gələcəyi həm də gənclərin vətənpərvərlik tərbiyəsindən asılıdır. Gənclərin ideoloji baxımdan yüksək hazırlığı düşünülmüş ardıcıl gənclər siyasətinin müsbət nəticəsidir.

Ulu Öndər Heydər Əliyevin məqsədyönlü siyasəti öz əməli nəticəsini 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq şəkildə göstərdi. Həmin il sentyabrın 27-də Ermənistanın növbəti təcavüzünə cavab olaraq Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusuna cəbhəboyu əks-hücum haqqında əmr verdi. Həm hərb meydanında, həm də informasiya sahəsində Azərbaycan xalqının haqq mübarizəsi geniş vüsət aldı. Xalq, ordu və Ali Baş Komandan birliyi fonunda çox mühüm tarixi qələbələr qazanıldı. Gəncliyimizin coşub-daşan vətənpərvərlik hisslərinin nəticəsində Azərbaycanın mədəniyyət ocağı Şuşa şəhəri, bütövlükdə Qarabağ və Şərqi Zəngəzur erməni işğalçılarından azad olundu. Ərazi bütövlüyümüz tam bərpa edildi.

Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında bu gün də mühüm işlər aparılır, uğurlu layihələr həyata keçirilir. Qürur hissi ilə demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qoruyub yaşadır. Vətənpərvər hissləri güclü olan gənclərimiz xalqımıza Zəfər sevinci yaşatdılar. Gündən-günə gücünü, bacarığını, Vətən sevgisini artıran gənclərimizin uğurları, zəfərləri davamlı olacaq. Əminliklə deyə bilərik ki, gənclər bu günümüzün və sabahımızın ixtixar və qürur mənbəyidir.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

◆ Tarix yazan oğullar

## Yaşasaydı, 30 yaşı olacaqdı...

**Azərbaycanın əzəli, əbədi məkanı olan Qarabağda 30 ildən sonra Dövlət bayrağımızın dalğalanması, konstitusiya quruluşu və digər qanunlarımızın bərqərar olması Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, rəhbər-xalq birliyi, Silahlı Qüvvələrimizin rəşadəti sayəsində mümkün oldu.**



Nizami orduda xidmət edən zabit və gizirlərimiz, müddətli və müddətdən artıq hərbi qulluqçularımızla yanaşı, ehtiyatdan çağırılan igidlərin də tarixi Zəfərimizdə böyük payı var.

O da taleyini vacib və savablı bir işə - gəncəli Şeyx Nizaminin pak ruhuna xidmətə bağlamış, mütəfəkkir poeziya ustadının müqəddəs məqbərəsinin peşəkar və zəhmətkeş kollektivi ilə birgə fəaliyyətə başlamışdı. Burada əvvəl mühasib, Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğuna birləşdirildikdən sonra isə ekskursiyaçı kimi çalışırdı. Lakin dahi şair-mütəfəkkirin əsərlərinin qayəsindən, ideya istiqamətindən aldığı ibrət və tövsiyələrə uyğun - dar gündə Ana Vətənin müdafiəsini üstün tutmuşdu. Bu isə ən doğru yol, ən vacib missiya idi. Çünki 30 ilə yaxın müddətdə xain düşmənin viran qoyduğu cənnətməkan Qarabağda sərgərdan qalan Vaqifin, Xan qızı Natəvanın, Üzeyir bəyin, Bülbülün ruhunun məzəmmət ağırlığını və artıq tab gətirməyin mümkünsüzlüyünü təpədən-dırnağa qədər duyurdu...




Məmmədov Hikmət Lətif oğlu 1993-cü il noyabrın 19-da Daşkəsənin Xoşbulaq kəndində doğulub. 8 yaşı olanda ailəsi ilə birgə Gəncəyə köçüb. Gəncə Dövlət Universitetini bitirdikdən sonra ordu sıralarına çağırılıb. Hərbi xidmət dövrü Aprel savaşı vaxtına düşüb. Elə o zamandan igidliyi, qorxmazlığı ilə fərqlənib. Çox keçməyib ki, ermənilərin güllə, mərmi yağışı altında döyüşərək Vətən torpaqlarının yağı caynağından qurtuluşunun ilk müjdəsini veriblər: Lələtəpə, Cocuq Mərcanlı qarış-qarış işğaldan azad edilib, həmin ərazilərdə üçrəngli bayrağımız dalğalanıb. Cəbhədən gələn xoş xəbərlərə baxmayaraq, oğul nigarançılığına anası Nüşabə xanımın narahat ürəyi dözməyib. Hikmətin qayıdışını görmədən dünyasını dəyişib.

2020-ci il iyulun 14-də Tovuz istiqamətində düşmən təxribatı zamanı general Polad Həşimovun şəhadətə yüksəlməsi digər vətənpərvər gənclərimiz kimi, onu da hiddətləndirib, hər an dövlət başçısının silaha sarılmaq əmrini gözləyib. Həmin ilin sentyabrında könüllü olaraq orduda xidmətə başlayıb, hərbi təlimlərə qatılıb. Sentyabrın 27-də erməni quldurlarının növbəti təxribatı nəticəsində Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə əks-hücuma başlayıb. Vətən müharibəsinin ilk anlarından böyük cəsarət və şücaətlə irəli atılan Hikmət oktyabrın 2-də Kəlbəcər uğrunda gedən döyüşlərdə şəhid olub. Oktyabrın 4-də Gəncə şəhərində torpağa tapşırılıb.

Şəhidin atası Lətif Məmmədov: "Ailədə 2 qardaş, bir bacı idilər. Könüllü şəkildə orduya gedəndə mən evdə deyildim. Daşkəsəndə, Xoşbulaqda idim. Kiçik qardaşı yalvarıb ki, gözlə, qoy atamı çağıraq. Cavab verib ki, atam neyləyəcək, mənimlə cəbhəyə gedəcək? Özünün də ayağında ciddi problem vardı. Zəng vurub halallıq istədi. Dedim, ay bala, müalicə al, sonra get. Heç vaxt sözümdən çıxmayan Hikmət bu dəfə mənə qulaq asmadı... Təki, Vətən sağ olsun!"

Onu da bildirək ki, Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun rəhbərliyi şəhidin ailəsi ilə bağlı xeyirxah addım atıb. Lətif kişi Hikmətin vaxtilə çalışdığı kollektivə işə qəbul olunub. Bu həm ailənin maddi durumuna dəstək, həm də şəhid övladının iş yoldaşları ilə sıx ünsiyyət zəminində dərdini yüngülləşdirməsi deməkdir.

Qardaşı şəhidlik məqamına yüksələndə VIII sinifdə oxuyan Nemət Məmmədov artıq Hikmətin məzun olduğu Gəncə Dövlət Universitetinin Mühasibat uçotu fakültəsinin I kurs tələbəsidir. Söhbət zamanı dedi: "Qardaşım Hikmətlə aramızda 13 yaş fərq var. Atam həm işdə olanda, həm də qonşu rayondakı evimizə baş çəkməyə gedəndə ondan bir atalıq qayğısı görmüşəm. Dərslərimi hazırlamaqda kömək göstərir, sirlərimi bölüşür, gələcək üçün planlar qururduq. Həyatın ağır dönəmlərində, anamı itirəndə ən böyük təsellim, söykənəcəyim idi. Sevinirəm ki, şəhid qardaşımın təhsil aldığı ali məktəbə həmin ixtisas üzrə qəbul olunmuşam, onun yolunu davam etdirəcəyəm, inşallah. Məzarı nurla dolsun!"

Hikmət Məmmədov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

*Qurban MƏMMƏDOV, "Azərbaycan"*

◆ Ölməzliyə qovuşanlar

## Vətən fədaisi

### 10 uşaq atası 58 yaşlı Müzəffər Əsədov Birinci Qarabağ savaşına könüllü getmişdi

**Tale Müzəffəri elə əvvəldən çətin, sərt sınaqlarla qarşılaşdırmışdı. 5 yaşında ikən atası İkinci Dünya müharibəsində həlak olmuşdu. 4 uşağı təkbaşına böyütmək anası Mədinə üçün heç də asan deyildi.**

Evdəki maddi vəziyyətin ağırlığını dərk edən Müzəffər 12 yaşına qədər Gəncə və Quba şəhərlərindəki uşaq evlərində qalıb. Sonra doğma Zövlə kəndinə qayıdaraq yeddiillik məktəbi və Lənkəran Kənd Təsərrüfatı Texnikumunu bitirib. 1956-cı ildə ordu sıralarına xidmətə yollanıb. Tərxis olunduqdan sonra yerli təsərrüfatda 20 il sürücü işləyib. 1979-cu ildə sovxozun rəhbərliyi Müzəffərin işgüzarlığını, təşkilatçılıq bacarığını nəzərə alaraq, onu briqadir təyin edib.

Bəli, həyatın sərt imtahanlarına mərdmərdanə, arxasız, köməksiz sinə gərən Müzəffər Əsədovun zəhmət, alın təri hesabına əli təzə-təzə çörəyə çatmış, xoş dövran keçirməyə başlamışdı. Ömür-gün yoldaşı ilə birlikdə 10 uşaq - 6 oğul, 4 qız tərbiyə edirdi.

Amma 1988-ci ildən bəri bədxah qonşularımızın torpaq iddialarından əl çəkməməsi, 1990-cı ildə "şanlı" sovet ordusunun Bakıda dinc əhaliyə divan tutması, sonradan isə Xocalı soyqırımı, Şuşanın, Kəlbəcərin, Laçının... işğalı Müzəffərin rahatlığını əlindən almış, ürəyində məkrli düşmənə qarşı sonsuz niftət hissi yaratmışdı. O, hər an, hər dəqiqə döyüşə atılmaq, namus-qan intiqamı almaq ehtirası ilə alışıb yanırdı.

1993-cü ilin bir payız günündə Müzəffər kişi evdəkilərin, qonum-qonşuların etirazına məhəl qoymayıb, rayon hərbi komissarlığına gələrək könüllü cəbhəyə göndərilməsini xahiş etdi. Hərbi komissarlıqda isə ona bildirdilər ki, bu gün-sabah 60 yaşın tamam olacaq, hələ üstəlik 10 uşaq atasısan, sənə getmək olmaz. Lakin Müzəffərin qərarı qəti idi. Nəhayət, o, daha 7 həmkəndlisi - Asif, Teymur, İbrahim, Orxan, Kamran, Qabil və Faiqlə birlikdə cəbhəyə yola düşdü. Vidalaşarkən evdəkilərə son sözü bu oldu:"Nə qədər ki, Vətən torpaqları düşmən tapdağı altındadır, mən rahat nəfəs ala bilmərəm. Gedirəm, Allah qoysa, qələbə ilə qayıdaram!.."

Taborda Müzəffər kişi yaşca hamıdan böyük idi. Əsgərlər hörmət əlaməti olaraq ona "Batya" adı vermişdilər. Onların dəstəsi bir neçə kəndi düşməndən azad etmişdi. Xüsusən Papravənd uğrunda gedən döyüşlərdə Müzəffər Əsədov əsl qəhrəmanlıq göstərmişdi. Ağdamın Güllücə kəndi isə Müzəffər kişinin düşmənə qarşı son döyüş meydanı olmuşdu.

Əsgər yoldaşı Fəxrəddin Ağayev həmin günləri belə xatırlayır:

- Ermənilərin Güllücəyə hücumu hamımız üçün gözlənilməz idi. Hiyləgər düşmən yaxşı pusqu qurduğundan bizi mühasirə vəziyyətinə salmışdı. "Batya" dar məqamda həmişə dadımıza çatardı. Bu dəfə də o, döyüşçülərimizə ürək-dirək verir, zarafatları ilə onların könlünü almağa çalışırdı. Qəfildən beş-altı addımlığımızda güclü partlayış oldu. Düşmən qradının mərmisindən qopan qəlpə "Batya"nın sol böyründən dəyib ölümcül yaraladı. Uşaqlar cəld tərpənib onu döyüş mövqeyindən uzaqlaşdırdılar. Lakin həkimlərin cəhdinə baxmayaraq, Müzəffər kişinin həyatını xilas etmək mümkün olmadı. 3 gündən sonra - 1994-cü il yanvarın 13-də o, gözlərini əbədi yumdu.

Zövlə kənd tam orta məktəbinin müəllimi İslam Rzayevin dediklərindən:

- Müzəffər ömrünü kişi kimi yaşadı, heç kəsə boyun əymədi. Qeyrətini çəkdiyi Vətən yolunda qurban getdi. Onun həyat yolu gənc nəsil üçün əsl örnəkdir.



M.Əsədovun oğlu Ziyadın dediklərindən:

- Atamın şəhadətə qovuşmasından 30 ilə yaxın bir müddət keçir. Yaşasaydı, indi 88 yaşında olacaqdı. Amma bu gün onun ruhu şaddır, çünki Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dövlət başçısı kimi səriştəsi, diplomat kimi məharəti, sərkərdə kimi qətiyyəti və xalq-dövlət-ordu birliyi sayəsində işğal altında olan torpaqlarımız düşməndən azad edilib, uzun müddətdən bəri qaçqın-köçkün həyatı yaşamış soydaşlarımız doğma ata-baba yurdlarına qovuşublar.

Qədirbilən xalqımız öz igid övladlarının adını həmişə uca tutduğu kimi, 58 yaşında Vətən fədaisi olmuş Müzəffər Əsədovun da xatirəsi heç vaxt xatirələrdən silinməyəcək.

*Ağaddin BABAYEV*

◆ Xəbər

## Şəhid ailələri Türkiyədəki tədbirlərdə iştirak ediblər

**"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Hava Yolları QSC və "Delil Travel" səyahət agentliyinin tərəfdaşlığı ilə noyabrın 21-24-də 20 şəhid ailəsi üzvünün qardaş Türkiyənin Nevşehir bölgəsinə səfəri təşkil olunub.**

Səfərin əsas məqsədi Ümummilli Lider Heydər Əliyevin 100-cü ildönümündə və həmçinin Türkiyə Respublikasının quruluşunun 100-cü ilində qardaş ölkənin tarixi bölgələrini şəhid övladlarına tanıtmaq və xalqlarımız arasındakı əlaqələri daha da genişləndirməkdən ibarətdir.

Səfər çərçivəsində şəhid ailələri Nevşehir şəhərinin valisi Ali Fidan ilə görüşüblər. Səmimi mühitdə keçən görüş zamanı Ali Fidan Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizi dərin ehtiramla yad edib və onların ailə üzvlərinə cansağlığı, övladlarına bol-bol uğurlar arzulayıb. Həmçinin səfər zamanı şəhid ailələri Türkiyənin şəhid ailələri dərnəkləri ilə də görüşlərdə iştirak ediblər. Bu görüşlər zamanı hər iki ölkənin şəhid ailələrinə dəstək göstərən təşkilatları arasında olan əlaqələrin və əməkdaşlığın daha da möhkəmlənməsinin əhəmiyyəti vurğulanıb.

Nevşehirdə səfərdə olan şəhid ailəsi üzvləri bölgənin tarixi və turistik guşələrini də ziyarət etmək şansı əldə ediblər. Onlar Kapadokyada Göreme Açıq Hava Muzeyini, Nevşehir qalasını, Derinkuyu yeraltı şəhərini və digər tarixi və turistik məkanları ziyarət edərək onlar barədə məlumat əldə ediblər.




# REGİONLAR

# Belə getsə, bölgələrdə bir nəfər də işsiz qalmayacaq

**Ölkəmizdə əhalinin məşğulluğunun təmin edilməsi gündəmdən düşməyən, daim diqqət mərkəzində olan məsələdir. Bu, Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin, eləcə də həyata keçirilən sosial islahatların ayrılmaz hissəsini təşkil edir. Son 20 ildə regionların tarazlı inkişafı bölgələrdə çoxsaylı və müxtəliftəyinatlı müəssisələrin açılmasına imkan verib ki, bu da istər rayon mərkəzlərində, istərsə də kəndlərdə yaşayan insanların öz məşğulluq problemini həll etməsi ilə nəticələnib.**




2004-cü ildə regionların sosial-iqtisadi inkişafına yönəldilən I Dövlət Proqramının icrasına start veriləndən üzübəri bu sahədə ardıcıl tədbirlər həyata keçirilir. Qeyri-neft-qaz sektorunun getdikcə irəliləməsi, iqtisadiyyatın diversifikasiyası və prioritet sahələrə irihəcmli investisiyaların yatırılması qarşıya qoyulan vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsinə, istehsal və emal müəssisələrinin fəaliyyətə başlamasına zəmin yaradır.

Statistik rəqəmlərə müraciət edək. İlkin məlumatlara əsasən, cari ilin oktyabr ayının başlanğıcında Azərbaycanda iqtisadi fəal əhalinin sayı 5 milyon 244,5 min nəfər olub. Onlardan 4 milyon 957,1 min nəfəri məşğul əhalidir. Sentyabrın 1-i vəziyyətinə isə muzdla çalışan işçilərin sayı 1 milyon 706,6 min nəfər olub. İqtisadiyyatın dövlət sektorunda 887,7 min, qeyri-dövlət sektorunda 818,9 min nəfər çalışıb. Neft-qaz sektorunda 31,5 min, qeyri-neft-qaz sektorunda 1 milyon 675,1 min nəfər cəmləşib.

Təkcə bu ilin birinci yarısında ölkədə 38,9 min yeni iş yeri açılıb.Bunların 93,4 faizi qeyri-dövlət sektoruna aid olub. Yeni yaradılmış iş yerlərinin 81,9 faizi Bakı şəhərinin, 1 faizi Naxçıvan Muxtar Respublikasının,17,1 faizi digər regionların, o cümlədən 3,2 faizi Abşeron-Xızı, 2,6 faizi Quba-Xaçmaz, 1,5 faizi Şəki-Zaqatala, 1,4 Qazax-Tovuz, 1,2 faizi Qarabağ,1 faizi Şirvan-Salyan, 1,9 faizi Gəncə-Daşkəsən, 0,8 faizi Lənkəran-Astara, 1,5 faizi Mərkəzi Aran, 0,6 faizi Mil-Muğan, 0,4 faizi Dağlıq Şirvan, 1 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşür.

2004-cü ildən bəri regionlarda 1,8 milyarddan çox yeni iş yerinin yaradılması və 52 mindən artıq yeni müəssisənin açılması isə şərhə ehtiyacı olmayan faktdır.

Ölkədə istifadəyə verilən, iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən yeni müəssisələr məşğulluq məsələsinin həllinə töhfələrini verməkdədir. İqtisadiyyatın şaxələndirilməsi, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı qarşıya qoyulan prioritetlər uğurla həllini tapır. Eyni zamanda qeyri-neft sektorunda kənd təsərrüfatı məhsullarının payı çoxalır. Nəticədə həm də emal müəssisələri çoxalır. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunması və idxaldan asılılığın aradan qaldırılması ilə yanaşı, həm də yeni iş yerləri deməkdir.

Dövlətimizin başçısı bölgələrə hər səfərində yeni müəssisələrin açılışını edir, yaxud təməlini qoyur. İndi işğaldan azad edilmiş ərazilərimizdə aparılan tikinti-quruculuq və bərpa işləri diqqət mərkəzində olsa da, digər bölgələr də əsla unudulmur. Elə bu yaxınlarda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST Evi" filialının açılışında iştirak etdilər. Bu "DOST Evi" bölgədə müvafiq peşə hazırlığı kursları üçün təlim bazası rolu oynamaqla yanaşı, özünüməşğulluq layihələrinin icrasına da dəstək olacaq. Burada 50 nəfərin məşğulluğu təmin ediləcək. Benefisiarlar, təlimçilər və digər işçilər əlilliyi olan şəxslər və digər həssas qruplar arasından seçiləcək. Filialda 50-80 nəfər benefisiar üçün 6 ay - 2 il müddətində təlimlər-kurslar təşkil olunacaq və sonda onlara sertifikatlar veriləcək. Əlilliyi olan şəxslər inklüziv kafe sahəsində işə cəlb ediləcək ictimai iaşə xidmətləri təşkil olunacaq.

Oktyabrın 23-də isə Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirak etdi.

İndiyədək Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə 9,5 milyard manatlıq məhsul satışı həyata keçirilib. Bu ilin 9 ayında sənaye parkında 2,1 milyard manatlıq məhsul istehsal edilib. Hazırda burada 6600-dən çox insan daimi işlə təmin olunub. Bundan əlavə, mövcud layihələr üzrə sənaye parkına əlavə olaraq 394 milyon manatdan artıq investisiyanın yatırılması, 2000-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Həmin gün təməli qoyulan "Çinar-Servis" müəssisəsində 70 nəfərin daimi işlə təmin edilməsi planlaşdırılır. Yeni açılan "Novus Plastica" MMC-nin Polimer qatqıları istehsalı müəssisəsində ilkin mərhələdə 50-dək insan daimi işlə təmin ediləcək.

"Universal Qablaşdırma Sənaye" Qapalı Səhmdar Cəmiyyətinin Qablaşdırma məhsulları istehsalı müəssisəsində ilkin mərhələdə 50 nəfər daimi çalışacaq. Növbəti mərhələdə isə işçilərin sayı 65 nəfərə çatdırılacaq.

Sənaye parkında "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin də açılışı oldu. Belə ki, parkın 20 hektardan çox ərazisində Çinin qabaqcıl texnologiyalarının tətbiqi ilə yüksəkkeyfiyyətli, müxtəlif ölçülərdə keramik plitələrin istehsalı həyata keçiriləcək. 100 faiz Çin kapitallı müəssisədə işçi sayı 400 nəfər nəzərdə tutulsa da, hazırda 484 nəfər işlə təmin olunub.

Təməli qoyulan "Kartaş Kimya" MMC-nin Tikinti kimyəvilərinin istehsalı müəssisəsində 250 daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Əmək qabiliyyətli insanların işlə təmin edilməsi üçün eləcə də yeni yollar axtarılır, məşğulluğun yeni formaları tapılır, bu məqsədlə daxili ehtiyat mənbələrindən geniş istifadə olunur.

Məşğulluğun artmasında sahibkarlığın rolu danılmazdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-sentyabr aylarında statistik vahidlərin (fərdi sahibkarlar istisna olmaqla) sayı 6,5 faiz artaraq 194 min 631 olub. Ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 92,1 faizini mikro sahibkarlıq, 5,65 faizini kiçik sahibkarlıq, 0,4 faizini iri sahibkarlıq subyektləri təşkil edib. Oktyabrın 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyon 300 mini ötüb.

Əhalinin işlə təmin olunması sahəsində özünüməşğulluq da özünə geniş yer alır. Özünüməşğulluq vətəndaşlar üçün əlverişli qazanc formasıdır. Belə ki, hər ailənin öz büdcəsi olur, bunun sayəsində də insanlar müəyyən iş qura bilirlər. Əlbəttə, dövlətin köməyi ilə. Bu proqram insanların dolanışığını yaxşılaşdırmaqla yanaşı, iqtisadi inkişafa təkan verir. Əhalinin məşğulluğunun təmin olunması istiqamətində atılan uğurlu addımlardan biri də ictimai iş yerlərinin yaradılmasıdır. Prezidentin tapşırığı ilə bu proqramların icrası zamanı şəhid ailələrinə və qazilərə üstünlük verilir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Samuxda da şəhid ailələri və qazilərə xüsusi diqqət var

**İstər 44 günlük Vətən müharibəsində, istərsə də lokal xarakterli antiterror tədbirlərində yüzlərlə samuxlu gənc iştirak etmişdir. Onların arasında şəhid olanlar və sağlamlıqlarını itirənlər olmuşdur.**

Rayon sakinləri və rəhbərliyi bu mərd oğulların göstərdikləri qəhrəmanlıqları daim iftixarla yad edir, onların şücaətini gələcək nəsillərə çatdırmaq üçün müxtəlif tədbirlər həyata keçirirlər.

Bu günlər rayonun Seyidlər kəndinin yeni yaşayış məhəlləsində şəhid ailələri və qazilərlə keçirilən görüş də məhz bu məqsədə xidmət edirdi. Rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyevin, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Anar Qədiməliyevin, şəhid ailələri və qazilərin, eləcə də kənd sakinlərinin iştirak etdikləri görüşdə torpaqlarımızın azad edilməsində şəhid olmuş mərd oğullarımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. Sonra F.Əliyev çıxış edərək Vətən müharibəsində qazanılan möhtəşəm zəfərdən, şəhidlərimizin və qazilərimizin döyüşlər zamanı göstərdikləri şücaətlərdən danışmışdır. Tədbirdə çıxış edən şəhid valideynləri və qazilər dövlətin onlara göstərdiyi diqqətdən razı qaldıqlarını bildirmişlər.

Sonra yeni yaşayış məhəlləsində inşa edilmiş uşaq bağçasına baxış keçirilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# "Payız futbol düşərgəsi"nin qonaqları şəhid və qazi övladlarıdır

**Sumqayıtda şəhid ailələrinə dəstək çərçivəsində "Azərikimya" İstehsalat Birliyi və YAP Sumqayıt Şəhər Təşkilatının dəstəyi, "Sumqayıt" Futbol Klubunun təşkilatçılığı ilə ənənəvi "Payız futbol düşərgəsi" layihəsi reallaşdırılmışdır.**




Layihənin iştirakçıları - şəhid və qazi övladları beş gün davam edən turnirdə iki qrupa bölünmüşdü. İlk 3 gündə iştirakçılar Mehdi Hüseynzadə adına Stadionda təşkil olunan müxtəlif oyunlarda, seminarlarda öz məharətlərini göstərmiş, maraqlı ekskursiyalara qatılaraq dünya görüşlərini artırmış, özlərinə yeni dostlar qazanmışlar. YAP Sumqayıt Şəhər Təşkilatının ofisində birinci mərhələyə yekun vurulmuşdur.

Mərhələnin yekun tədbirində çıxış edənlər layihənin əhəmiyyətindən danışaraq, məqsədin yeniyetmə və gənc şagirdlərin futbola cəlb olunması, məktəblilərin təhsilə həvəsləndirilməsi, onların asudə vaxtlarının səmərəli təşkili və futbolun kütləviliyinin artırılmasının vacibliyindən danışmışlar. Bildirilmişdir ki, ümumilikdə bu il layihədə 100-dən çox şəhid və qazi övladı iştirak etmişdir. Sonra iştirakçılara diplomlar, medallar, hədiyyələr təqdim olunmuşdur.

Qeyd edək ki, "Payız futbol düşərgəsi" layihəsi "Paşa Həyat Sığorta" ASC və "İkar-Qrup" MMC-nin ("Kəhriz Su") sponsorluğu ilə reallaşır. İkinci mərhələ dekabrda keçiriləcək.

# Sumqayıtın 74 yaşı qeyd olunub




**"Kimyaçı" Mədəniyyət Sarayında Sumqayıta şəhər statusu verilməsinin 74-cü ildönümü münasibətilə keçirilən tədbirdə şəhər rəhbərliyi, Milli Məclisin deputatları, şəhid ailələrinin üzvləri, qazilər, ictimaiyyətin nümayəndələri iştirak ediblər.**

Şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov Sumqayıtın keçdiyi inkişaf yolundan danışaraq vurğulayıb ki, ötən əsrin 70-ci və 80-ci illərinin birinci yarısı Sumqayıt üçün xüsusilə əlamətdar olub: "Həmin dövrdə Ulu Öndər Heydər Əliyevin diqqəti sayəsində Sumqayıt özünün tərəqqi və dirçəliş dövrünü yaşayıb. Bu gün 74 yaşlı Sumqayıt, sözün həqiqi mənasında, Ulu Öndərin arzuladığı bir şəhərə çevrilib. Özünəməxsus müasir şəhər nümunəsinə çevrilən Sumqayıt Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində daha da inkişaf edib".

Tədbirdə Sumqayıtın inkişafından bəhs edən film nümayiş etdirilib. Sonra respublikanın tanınmış incəsənət ustaları konsert proqramı ilə çıxış ediblər.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# "Gəncə Qalası" Ticarət Kompleksi yeni görkəmdə istifadəyə verilib

**Gəncədə fəaliyyət göstərən "Gəncə Qalası" Ticarət Kompleksi yeni görkəmdə sakinlərin istifadəsinə verilib.**

Bu münasibətlə keçirilən tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, YAP Gəncə Şəhər Təşkilatının sədri Bayram Aslanov, bələdiyyə sədrləri, kompleksin rəhbərliyi və şəhər sakinləri iştirak ediblər.

Əvvəlcə qonaqlara musiqili-əyləncəli proqram təqdim olunub. Ticarət kompleksi ilə tanışlıqdan sonra şəhər rəhbərinə məlumat verilib ki, "Gəncə Qalası"nın ərazisi 30 min kvadratmetrdir. Burada xeyli kişi, qadın və uşaq geyimləri mağazaları, kafe və restoran, həmçinin uşaqlar üçün əyləncə mərkəzi fəaliyyət göstərir. Aşağı mərtəbədə isə avtomobillər üçün dayacanaq mövcuddur. Burada fəaliyyətə 200-dən artıq sahibkar cəlb olunub və 1000-dək işçi çalışır.

Niyazi Bayramov yaradılan şəraitlə tanış olub, mağaza sahibləri və digər işçilərlə görüşüb, onlara uğurlar arzulayıb.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*



# "Flaminqo festivalı" ölkəmizdə ilk dəfə Lənkəranda keçirildi

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Dövlət Turizm Agentliyinin birgə təşkilatçılığı ilə Qızılağac Milli Parkında "Flaminqo festivalı" keçirilib.**



Ölkəmizdə ilk dəfə keçirilən festivalda ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov, Masallı RİH başçısı Araz Əhmədov və Neftçala RİH başçısı Mirhəsən Seyidov, eləcə də qeyri-hökumət təşkilatları, universitetlər və beynəlxalq təşkilatların nümayəndələri, milli parkı ziyarət edən turistlər iştirak ediblər.

T.Qaraşov Qızılağac Dövlət Təbiət Qoruğunun bazasında milli park yaradılmasının 5-ci ilinin tamam olması ilə bağlı keçirilən festivalı təbiət bayramı adlandıraraq qeyd etmişdir ki, bu il anadan olmasının 100 ili tamam olan Ulu Öndər Heydər Əliyev respublikamızda ekoloji problemlərin davamlı inkişaf prinsipləri əsasında həll edilməsi istiqamətində əvəzsiz tədbirlər həyata keçirmişdir: "Xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi, bioloji müxtəlifliyin qorunub saxlanılması, təbii resurslardan səmərəli istifadə edilməsi və ekoturizmin inkişafına diqqət göstərilməsi Ümummilli Lider Heydər Əliyevin ekoloji siyasətindən irəli gəlir". ŞİH-in başçısı bildirmişdir ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti, o cümlədən ekologiya sahəsində başladığı işlər bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

V.Kərimov isə festivalın məqsədləri barədə tədbir iştirakçılarına məlumat verərək bildirmişdir ki, tədbirin əsas hədəfi nadir heyvanların mühafizəsinə cəmiyyətin diqqətinin artırılması və flora, fauna növlərinin qorunmasına yönəlib. "Hazırda Azərbaycan ərazilərinin 10 faizdən çoxu xüsusi mühafizə olunur", - deyən Vüqar Kərimov ölkəmizdə 10 milli park, 10 təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığının olduğunu vurğulamışdır.

Sonra tədbir iştirakçıları Azərbaycanın qorunan ərazilər şəbəkəsi, iqlim dəyişməsinin biomüxtəlifliyə təsiri və bioloji müxtəlifliyin hazırkı vəziyyətini əks etdirən stendlər, məlumat lövhələri, həmçinin Qızılağac Milli Parkına aid simvollarla tanış olmuşlar, ekoviktorinaya baxış keçirmişlər. Sonda Qızılağac Milli Parkının körfəz ərazisinə balıq körpələri və milli parkın faunasına xas olan turac quşları təbiətə buraxılmışdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Şəmkirdə yaşayan azsaylı xalqların nümayəndələri bir araya gəldilər

**Respublikamızın digər bölgələrində olduğu kimi, Şəmkirdə də azsaylı xalqların nümayəndələri yaşayır. Onlar azərbaycanlılarla yanaşı, dövlətimizin göstərdiyi diqqət və qayğıdan bəhrələnir, Azərbaycan iqtisadiyyatına töhfələr verirlər.**



Bu günlər rayon icra hakimiyyətində keçirilən görüşdə bu barədə ətraflı söhbət aparılıb. Diqqətə çatdırılıb ki, tarixən tolerant ölkə olan Azərbaycanda bu gün də azsaylı xalqların nümayəndələrinə xüsusi diqqət göstərilir. Belə münasibətin sayəsində azsaylı xalqların və etnik qrupların nümayəndələri özlərini bu ölkənin əsl vətəndaşı kimi hiss edirlər.

Görüşdə rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev çıxış edərək diqqətə çatdırmışdır ki, Azərbaycanda milli azlıqlara edilən hörmət Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır: "Ulu Öndərin əsasını qoyduğu multikulturalizm siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Bu sahədə aparılan uğurlu siyasətin nəticəsidir ki, ölkəmizin hər yerində olduğu kimi, Şəmkir rayonunda da azsaylı xalqların nümayəndələrinin dilinə, mədəniyyətinə, adət-ənənələrinə hörmətlə yanaşılır".

Görüşdə azsaylı xalqların nümayəndələri çıxış edərək Azərbaycanı doğma vətənləri kimi sevdiklərini, öz fəaliyyətlərini ölkəmizin uğurlu gələcəyi və inkişafı istiqamətində qurduqlarını qeyd etmişlər. 44 günlük Vətən müharibəsi dövründə də, bu gün də milli birlik nümayiş etdirdiklərini vurğulayan görüş iştirakçıları Azərbaycandakı multikultural mühitdən razı olduqlarını vurğulamış, dövlətin bu istiqamətdə həyata keçirdiyi siyasəti dəstəklədiklərindən söz açmışlar.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

# Böyük mədəniyyət hadisəsi

## Kitab sərgiləri xalqın mütaliə və estetik zövqünü formalaşdırır

**2023-cü ilin böyük mədəniyyət hadisəsi IX Bakı Beynəlxalq Kitab Sərgisi uğurla başa çatdı. Mübaliğəsiz deyə bilərik ki, bu sərgi xalqımızın kitaba və mütaliəyə ciddi münasibətilə yadda qaldı.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı və "Caspian Event Organisers" şirkətinin tərəfdaşlığı ilə 11-15 noyabr tarixlərində Bakı Ekspo Mərkəzində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilən sərgi, doğrudan da, ümumxalq bayramı oldu. Kitab sevgisi özəl xüsusiyyətdir, daxili potensialdır, mənəvi aclıqdır. Hər bir kitab bu aclığı doyurmaq üçün zəngin və ən bərəkətli süfrədir. Ona görə də mərkəz tam 5 gün nəşriyyat-poliqrafiya işçilərinin, yazıçıların, şairlərin, gənc yazarların, oxucuların, kitabsevərlərin, xarici qonaqların, mədəniyyət və incəsənət xadimlərinin ixtiyarına verildi.

Ölkəmizdə 2009-cu ildən etibarən keçirilən hər beynəlxalq sərgidə adətən 100-dən çox yerli, 30-dan artıq xarici ölkə nəşriyyatları, təşkilat və müəssisələri iştirak edir. Budəfəki sərginin də hər kəsə əlçatan olması və rahat gediş-gəlişi üçün Mədəniyyət Nazirliyi tərəfindən "Elmlər Akademiyası", "28 may" və "Koroğlu" metrostansiyalarından Bakı Ekspo Mərkəzinə ödənişsiz xüsusi avtobuslar təşkil edilmişdi. Bu fürsətdən istifadə edən ali və orta ixtisas müəssisələri, ayrı-ayrı oxucular axınaxın sərgiyə gəlir, pavilyonlarla, naşirlərlə, yazıçı-şairlərlə və elm adamları ilə ünsiyyət qurur, saysız-hesabsız təqdimat mərasimlərində iştirak edir, kitab alır, bir sözlə, evlərinə əsl bayram əhvali-ruhiyyəsi ilə dönürdülər.

Builki sərginin xüsusi önəmi ondan ibarət idi ki, həm Ulu Öndərin əziz xatirəsinə həsr olunmuş, həm də tam və qəti qələbəmizi maraqlı kitablarla özündə ehtiva etmişdi. Ona görə də sərgi ikiqat bayram əhvali-ruhiyyəsi yaradırdı. Bir naşir kimi deyə bilərəm ki, Ulu Öndər Heydər Əliyevin birinci hakimiyyəti dövrünü Azərbaycanda kitab nəşrinin intibah dövrü hesab etmək olar. Azərbaycan ədəbiyyatının təkamülü hesab edilən həmin dövrdə yaranmış bədii əsərlər, maraqlı romanlar, povestlər, şeirlər, dünya ədəbiyyatı incilərindən tərcümələr "Azərnəşr"in və digər nəşriyyatların qrifi ilə yüksək tirajlarla çap olunaraq oxuculara çatdırılırdı. O vaxtlar belə sərgilər keçirmək fürsətimiz olmasa da, ən ucqar bölgələrimizdə belə bu kitabları insanlar, xüsusilə gənclər əldə edib oxuyurdular.

Fəaliyyətə başladığı 1923-cü ildən bəri "Azərnəşr" ən mühüm təbliğat vasitəsi kimi dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmuşdu. Çünki Heydər Əliyev kitab nəşrinin inkişafına və zənginləşməsinə diqqət və qayğıkeşliklə yanaşırdı. Təsadüfi deyildir ki, o vaxt Mərkəzi Komitə birinci katib Heydər Əliyevin təşəbbüsü ilə Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti işləri Komitəsinin daha da inkişaf etdirilməsi ilə bağlı xüsusi qərar qəbul etmişdir. Məhz həmin qərardan sonra nəşriyyat-poliqrafiya müəssisələri, demək olar ki, yenidən qurulmağa başladı. Ən müasir poliqrafiya avadanlıqları alındı, kitab ticarəti dövriyyəsi ikiqat artdı. Dövlətnəşrkomun bütün müəssisələrinin ev növbəsində dayanan əməkdaşları üçün yeni yaşayış binası, ailəvi yataqxana, uşaq bağçası tikildi. Mənə də gənc mütəxəssis kimi həmin binadan mənzil verildi.

Ulu Öndərin zəngin irsi, ayrı-ayrı əsərləri 1969-1990-cı illərdə "Azərnəşr" tərəfindən Azərbaycan və rus dillərində çap edilmişdir. Bundan başqa, ictimai-siyasi ədəbiyyatın tipologiyasında xüsusi əhəmiyyət kəsb edən çoxcildli əsərləri də nəşriyyatımız tərəfindən çap olunmuşdur. Ulu Öndərin ikinci dəfə hakimiyyətə gəlişindən sonra siyasi fəaliyyətini əhatə edən "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin 46 cildi özünün təşəbbüsü və tapşırığı ilə "Azərnəşr" tərəfindən nəfis tərtibatda çap olunaraq ictimaiyyətə çatdırılmışdır.

2001-ci ildən Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərnəşr"in kollektivi 2008-ci ildən cənab İlham Əliyevin Prezident kimi fəaliyyətə başladığı gündən bütün çıxış, nitq, məruzə, görüş və məktublarını "İnkişaf - məqsədimizdir" adlı coxcildlikdə ən yüksək poliqrafiq keyfiyyətdə nəşr edir. Bu günlərdə 131-ci cild işıq üzü görəcək. Prezident neçə illərdir ölkəmizdə ədəbiyyata, mədəniyyətə, kitab sənayesinə, müasir standartlara cavab verən nəşriyyatların yaranmasına və inkişafına ciddi dəstək verir. Kağız idxalının və istehsalının ƏDV-dən azad olunması, eləcə də hər il bir çox ölkədə Azərbaycanın kitab mədəniyyətinin təbliğinə şərait yaradılması bu qayğının təzahürüdür.

Qeyd etmək yerinə düşər ki, Mədəniyyət Nazirliyi də öz imkanları hesabına Bakı Ekspo Mərkəzində ödənişlərə əlavə güzəşt etdi, hər nəşriyyata ödənişsiz yer ayırdı ki, bu da nəşriyyatlara və müəlliflərə məhsullarının satış-sərgisini keçirmək, özlərini reklam etmək imkanı yaratdı. Çünki sərgi istehsalçının vitrinidir, məhsulunu alıcının önünə çıxarır. Mədəniyyət Nazirliyinin bu addımı naşirləri ürəkləndirdi, onlara stimul verdi.

Sərgidə "Zəfər", "Şuşa" və "Xudafərin" adlı üç təqdimat zonası fəaliyyət göstərirdi. Hər zonada gündə bir neçə yeni nəşr olunmuş kitabın təqdimatı, yerli və xarici yazar və naşirlərlə görüş, müzakirə və diskussiyalar keçirilirdi. Sərginin ən yaxşı stendi, ən aktiv naşiri, ən çox oxunan müəllifi elan olunur və mükafatlandırılırdı. Demək olar ki, əksər nəşriyyatlar, poliqrafiya müəssisələri öz kitablarının təbliğatına yüksək səviyyədə yanaşır və geniş oxucu kütləsi cəlb edirdi. Qardaş Türkiyənin pavilyonu dolub-boşalır, bir-birindən dəyərli kitabları nümayiş etdirilirdi. M.F.Axundov adına Milli Kitabxana isə təkcə bu il ərzində Qarabağ Zəfəri ilə bağlı 5 adda yüksəkkeyfiyyətli kitabının təqdimat mərasimilə keçirdi. C.Cabbarlı adına Gənclər Kitabxanası da öz daxili imkanları hesabına nəşr etdiyi kitabların təqdimatını keçirdi. "Şərq-Qərb", "Hədəf nəşrlər evi", "Qanun", "Teas Press", "Təhsil", "Altun kitab", "Parlaq imzalar", "Everest" və s. nəşriyyatlar tarixi, elmi, publisistik və bədii əsərləri ilə sərgiyə xüsusi rəng qatdılar. Ümumiyyətlə, builki sərgi əsl rəqabət meydanı idi.

"Azərnəşr" bu sərgidə 2 kitabının təqdimat mərasimini keçirdi. Hüquq elmləri doktoru, çoxsaylı tədqiqatların müəllifi Fazil Zeynalovun "Şuşa - müqəddəs Azərbaycan şəhəri" kitabı nəşriyyatımızın nəfis tərtibatda çap etdiyi ən maraqlı nəşrlərdən biridir. Mərasimdə çıxış edən tarixçi alim və tədqiqatçılar Şuşanın tarixinə, mədəniyyətinə qısa səyahət edərək kitabın çox dəyərli mənbələrlə zəngin olduğunu vurğuladılar. İkinci təqdimatımız isə Xocavəndin azadlığı uğrunda şəhidlik zirvəsinə ucalmış igidlərimizin xatirəsinə həsr edilən "Vətən sizə minnətdardır" kitabı oldu. Kitabda şəhidlərimizin uşaqlığından, gəncliyindən və keçdikləri döyüş yolundan bəhs edilir. Lerik rayonunun Kəlvəz kəndindən olan, Vətən müharibəsi zamanı Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş qardaşların - Bəhram və İmanın atası Elman Məmmədovun yüksək vətənpərvərlik ruhundakı çıxışı bütün iştirakçılara duyğusal anlar yaşatdı. Dəvət olunmuş şəhid ailələri onlara göstərilən diqqətə və övladlarının xatirəsinin əziz tutulmasına görə minnətdarlıq etdilər. Tədbirin sonunda şəhid ailələrinə və digər tədbir iştirakçılarına müxtəlif kitablar paylandı. Yaddaqalan anlardan biri də şəhidlərimizin qanı-canı bahasına azad etdikləri Kəlbəcər rayonundan gətirdiyim dünyaşöhrətli "İstisu"yun şəhidlərimizin ruhuna ehsan kimi iştirakçılara paylanması oldu.

Sərgidə maarifləndirici və intellektual söhbətlərə geniş yer verilir, xarici qonaqlarla, naşirlərlə görüşlər keçirilirdi. Bu il fəxri qonaq kimi ilk dəfə Rusiya təmsil olunurdu. Rusiya Federasiyasının ölkəmizdəki səfiri Mixail Yevdokimov Bakı Beynəlxalq Kitab Sərgisini Cənubi Qafqazın ən böyük ədəbi tədbiri kimi dəyərləndirdi və bunun üçün Azərbaycan Mədəniyyət Nazirliyinə təşəkkür etdi.

Bayram ab-havalı sərgidə təkcə kitablar sərgilənib satılmırdı, "dəyirmi masa"larda, diskussiyalarda kitabın və nəşriyyatların üzləşdiyi problemlər müzakirə olunur, məruzələr edilirdi. Ölkəmizin nüfuzlu ziyalıları, Milli Məclisin üzvləri də müzakirələrə qatılırdı. Sərgi bir növ tribunaya çevrilmişdi. Hər kəs fikrini ifadə etməkdə azad və rahat idi, çünki azad mikrofon, sərbəst düşüncə mühiti yaradılmışdı. Belə sağlam mühit yeni yazarlar, müəlliflər, yeni oxucular yetişdirir. Biz sərgidə bunun şahidi olduq ki, bu da çox sevindirici haldır.

Azərbaycanda da kitab artıq əmtəə kimi bazara çıxarılır. İnsanlar sərgi günlərində kitabla qidalanır, qida və əşya ilə bərabər kitab alırdılar. İllərboyu biz bunu gözləmiş və arzulamışıq, kitab almağa vərdiş yaranır, valideynlər kiçikyaşlı uşağına kitab almaq üçün büdcəsindən vəsait ayırır və əlindən tutub sərgiyə gətirirdi. Bakı Ekspo Mərkəzi kimi böyük əraziyə malik meydan uşaqların səsləri, gülüşlərilə dolub-daşırdı, kiçikyaşlı uşaqların oynaması, bir-birilə qaynayıb-qarışması üçün onlara xüsusi ərazi də ayrılmışdı. Bu sərgidə əmin oldum ki, biz az kitab oxuyan, kitaba küskün xalq deyilik. Əvvəllər kitabların bahalığından şikayətlər olurdu, gənclər kitabın qiymətilə imkanlarımız üst-üstə düşmür, deyirdilər. Bu sərgidə elə stendlər vardı ki, qarşısında kitab almaq üçün gənclər uzun növbələr yaratmışdılar. Oxucular böyük endirimlərdən faydalanırdılar, hətta hədiyyələr belə edilirdi. Panellərdə keçirilən tədbirlərdə müasir ədəbi mühit və cərəyanlar barədə müxtəlif fikirlər, yanaşmalar təqdim edilirdi. Ədəbiyyatımızda bu mövzuların inkişafı, beynəlxalq səviyyədə təcrübə, milli naşirlərin xarici mətbuatda, kitab sərgilərində təqdimatı, həmçinin onların tərcümələrinin düzgünlüyü, eləcə də kitab çapı sahəsindəki problemlərə toxunulurdu.

Qeyd etdiyimiz kimi, nəşriyyatların sərgilərə çox böyük ehtiyacı var, rəqabət üçün onlara əla fürsətlər yaranır. Burada özlərinin fərqliliyini, çatışmazlığını görür, növbəti sərgiyə hazırlıq planlarını qururlar. Yeni müəllif, oxucu qazanır, yeni nəsil oxucusunun tələb və təklifini, marağını öyrənir, əlaqələr yaradır. Sərgidə yazarlar və oxucular arasında canlı görüş yaranmışdı, bir çox müəllif kitablarını özləri sərgiləyir və satışını həyata keçirirdi. Oxucular kitabı müəllifin özündən alır, onunla söhbət edir, imza alır, şəkil çəkdirir, fikirlərini sərbəst şəkildə ifadə edirdilər. Bütün bunlar oxucu ilə müəllif arasında çox gözəl ünsiyyət vasitəsi yaradır. Kitab oxuyan nəsillər gələcəyin memarlarıdır. Kitabları oxunan cəmiyyət sağlamdır. 2009-cu ildən bəri təşkil edilən və ən yüksək səviyyədə təşkil olunan builki kitab sərgisi də cəmiyyətimizin mənəvi sağlamlığına xidmət etmək məqsədi daşıyır.

Sərgidə məni ən çox düşündürən məqamlardan biri Azərbaycan kitabının dünya bazarına necə çıxarılması, xalqımızın keçdiyi keşməkeşli yolu, şanlı tariximizi, başımıza gətirilən faciələri, həmçinin elmi-kütləvi və tarixi kitabların dünya kitab xəzinəsinə necə transfer edilməsidir. Uzun illər dünya ədəbiyyatının ən müxtəlif janrlarını, tarixi-elmi əsərləri dilimizə çevirmişik və təbii ki, bu, böyük nailiyyətdir. Bəs necə edək ki, Azərbaycan tarixini, elmini, ədəbiyyatını və mədəniyyətini özündə ehtiva edən kitablarımızı dünya ictimaiyyətinə çatdıraq... Şəxsi qənaətimə görə bu, həlli vacib, çox aktual və düşündürücü problemdir. Sadə dillə desək, özümüz deyib, özümüz eşitməməliyik.

Fürsətdən istifadə edib sərginin yüksək səviyyədə təşkili və keçirilməsinə görə Mədəniyyət Nazirliyinin rəhbərliyinə, Kitab Sənayesi şöbəsinin bütün əməkdaşlarına, ümumən, təşkilatçıların hamısına təşəkkür edirəm. Kitabla bağlı baş verən hər hadisə sevindiricidir, ümidvericidir. Hamımız ölkəmizin ən böyük mədəniyyət hadisəsi olan kitab sərgisinin hər il daha mükəmməl və daha möhtəşəm keçirilməsini arzu edirik. Bunun üçün biz naşirlər var gücümüzlə çalışmalı, növbəti sərgilərə yeni və maraqlı kitablarla getməliyik. Biz tam Zəfər çalmış qalib xalqıq. Şübhə etmirəm ki, beynəlxalq sərgilərdə də Zəfərimizə və xalqımıza layiq kitablarla təmsil olunacağıq.

***Əlövsət AĞALAROV,***
***"Azərnəşr"in baş redaktoru,***
***Əməkdar jurnalist***

# Tədqiqatçı-pedaqoqun "Azərbaycan dilinin Meğri şivələri" monoqrafiyasının ikinci nəşri çapdan çıxıb

**Tədqiqatçı-pedaqoq Əhmədəli Əliyevin "Azərbaycan dilinin Meğri şivələri" monoqrafiyasının yoxlanılmış və təkmilləşdirilmiş ikinci nəşri çapdan çıxıb.**

AZƏRTAC xəbər verir ki, ikinci nəşrin redaktoru Bakı Dövlət Universitetinin kafedra müdiri professor Abbas Abbasov, rəyçiləri filologiya elmləri doktorları, professor Elbrus Əzizov və professor İbrahim Bayramovdur.

Giriş, üç fəsil və əlavə hissələrdən ibarət monoqrafiyada ilk dəfə olaraq qədim Zəngəzurun cənubunda yerləşən Meğri ərazisindəki Nüvədi, Aldərə, Vartanizor, Ernəzir, Lehvaz, Maralzəmi, Tuğut kənd şivələri öyrənilib. Müəllif bu şivələrin fonetik, leksik, morfoloji və sintaktik xüsusiyyətlərini zəngin dil materialları əsasında tədqiq etməklə yanaşı, ərazinin bütövlükdə türkmənşəli toponimlərini əhatəli şəkildə oxuculara çatdırıb. Bunlar dilimizin tarixinin tədqiqi, qədim türk ərazilərinin öyrənilməsi baxımından çox qiymətli materiallardır.

Monoqrafiyanın birinci fəslində Meğri rayonu şivələrində nitq prosesində qarşıya çıxan sait səslər və onların variantları, sait səslərin bir-birilə asanlıqla əvəzlənməsi, daha doğrusu, ön sıra saitlərinin arxa sıra saitləri ilə və yaxud arxa sıra saitlərinin ön sıra saitlərilə əvəzlənməsi, dodaqlanmayanların dodaqlananlarla, açıq saitlərin qapalılarla əvəzlənməsi və s. qeyd edilir. Eləcə də bəzi sözlərin əvvəlində, ortasında və sonunda təsadüf edilən səs artımı (proteza) hadisəsi misallarla göstərilir.

Kitabın ikinci fəsli Azərbaycan dilinin Meğri şivələrinin qrammatikasından bəhs edir. Orada əsas nitq hissələri sadalanır, hər bir izah şivə nümunələri ilə tamamlanır.

Əsərin üçüncü fəsli "Sintaksis" bəhsinə həsr olunub. Orada mürəkkəb söz birləşmələri, o cümlədən təyini söz birləşmələrinin növləri sadalanır. Yarımbaşlıqlarda, ümumiyyətlə, cümlə, mürəkkəb cümlənin növləri haqqında izahlar, omonimlər, sinonimlər, habelə ayamalar, müxtəlif məzmunlu ağız ədəbiyyatı nümunələri barədə də maraqlı misallar diqqətə çatdırılır.

Monoqrafiyanın əlavə hissəsi də xüsusi maraq doğurur. Orada Meğri şivələrində mövcud olan zəngin leksikanı görmək mümkündür. Lüğətə daxil edilmiş leksik material minə yaxın söz və söz birləşmələri şəklində şərh edilir.

İkinci nəşrin redaktoru professor Abbas Abbasovun fikrincə, bu monoqrafiya müstəqil Azərbaycan dövlətinin apardığı məqsədyönlü "Qərbi Azərbaycana Qayıdış" strategiyasının tərkib hissələrindən biri kimi dəyərləndirilə bilər. Professor bu barədə yazır: "Əsər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Zəngəzur dəhlizinin açılması, Türk Dövlətlər Birliyinin birbaşa quru yolla əlaqələrinin möhkəmlənməsi, Şərqlə Qərb arasında açılacaq yeni yola elmi dəstəkdir".

Professor Abbas Abbasov müəllif Əhmədəli Əliyevin həyat yoluna və elmi yaradıcılığına da toxunub. Qeyd olunub ki, Əhmədəli İsmayıl oğlu Əliyev




1922-ci il martın 31-də Zəngəzur mahalının Nüvədi kəndində dünyaya göz açıb. Keşməkeşli ömür sürmüş Əhmədəli Əliyev nə qədər ailə və məktəb-maarif qayğıları ilə yüklənsə də, doğma Nüvədinin və eləcə də ətraf kəndlərin təsərrüfat işlərində, el şənliklərində yaxından iştirak edir, hər bir el ağsaqqalı və ağbirçəyinin, əliqabarlı insanların, ziyalıların dilindən süzülüb gələn maraqlı söz-söhbətləri dinləyir və bütün bunları gələcək tədqiqat işlərinə tətbiq edəcəyi barədə daim düşünüb-daşınırdı. Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda "Azərbaycan dilinin Meğri şivələri" adlı dissertasiya mövzusunu təsdiq də etdirmişdi. Dissertasiya işinin müzakirəyə verilməsi ərəfəsində bədxah qonşularımız bütün Qərbi Azərbaycan ellərinə aramsız basqınlar edirdilər. 1988-1991-ci illərdə Qərbi Azərbaycan torpaqları büsbütün boşaldılır. Bakıya gələn Əhmədəli müəllim burada qohum-qardaşın və dost-tanışlarının dəstəyi ilə ev şəraiti qurur, Zəngilanın köçkün məktəblərində müəllimlik edir. Eyni zamanda tədqiqat işini tamamlayır və elmi müzakirəyə verir. Bütün müzakirə mərhələlərində bu əsərə yüksəksəviyyəli elmi-tədqiqat işi qiyməti verilsə də, işin müdafiəsi istiqamətində ciddi bürokratik əngəllər də meydana çıxdığından Əhmədəli müəllim "Azərbaycan dilinin Meğri şivələri" adlı hazır dissertasiya işinin yalnız monoqrafiya kimi çap olunması qənaətinə gəlir.

Qeyd edək ki, monoqrafiyanın birinci nəşrindən sonra bu əsər barədə çoxsaylı müraciətləri nəzərə alan Əhmədəli Əliyevin övladları akademik Fikrət Əliyev və professor İsmayıl Əliyev bu əsəri yenidən nəşr etdirdilər. Onlar bu barədə belə deyirlər: "Atamızın apardığı bu elmi axtarışların nəticəsi təxminən qırx ildən sonra ilk dəfə monoqrafiya kimi çap olunub işıq üzü gördü. Mütəxəssislərin təbirincə desək, "Azərbaycan dilinin Meğri şivələri" monoqrafiyası elmi ad almaq üçün deyil, ulu tariximizi yaşatmaq üçün yazılmışdır. Bu monoqrafiya Zəngəzurun bir hissəsi olan Meğri rayonunun qədim türk torpaqları olmasının təsdiqi haqqında nadir bir salnamə kimi qəbul olundu... Atamız Əhmədəli müəllim monoqrafiyanın ilk nəşrini Ulu Öndər Heydər Əliyevin anadan olmasının 80 illik yubileyinə hədiyyə etmişdir. Kitabın 2003-cü il iyunun 27-də AMEA-nın Rəyasət Heyətində təqdimatı keçirilib. Atamızın ruhu şad olsun deyə, biz monoqrafiyanın təkmilləşdirilmiş ikinci nəşrini də Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edirik".

# Varşavada "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" kitabının təqdimatı olub

**Azərbaycanın Polşadakı səfirliyinin təşkilatçılığı və Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi və Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyasının dəstəyi ilə Varşavada Milli Etnoqrafiya Muzeyində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin dəstəyi ilə çap edilmiş "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" kitabının təqdimatı keçirilib və "Qarabağ xanlığı: Azərbaycanın mədəni irsinin inciləri" adlı sərgi təşkil edilib.**




AZƏRTAC xəbər verir ki, sərgidə Polşanın Xarici işlər Nazirliyinin nümayəndələri, müxtəlif dövlət qurumlarının təmsilçiləri, akademik, incəsənət, media və biznes dairələrinin nümayəndələri, bu ölkənin müftisi və dini icmalarının təmsilçiləri, Polşada akkreditə olunmuş diplomatik missiyaların rəhbərləri və əməkdaşları, o cümlədən Azərbaycan diasporunun nümayəndələri, Polşa vətəndaşı olan həmvətənlərimiz və azərbaycanlı tələbələr iştirak ediblər.

Tədbirdə Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova, Milli Etnoqrafiya Muzeyinin direktoru Maqdalena Vroblevska, Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyasının İdarə Heyətinin sədri Elçin Əsgərov, Roma Sapienza Universitetinin tədqiqatçısı, professor Daniel Pommier Vinçelli, Gürcüstan Milli Muzeyinin Baş kuratorunun müavini Tebrone Nadiradze, Polşanın Vitold Pilecki İnstitutunun nümayəndəsi, tarix üzrə fəlsəfə doktoru Yeji Roxojinski çıxış ediblər.

Tədbirdə açılış nitqi ilə çıxış edən səfir N.Qurbanova tədbirin təşkilində göstərdiyi dəstəyə görə Gürcüstan Milli Muzeyinə, Heydər Əliyev Fondu, eləcə də Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyasına təşəkkürünü bildirib. Səfir Azərbaycan ərazisində suveren feodal dövlət qurumlarının - xanlıqların yaradılmasının xalqımızın çoxəsrlik tarixinin mühüm mərhələlərindən biri olduğunu diqqətə çatdırıb. O, belə xanlıqlardan birinin XVIII əsr Azərbaycanın ən görkəmli dövlət xadimlərindən biri olan Cavanşir tayfasının Sarıcalı oymağından Pənah Əli xan Cavanşir tərəfindən əsası qoyulan Qarabağ xanlığı olduğunu vurğulayıb. Səfir həmçinin Qarabağ xanlığının paytaxtı Şuşa şəhəri barədə məlumat verərək onun əsasının 1752-ci ildə qoyulduğunu bildirmiş, ilk əvvəl Pənahabad adlanan şəhərin tez bir zamanda Qarabağın iqtisadi mərkəzi kimi Azərbaycanın əsas ticarət və sənətkarlıq şəhərlərindən birinə çevrildiyini söyləyib.

Səfir əlavə edib ki, 2020-ci ildə 44 günlük müharibə nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib və 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsi üzərində öz suverenliyini tam təmin edib. O, 30 ilə yaxın müddətdə işğal altında olan ərazilərimizin azad edilməsi ilə ölkəmizin zəngin mədəni irsinin bərpası, eləcə də regionun yenidən qurulması və iqtisadi dirçəliş prosesinə start verilməsi barədə qonaqlara məlumat verib.

Qeyd edilib ki, "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" kitabında Qarabağın parlaq irsinin bir hissəsi olan 300-dən çox artefaktın təsviri olduğunu, onun 2022-ci ildə nəşrinin Qarabağın ürəyi olan Şuşa şəhərinin 270 illik yubileyinə təsadüf edir. Sözügedən kitabın nəşrinin Azərbaycan və Gürcüstanın akademik dairələri və vətəndaş cəmiyyəti nümayəndələri arasında səmərəli əməkdaşlığın gözəl nümunəsi olduğunu diqqətə çatdıran səfir ötən il kitabın Gürcüstanda keçirilən təqdimatında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Respublikasının Baş naziri İrakli Qaribaşvilinin iştirak etdiyini xüsusi vurğulayıb. N.Qurbanova kitabın Polşada tarixçiləri və sənətşünasları Qarabağın və bütövlükdə Azərbaycanın tarixini araşdırmağa həvəsləndirəcəyinə ümid etdiyini ifadə edib.

Milli Etnoqrafiya Muzeyinin direktoru M.Vroblevska rəhbərlik etdiyi muzeyin belə bir tədbirə evsahibliyi etməsindən məmnunluğunu ifadə edib, eyni zamanda səfirlik ilə əməkdaşlığın davam etdiriləcəyinə ümid etdiyini bildirib. Daha sonra o, rəhbərlik etdiyi muzey barədə qonaqlara məlumat verib.

Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyasının İdarə Heyətinin sədri E.Əsgərov Azərbaycanın Cənubi Qafqazın digər ölkələri ilə birgə uzun illər Rusiya imperiyasının, daha sonra SSRİ-nin tərkibində olduğunu, ölkənin və regionun tarixi, arxeologiya və etnoqrafiyası haqda bütün əsas araşdırmaların məhz həmin illərə təsadüf etdiyini bildirib. E.Əsgərov Rusiya tərəfindən Tiflisdə yaradılan Qafqaz muzeyinin əməkdaşlarının müxtəlif illərdə Qafqazın müxtəlif regionlarına, o cümlədən Qarabağa ekspedisiyalar təşkil edib çox sayda artefaktlar toplayaraq muzeyə gətirməsi və bu materialların əksəriyyətinin açılmadan və tədqiq olunmadan muzeyin anbarlarında qalması barədə məlumat verib.

Daha sonra o, kitaba arxivlərdən tapılmış minlərlə yeni material və artefaktlardan təqribən 300-nün daxil edildiyini qeyd edərək bu materialların Qarabağ regionunun tarixi, mədəniyyəti, məişəti, inancı haqda məlumatları əks etdirdiyini və həmin artefaktlar vasitəsilə regionda aparıcı mədəni kimliyin məhz Azərbaycan kimliyi olmasını müəyyən etdiyini əlavə edib.

Tədbirdə təqdimatla çıxış edən digər natiqlər - Roma Sapienza Universitetinin tədqiqatçısı, professor D.P.Vinçelli, Gürcüstan Milli Muzeyinin Baş kuratorunun müavini T.Nadiradze, Polşanın Vitold Pilecki İnstitutunun nümayəndəsi, tarix üzrə fəlsəfə doktoru Y.Roxojinski Qarabağın tarixi, mədəniyyəti, etnik tərkibi, burada mövcud olan Qafqaz Albaniyasının xristian irsi, regiona müxtəlif illərdə təşkil edilmiş ekspedisiyalar, bu ekspedisiyaların nəticələri, əldə edilmiş artefaktlar barədə tədbir iştirakçılarına geniş məlumat veriblər.

Milli Etnoqrafiya Muzeyində baş tutmuş "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" kitabının təqdimatı və "Qarabağ xanlığı: Azərbaycanın mədəni irsinin inciləri" adlı sərgi qonaqlar tərəfindən böyük maraq və rəğbətlə qarşılanıb. Sərgi ziyafətlə davam edib.

Yuxarıda qeyd olunan kitabın ikinci təqdimatı və sərginin açılışı həmçinin Polşanın nüfuzlu özəl qalereyalarından birində təşkil edilib.

Qeyd edək ki, ictimaiyyət üçün açıq olan sərgi bir həftə ərzində davam edəcəkdir.

Jurnalist araşdırması

# İdarəedənlər dəyişsə də, problemlər qalmaqdadır

## Qəbiristanlıqların "köhnə dərd"ləri bitmək bilmir

***...Qəbiristanlığa daxil olanda çox əcaib mənzərə ilə üzləşdik. Rəhbərlikdən olduğunu deyən bir nəfər hüzrümüzün düşdüyünü və qəbir yeri ilə maraqlandığımızı öyrənər-öyrənməz pul söhbəti eləməyə başladı. Filan yerdə məzar üçün filan qədər, qəbirqazanlara filan qədər, plitə daş üçün filan qədər və daha nələr...***

***Sanki bu gün qazancları olacaq deyə sevinirdilər. Hətta sövdələşməyə də getdilər, beş-on manat keçə biləcəklərini də söylədilər...***

***Şəhriyar Vəliyevin bu şikayəti əslində vətəndaşlarımızın əksəriyyətinin etirazı, mövqeyidir. Əlbəttə, dəfn xidməti üçün pul, yaxud rüsum ödənməlidir, amma bizim qəbiristanlıqlar sanki bazarı xatırladır: ya istədikləri pulu verməlisən, ya da gedib başqa qəbiristanlıqda yer axtarmalısan.***



### 2800-dən çox qəbiristanlıq bələdiyyələrə təhvil verilib

Qəbiristanlıqlarla bağlı problemlər həmişə ictimai müzakirə mövzusu olub. Pulsuz ayrılmalı olan məzar yerlərinin satılmasından tutmuş dəfn prosesinə qədər özünü göstərən müxtəlif çətinliklər və süni problemlər, aidiyyəti qurum tərəfindən qəbiristanlıqlarda abadlıq və təmizlik işlərinin görülməməsi, məzar yerlərinin mühafizə olunmaması, bir sözlə, qəbiristanlıqların idarəçiliyində özünü göstərən çatışmazlıqlar həmişə vətəndaş qınağı ilə qarşılanıb.

Mövcud çatışmazlıqların aradan qaldırılması məqsədilə 2018-ci ilin dekabr ayında Nazirlər Kabinetinin qərarı ilə "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları" təsdiq edilib. Öncə onu qeyd edək ki, 2018-ci ilə qədər qəbiristanlıqların idarəçiliyi yerli icra hakimiyyətinin səlahiyyətində olub. Nazirlər Kabineti tərəfindən təsdiq edilən qəbiristanlıqların salınması, idarə olunması, qorunması, dəfnlərin vahid dövlət reyestrinin aparılması, cənazələrin daşınması ilə bağlı tələbləri müəyyən edən qaydalara əsasən qəbiristanlıqların idarəçiliyi bələdiyyələrə həvalə olunub.

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzindən mövzu ilə bağlı bildirdilər ki, Nazirlər Kabinetinin müvafiq qərarı ilə yerli icra hakimiyyəti orqanlarına qəbiristanlıqların müvafiq bələdiyyələrə təhvili işinin təmin edilməsi tapşırılıb. Prosesin icrası ilə bağlı qurum tərəfindən bələdiyyələrə müvafiq tövsiyələr verilib və artıq bələdiyyələrin əksəriyyəti tərəfindən qəbiristanlıqlar təhvil alınıb. 2023-cü ilin mart ayınadək respublika üzrə (Naxçıvan MR istisna olmaqla) 2800-dən çox qəbiristanlıq bələdiyyələrə təhvil verilib.

Amma "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nda bəzi istisnalar var. Məsələn, bu qaydaların tələbləri Azərbaycan Respublikasının Fəxri xiyabanlarında, Şəhidlər xiyabanlarında və kütləvi (qardaşlıq) məzarlıqlarında aparılan dəfnlərə, habelə Vətən uğrunda şəhid olan hərbçilərin dəfn mərasimlərinə şamil edilmir. Habelə Fəxri xiyabanların, Şəhidlər xiyabanlarının və kütləvi məzarlıqlarının salınması barədə qərar Nazirlər Kabineti tərəfindən qəbul edilir.

Eyni zamanda birbaşa qəbiristanlığın müdiriyyəti tərəfindən dəfn xidmətlərinin göstərilməsi, başdaşı ilə bağlı müəyyən olunmuş standartlar, qəbirüstü tikililərin quraşdırılmasında cərgə ilə sıralanmaya əməl olunması və məzarın ətrafının hasara alınmaması ilə bağlı tələblər bu qaydalar qüvvəyə minənədək mövcud olan qəbiristanlıqlara şamil edilmir.

Lakin qəbiristanlıqların idarə olunması ilə bağlı qaydalarda nəzərdə tutulan digər tələblər 2018-ci ilə qədər mövcud olmuş bütün qəbiristanlıqlarda keçərlidir. Belə ki, qaydalara əsasən qəbiristanlıqların normal fəaliyyətinin təşkil edilməsi məqsədilə bələdiyyələr qəbiristanlığın ştat cədvəlini və xərclər smetasını təsdiqləyir, qəbiristanlığın müdiriyyətini işə qəbul və işdən azad edir. Həmçinin qəbiristanlığın qorunması, saxlanılması və abadlaşdırılması ilə bağlı işləri görür, əhalinin aztəminatlı təbəqəsindən olan şəxslərin dəfn mərasimlərinin təşkilinə yardım göstərir.

### Müəyyən işlər görülsə də...

Əvvəldə qeyd etdiyimiz kimi, qəbiristanlıqlarla bağlı problemlər həmişə özünü göstərib və vətəndaş qınağı ilə qarşılanıb. Amma qəbiristanlıqların bələdiyyələrin idarəçiliyinə verilməsindən sonra da ümumi mənzərə ondan ibarətdir ki, bəzi bələdiyyələr tərəfindən müəyyən işlər görülsə də, qəbiristanlıqların saxlanılmasında və idarəçiliyində diqqəti çəkən irəliləyiş və dəyişiklik baş verməyib. Yerli icra hakimiyyəti orqanlarının balansında olduqları vaxtlarda qəbiristanlıqlarda vəziyyət necə idisə, indi də, demək olar ki, o cürdür.

Milli Məclisin deputatı, parlamentin Regional məsələlər komitəsinin üzvü Kamran Bayramov deyir ki, "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"na uyğun olaraq onun təsdiq edildiyi gündən 3 ay müddətinə yerli icra hakimiyyəti orqanları tərəfindən qəbiristanlıqların müvafiq bələdiyyələrə təhvil verilməsinin təmin edilməsi nəzərdə tutulub: "Amma bu gün hələ kifayət qədər ətraflı məlumata malik deyilik ki, həqiqətən bütün qəbiristanlıqlar bələdiyyələrə təhvil verilib, ya verilməyib? Ona görə bütün qəbiristanlıqlar bələdiyyələrə tam təhvil verildikdən sonra hansısa nəticədən danışa bilərik".

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzindən isə bildirirlər ki, qəbiristanlıqlar təhvil alındıqdan ötən müddət ərzində bir sıra bələdiyyələr tərəfindən maliyyə imkanları daxilində onların qorunması, saxlanılması və idarə olunması sahəsində tədbirlər görülüb. O cümlədən abadlaşdırma və təmizlənmə işləri aparılıb, su xətti çəkilib, kanalizasiya sistemi qurulub, eləcə də müşahidə kameraları quraşdırılıb.

Araşdırmalarımız göstərir ki, bələdiyyələr bir az fəal olsalar, təhvil aldıqları qəbiristanlıqlarda öz daxili imkanları hesabına müəyyən işlər görə bilərlər. Xırdalan bələdiyyəsinin sədri Orxan Musayev bildirir ki, Nazirlər Kabinetinin sözügedən qaydalarına əsasən Xırdalan qəbiristanlığını yerli icra orqanından təhvil aldıqdan sonra burada xüsusən yollar, abadlıq və mühafizə ilə bağlı vəziyyətin bərbad olduğunu görüblər. Amma buna baxmayaraq, rəhbərlik etdiyi qurum Xırdalan qəbiristanlığının idarəçiliyi ilə bağlı üzərlərinə düşən vəzifələri yerinə yetirməyə çalışır, öz daxili imkanları hesabına 39 hektarlıq ərazini əhatə edən qəbiristanlığın abadlığı üçün müəyyən işlər həyata keçirir. Xırdalan qəbiristanlığında daxili yolların zəbt olunmuş hissələri azad edilib, habelə gediş-gəlişi asanlaşdırmaq üçün bu yollara 11 min kvadratmetrdən artıq asfalt örtük döşənib.

Hazırda qəbiristanlıq ərazisində ikimərtəbəli inzibati binanın tikintisi davam edir. Burada həm qəbiristanlığın müdiriyyəti fəaliyyət göstərəcək, həm də müvafiq qurumdan fəaliyyət lisenziyası almış mollalar üçün otaq ayrılacaq. Sonrakı mərhələdə bütün qəbiristanlıq ərazisi hasara alınacaq, ərazidəki yollar genişləndiriləcək.

### Qəbiristanlıqlarda dəfn xidmətləri göstərilmir

Lakin bir nüans da var ki, Xırdalan bələdiyyəsi və onun timsalında digər bələdiyyələr tərəfindən təyin edilən qəbiristanlıqların müdiriyyətləri dəfn xidmətləri göstərə bilmirlər. Yəni yeni qaydada nəzərdə tutulmuş dəfnlə bağlı qəbiristanlığın müdiriyyəti tərəfindən göstərilə bilən xidmətlər 2018-ci ilədək mövcud olan qəbiristanlıqlara şamil edilmir.

Bu xidmətlər ölmüş şəxsin cənazəsinin daşınması üçün tabutun və nəqliyyat vasitəsinin təqdim olunması, qəbir yerinin qazılması, ölmüş şəxsin kimliyini bildirən müvəqqəti lövhənin quraşdırılmasıdır. Həmçinin cənazənin dəfn edilməsi və dəfndə dini ayinlərin icrası, cənazənin kremasiya olunması, qəbirüstü tikililərin hazırlanması, quraşdırılması və digər xidmətlər də bura aiddir. Azərbaycanda fəaliyyətdə olan qəbiristanlıqlar əsasən bu qaydalar qüvvəyə mindiyi vaxta qədər salındığından, deməli, respublikadakı qəbiristanlıqların mütləq əksəriyyəti dəfn xidmətlərindən yararlana bilmir. Buna görə də qəbiristanlıqların tabe olduğu bələdiyyələr bu sahədən gəlir əldə edə bilmirlər və bu, qəbiristanlıqların idarə edilməsində çətinliklər yaradır.

Elə buna görə də qaydaların qüvvəyə minməsinə qədər mövcud olan qəbiristanlıqlarda həyata keçirilən xidmətlərlə bağlı hesabatlılıq yoxdur. Orxan Musayev deyir ki, dəfn üçün yer ayrıldıqdan sonra göstərilən xidmətlərin heç birinin hesabatı aparılmır. Yəni nə qəbir qazılmasının, nə məzar ətrafının abadlaşdırılmasının, nə digər görülən işlərin hesabatlılığı var. Əlbəttə, bu xidmətlərin hər biri onu göstərən vətəndaşların məşğulluğu və qazancı deməkdir. Amma hazırda bu sahədə heç bir hesabatlılıq olmadığından, demək, şəffaflıq da yoxdur.

Deputat Kamran Bayramov bildirir ki, köhnə qəbiristanlıqlarda dəfn xidmətləri ilə yalnız bir qurumun məşğul olması şərt deyil. Əsas odur ki, bələdiyyələr bu xidmətlərin həyata keçirilməsinə nəzarəti təmin edə bilsinlər. Elə bu məsələnin özü də bələdiyyələr üçün bir sınaqdır. Bu, bələdiyyələrin öz vəzifələrini necə yerinə yetirməsinin qiymətləndirilməsi baxımından mühüm məqamdır.

Məsələn, Xırdalan bələdiyyəsi vətəndaşlara xidmət göstərəcək müvafiq müəssisənin yaradılmasını planlaşdırır. Bələdiyyələrin nəzdində belə bir müəssisənin formalaşdırılmasının mümkünlüyü qanunvericiliklə də təsbit olunub. Orxan Musayevin sözlərinə görə, bir dəfn orta hesabla təxminən 500 manata yaxın vəsait tələb edir. Amma bu vəsaitdən bələdiyyəyə heç nə çatmır. Eyni zamanda vəfat edənlərin qohumları qəbir ərazilərinin təmizliyi və abadlığı üçün müəyyən vəsait sərf edirlər. Bələdiyyə sədrinin fikrincə, həmin işlərin müqavilə əsasında bələdiyyə müəssisələrinə həvalə olunması vətəndaşların razılığına səbəb olar. Üstəlik, bələdiyyə müəssisəsinin dəfnlə bağlı xidmətlərinin qiyməti bu gün qəbiristanlıqlarda təklif olunan faktiki qiymətlərdən də ucuz olacaq. Bununla həm də qəbiristanlıqların idarəedilməsində imkanları artar, həm də bu sahədə məşğulluq və digər məsələlər barədə dəqiq hesabatlılıq olar. Beynəlxalq praktikada da belədir. Belə olduğu təqdirdə qəbiristanlıqlarda fəaliyyət göstərən insanlara da şirkətin əməkdaşları kimi qalıb fəaliyyət göstərmək təklif olunacaq. "Hazırda Xırdalan bələdiyyəsi digər sahələrdə alınan vergi hesabına qəbiristanlığa xidmət həyata keçirir. Amma bu gün görürük ki, bu vəsaiti qəbiristanlığın idarə edilməsində də əldə etmək mümkündür. Bu baxımdan qeyd etdiyim şirkətin yaradılmasından sonra əldə ediləcək vəsait qəbiristanlığın abadlığı, işıqlandırılması, mühafizəsi ilə bağlı bütün xərcləri qarşılayacaq" deyə Orxan Musayev bildirir.

Kamran Bayramov da bələdiyyə müəssisələrinin yaradılmasını müsbət dəyərləndirir: "Düşünürəm ki, qəbiristanlıqların idarə olunması üçün bələdiyyə müəssisələrinin yaradılması yaxşı olardı. Çünki qaydalarda dəfn xidmətlərinin göstərilməsinin də bələdiyyə tərəfindən həyata keçirilməsi nəzərdə tutulur. Bu da yerli özünüidarəetmənin büdcəsinin doldurulması baxımından çox vacib məsələdir".

Deputat məsələ ilə bağlı monitorinq keçirilməsini də təklif edir. Onun fikrincə, belə monitorinqlərin keçirilməsi həm ictimaiyyət, həm aidiyyəti qurumlar tərəfindən Nazirlər Kabinetinin Qərarı ilə təsdiq olunmuş Qaydaların icrası vəziyyətinin qiymətləndirilməsi baxımından əhəmiyyətli olardı.

### Qaydalar yeni salınan qəbiristanlıqlar üçün mükəmməldir

Hazırda qəbiristanlıqlardakı problemlərdən biri də bələdiyyələrin balansında olan ərazilərdə digər mülkiyyət formalarında fəaliyyət sahələrinin mövcud olmasıdır. Məsələn, Xırdalan qəbiristanlığındakı məzar daşı sexinin əmlak qeydiyyatı sənədi keçmiş İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətindən alınıb. Orxan Musayevin fikrincə, vaxtilə belə sahibkarlıq subyektləri mülkiyyət sənədlərini Əmlak Məsələləri Dövlət Xidmətindən alsalar da, hazırda bu cür şərtlərlə fəaliyyətin həyata keçirilməsi Nazirlər Kabinetinin "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları" ilə ziddiyyət təşkil edir. Bu da ondan irəli gəlir ki, qəbiristanlıqlar bələdiyyələrin balansına verilərkən real vəziyyətin qiymətləndirilməsi aparılmayıb. Ona görə hazırda bələdiyyə torpağında fəaliyyət göstərsə də, belə sahibkarlıq subyektləri bələdiyyəyə vergi ödəmirlər və onların fəaliyyətinin tənzimlənməsinin bələdiyyələrin səlahiyyətinə aid edilməsi hüquqi baxımdan daha düzgün olardı.

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzindən də bildirirlər ki, qəbiristanlıqlar bələdiyyələrin idarəçiliyinə verilərkən ortaya çıxan çətinliklərin müəyyən hallarda səbəbi qəbiristanlıqların balans sahibinin məlum olmaması olsa da, digər hallarda aidiyyəti qurumlar tərəfindən qəbiristanlıqların və onların ərazisində fəaliyyət göstərən məzar daşı sexlərinin müvafiq bələdiyyələrə təhvil verilməsinin ləngidilməsidir.

Qəbiristanlığın idarəçiliyi ilə bağlı elə məsələlər var ki, onları hüquqi baxımdan tənzimləmək çətindir, çünki ortada mənəvi-psixoloji problemlər var. Məsələn, bunlardan biri vəfat edənin yaxınları tərəfindən geniş torpaq ərazinin hasara alınmasıdır. 2018-ci ildə təsdiq edilmiş "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"na əsasən qonşu qəbir yerinin əvvəlcədən rezervasiyasına yalnız dəfn edilmiş şəxsin ərinin (arvadının) yazılı müraciəti əsasında yol verilir. Amma bu qaydalara qədər bir çox vətəndaş doğmasının dəfn olunduğu ərazidə qəbir yeri rezervasiya edib. Hansı ki, onları ər-arvad yox, başqa qohumluq əlaqələri bağlayır. İndi həmin adamlara bunun düzgün olmadığını demək və rezervasiya yerini geri istəmək mənəvi-psixoloji gərginliyə yol açır.

Ümumilikdə götürdükdə Nazirlər Kabinetinin "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları" mükəmməldir. Amma yeni salınan qəbiristanlıqlar üçün. Çünki qaydalarda idarəçiliklə bağlı nəzərdə tutulan məsələləri yeni qəbiristanlıqlarda tətbiq etmək hüquqi baxımdan daha rahatdır.

*Əvvəldən mövcud olan qəbiristanlıqlara gəldikdə, vətəndaşları daha çox narahat edən məqamlarda bu Qaydalar işlək hüquqi normaya çevrilə bilmir. Ona görə qəbiristanlıqları idarəedənlər dəyişsələr də, onların böyük əksəriyyətində problemlər hələ də qalır və bu minvalla onlar bağlı elan edilənə qədər də qalacaq...*

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Abzas Media" sahiblərinin "diqqətindən yayınan" korrupsiya halları

**"Abzas Media" abunə sistemi ilə işləmir. Onun hazırladığı məhsulların daimi alıcıları yoxdur. Sərbəst oxucular üçün də kod sistemi tətbiq etməyib. Yəni informasiyalarını ödənişsiz təqdim edir. Saytda elan, reklam, bir sözlə, normal KİV qurumu üçün qazanc gətirən digər bir element də görünmür... Həm milli, həm də beynəlxalq standartlar KİV qurumlarının maliyyələşməsi üçün fərqli mənbə tanımır.**

Beynəlxalq sənədlərdə qeyd edilir ki, normal fəaliyyət göstərən KİV qurumunun legitim maliyyə mənbəyi reklam və elanlardır. Maliyyəsinin ən azı 75 faizi reklam və elandan formalaşmalıdır ki, müstəqil fəaliyyət göstərə bilsin. Digər 25 faiz isə satışdan, abunədən, ianələrdən, qrantlardan, təsisçinin yardımından və sair qaynaqlardan formalaşmalıdır. Əgər bunların heç biri yoxdursa, "Abzas Media"nın maliyyə mənbəyi haradan formalaşır? İlkin şübhələr də buradan qaynaqlanır. "Abzas Media" qrupunun heç bir şəffaf maliyyə qaynağı yoxdur. Əgər stabil maliyyə qaynağı yoxdursa, redaksiya ofisinin icarəsi, işçilərin əməkhaqqı fondu, texniki avadanlıqlar təminatı və digər xərclər üçün zəruri olan vəsait hansı mənbədən ödənir? Əlavə edək ki, "Abzas Media" ölkədəki KİV-dən daha təminatlı görünür. Diqqət yetirək: saytın direktoru "xarici ölkəyə səfər edərkən", baş redaktoru isə "xarici ölkədən səfərdən qayıdarkən saxlanılıb",- xəbərlərdə yazılır. Bu cür təminatlı fəaliyyət üçün yetərli maliyyə olması zəruridir.

İnformasiya agentliyinin məlumatına görə, adıçəkilən xərclər bir yana, hüquq-mühafizə orqanlarının saytın redaksiyasından götürüb sənədləşdirdikləri 40 min avro vəsait haradandır? Redaksiya rəhbərliyi gündəlik zəruri xərcləri ödəyə bilirsə, istədiyi vaxt xarici ölkələrə səfər edirsə, hətta ehtiyata 40 min avro vəsait saxlaya bilirsə, deməli, onun stabil maliyyə qaynağı mövcuddur. Amma hansı mənbədir ki, gözünü yumub bu qədər maliyyəni "Abzas Media"ya təmənnasız ötürür? Nə marağı var? Axı saytın heç normal oxucusu da yoxdur. Oxucu qıtlığını nəzərə alaraq saytın üzərində ümumi sayğac da yerləşdirməyiblər ki, ictimai rəydə təsir imkanlarının olmadığı görünməsin.

İş ondadır ki, "Abzas Media"nın nə sahibləri, nə də müdafiəçiləri bu suallara toxunmurlar. Sanki normal bir hal imiş kimi üzərindən keçirlər. "Qrant şəbəkəsinin" üzvü olan təşkilatlar heç bir dəqiqləşdirmə aparmadan bəyanatlar yayırlar. "Abzas Media"nın guya "müstəqil KİV qurumu olduğunu, direktor Ülvi Həsənlinin də məhz "həqiqəti yazdığına görə həbs edildiyini" bildirirlər. "Sərhədsiz Reportyorlar" operativ şəkildə bəyanat yayaraq bunu "müstəqil mediaya təzyiq" kimi qiymətləndirib. Müdafiə bəyanatlarında iddia olunur ki, guya "Abzas Media" "ölkədəki korrupsiya hallarını araşdırdığı üçün susdurulub". Soruşan yoxdur ki, özü korrupsiya və rüşvət içində batmış, qeyri-leqal fondlardan maliyyələşən bir "KİV qurumu" korrupsiya hallarını necə araşdırır? "Abzas Media" hansı maliyyə qaynağına söykənərək müstəqil fəaliyyət göstərə bilir? Axı yuxarıda qeyd etdik: KİV qurumunun müstəqil fəaliyyət göstərdiyini ehtiva edən elementlərin heç biri "Abzas Media"da mövcud deyil.

Amma cavabsız qalan suallar təkcə "Abzas Media"nın redaksiyası ilə bağlı deyil. Onun "müdafiə prosesi"ndə də diqqətçəkən nüanslar üzə çıxır. Ölkədə qondarma KİV qurumlarının, "jurnalistlərin" istintaqa cəlb edilməsi halı ilk dəfə baş vermir. Amma onların heç birində indiki qədər mütəşəkkil "müdafiə işi" qurulmayıb. "Amerikanın səsi", "Turan" İnformasiya Agentliyi, "Toplum TV" və digər şəbəkə üzvləri gecə-gündüz deməkdən təbliğat aparırlar, "Abzas Media"nı "müstəqil və peşəkar" KİV qurumu kimi təqdim edirlər. İşə "radikal müxalifətçilər" də qatılıblar. "Milli Şura", Xalq Cəbhəsi Partiyası və digərləri bəyanat yayaraq, Ülvi Həsənlinin saxlanılmasını "müstəqil mediaya basqı" kimi dəyərləndiriblər. Görünən budur ki, çox tələsirlər. İstintaqı aparan rəsmi orqanların rəyini gözləmədən şərhlər verirlər. İsbat edə bilməyəcəkləri arqumentlər səsləndirirlər. Sanki tarana gedirlər. Təzyiq göstərib istintaq prosesini dayandırmaq istəyirlər. Nədən həyəcanlanıblar, nə etmək istəyirlər?

Onları narahat edən məsələ "Abzas Media"nın taleyi deyil. Sabah, biri gün onun bənzərində başqa bir "KİV qurumu" yaradıb öz sıralarına qata, yollarına davam edə bilərlər. Problem bu deyil. Narahatlıq doğuran məsələ "Abzas Media"nın ittiham olunduğu mövzudadır. İstintaq prosesində "Abzas Media"nın Qərb institutlarından külli miqdarda maliyyə vəsaiti aldığı müəyyən edilib. Sıralarında USAİD, "People in Need", "Euro Media Group" və digərləri vardır. Alınan vəsait qeydiyyatsız olaraq ölkəyə gətirilib, qeyri-leqal formada realizə edilib. Maliyyələşmədə adsız kartlardan da istifadə olunub.

*İstintaq davam edir. Yəqin ki, prosesin gedişində indiyədək bilinməyən yeni nüanslar ortaya çıxacaq. Qanunsuz "Qrant trafiki" üçün tətbiq edilmiş maxinasiyaların üstü açılacaq. Hansı ki, o maxinasiyalardan təkcə "Abzas Media" istifadə etməyib. "Müdafiəçi təşkilatlar" da faydalanıblar.*

ABŞ başda olmaqla Qərb mərkəzləri Azərbaycanda geniş agentura şəbəkəsi qurublar. İzi azdırmaq üçün onların adını "KİV qurumu", "QHT", "Siyasi partiya" qoyublar. Yəni öz agentlərini məsuliyyətdən yayındırmaq üçün hüquqi platforma yaradıblar. Qrant vermək adı altında onlar üçün "qanuni maliyyə mənbəyi" təmin ediblər. Azərbaycan 2000-ci illərdən başlayaraq bu şəbəkəni qismən ifşa edib. Zərərsizləşdirmək üçün qanunvericiliyi yeniləyib. 2014-cü ildə qrantalma prosedurlarını sərtləşdirib. Digər zəruri tədbirlər görüb.

İndi bəlli olur ki, Azərbaycan ehtiyat tədbirləri gördüyü kimi, "qrant şəbəkəsi" də çevik tərpənib. Qeyri-leqal vəsaitin ölkəyə gətirilib agentura şəbəkəsinə çatdırılması üçün son 6 il ərzində tamamilə yeni metodlardan istifadə edib. Məsələn, Norveçin Azərbaycanda keçmiş səfiri Steynar Gil 2003-2005-ci illərdə qanunları pozduğuna, siyasi proseslərə açıq müdaxilə etdiyinə görə Azərbaycandan qovulmuşdu. Onun himayəsində olan fondların fəaliyyəti isə dayandırıldı. Amma bu gün bəlli olur ki, Norveç fondları Azərbaycandan zahirən getsələr də, buradakı fəaliyyətlərini davam etdiriblər. "Abzas Media"nı maliyyələşdiriblər. Amma heç bir halda, heç bir yerdə görünməyiblər, adları çəkilməyib. Yəni üzdə USAİD görünür, alt qatda işi Norveç fondları işləyir. Belə fondların sayı çoxdur. Onların maliyyələşdirdikləri, daha doğrusu, qanunsuz vəsait çatdırdıqları təşkilatların da sayları çoxdur.

"Abzas Media" üzərində açılmış istintaq işi bütün bu dolaşıq proseslərə aydınlıq gətirəcək. Çox güman ki, işin bir ucu da "müdafiəçi təşkilatlara" qədər uzanacaq. Narahatlıq bu məqamdan qaynaqlanır. Həyəcan keçirirlər, tələsirlər, təzyiq edib prosesi dayandırmaq istəyirlər.

ABŞ və onun Qərbdəki yançıları Azərbaycandan nə istəyirlər? Qərbin indiki planlarının arxasında Azərbaycan xalqının iradəsinə təsir göstərmək, xalqımızın qələbəsinə, torpaqların işğaldan azad olunmasına kölgə salmaq istəyirlər. Xalqla dövlət arasında inamsızlıq yaratmaq, cəmiyyəti parçalamaq və ölkəni qarşıdurma zonasına çevirmək niyyətindədirlər. Azərbaycan Ordusunun əzib dağıtdığı Ermənistan ordusunu yenidən dirçəldirlər. Qalib Azərbaycanın deyil, məğlub və işğalçı Ermənistanın şərtlərinə uyğun sülh müqaviləsi bağlatdırmaq istəyirlər. Bəs onların agenturası rolunda çıxış edən milli "QHT", "KİV" qurumları, "Milli Şura" ətrafında birləşmiş partiyalar nə istəyirlər?

Ümid edirik ki, istintaq prosesi bütün bu suallara aydınlıq gətirəcək.

# Mingəçevir şəhərində "Mənəviyyatımızı və gələcəyimizi narkotiklərə qurban verməyək!" mövzusunda tədbir keçirilib



**Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2023-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq noyabrın 23-də Mingəçevir şəhərində "Mənəviyyatımızı və gələcəyimizi narkotiklərə qurban verməyək!" mövzusunda tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonlarını təmsil edən gənclər iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.

Tədbirdə Dövlət himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə YAP Mingəçevir Şəhər Təşkilatının sədri Bəxtiyar Mustafayev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı Xaliq Qurbanov, Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov və Mingəçevir Şəhər Polis Şöbəsinin rəisi, polis polkovniki Ədalət Əliyev çıxış ediblər.

Qeyd olunub ki, sağlam cəmiyyətin formalaşması üçün narkomaniya ilə mübarizə mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə əsas məqsəd yeniyetmə və gənclərin belə zərərli vərdişlərdən uzaq durmalarına nail olmaq və maarifləndirmə işini lazımi səviyyədə aparmaqdır. Diqqətə çatdırılıb ki, narkomanlığa və narkotiklərə qarşı effektiv mübarizə aparan ölkələrdən biri də Azərbaycandır. Ölkəmizdə bu istiqamətdə atılan addımlar, həyata keçirilən mübarizə tədbirləri nəticəsində mühüm uğurlar əldə olunub. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda məhz maarifləndirmə məsələlərinə xüsusi yer verildiyi qeyd edilib.

Eyni zamanda vurğulanıb ki, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyanı ciddi narahat edən qlobal problemlərdən biri olmaqla bərabər, insanların sağlamlığına təhlükə yaradan, cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən amildir. Narkomaniya ilə mübarizə vəzifəsindən, sosial mənşəyindən, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq hər kəsin vətəndaşlıq və mənəvi borcuna çevrilməlidir.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb və mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təbliği məqsədilə Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanıb.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Ölkəmizə repatriasiya olunmuş daha 12 nəfərlə bağlı sosial-psixoloji dəstək işlərinə başlanılıb

**Azərbaycan hökuməti tərəfindən repatriasiya işlərinin davamı olaraq, Suriya Ərəb Respublikasından daha 12 nəfər vətəndaşımız ölkəmizə qaytarılıb. Onlardan 4-ü qadın, 8-i uşaqdır.**

Repatriasiya olunmuş həmin şəxslər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin müvafiq sosial xidmət müəssisəsinə yerləşdirilib. Repatriantlara ilkin tibbi, sosial-psixoloji dəstək işlərinə başlanılıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, növbəti mərhələdə agentliyin sosial işçiləri və psixoloqları tərəfindən onların sosial-psixoloji vəziyyətləri qiymətləndiriləcək və hər bir repatriantla bağlı fərdi inkişaf planı əsasında psixoloji dəstək tədbirləri həyata keçiriləcək.

Repatriantların sosial reabilitasiyası onlar öz mənşə ailələrinə verildikdən sonra da davam etdirilir. Onlara sosial dəstək xidmətləri digər aidiyyəti orqanlarla qarşılıqlı əməkdaşlıq şəraitində həyata keçirilir. Ölkəyə qaytarılan vətəndaşlarımızın cəmiyyətə reinteqrasiyası və sosial reabilitasiyası məqsədilə agentliyin mütəxəssisləri tərəfindən fərdi sosial iş aparılır. Həmin şəxslər psixoloji konsultasiyalara, maarifləndirici tədbirlərə, eləcə də asudə vaxtlarının səmərəli təşkili məqsədilə müxtəlif dərnəklərə cəlb edilirlər.

# Müdafiə Nazirliyinin rəhbər heyətinin Gürcüstana işgüzar səfəri davam edir

**Azərbaycan Respublikasının müdafiə nazirinin müavinləri Baş direktor Aqil Qurbanov və Hərbi Hava Qüvvələrinin Komandanı general-leytenant Ramiz Tahirovun Gürcüstanda işgüzar səfərləri davam edir.**



Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Müdafiə Nazirliyinin rəhbər heyəti Tbilisi şəhərində yerləşən "Delta" Dövlət Hərbi Elmi-Texniki Mərkəzini ziyarət edib.

Mərkəzdə keçirilən görüşdə hərbi-texniki əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# *"Doğu Akdeniz-2023" təlimi:*

## Helikopterlərdən gəmiyə enən hərbçilər Azərbaycan və Türkiyə bayraqlarını qaldırıblar



**Qardaş ölkə Türkiyədə "Doğu Akdeniz-2023" beynəlxalq təliminin noyabrın 23-də "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanı donanma admiralı Ercüment Tatlıoğlu ilə yanaşı Azərbaycan HDQ-nin, eləcə də digər dost və müttəfiq ölkələrin nümayəndələri də iştirak ediblər.

Qonaqlar təlimin növbəti epizodları üzrə tapşırıqların icrasını izləyiblər. Ssenariyə əsasən baş vermiş zəlzələ səbəbindən vətəndaşların, o cümlədən yaralıların sahildən TCG Anadolu gəmisinə təxliyəsi tapşırıqları uğurla yerinə yetirilib. Helikopterlərdən gəmiyə enən hərbi qulluqçuların Azərbaycan və Türkiyə bayraqlarını dalğalandırması böyük maraqla qarşılanıb.

Azərbaycan HDQ Dəniz Xüsusi Təyinatlılar dəstəsinin bir qrup şəxsi heyətinin də iştirak etdiyi "Doğu Akdeniz-2023" beynəlxalq təliminin gedişatı müsbət qiymətləndirilib.

# *TƏBİB:* "Ölkə ərazisində qızılca xəstəliyinə yoluxma halları müşahidə edilir"

## Yoluxmalar daha çox məktəb və bağça yaşlı uşaqlar arasında üstünlük təşkil edir

**Hazırda ölkə ərazisində qızılca xəstəliyinə yoluxma halları müşahidə edilir.**

Bu barədə qızılca ilə bağlı ölkədəki epidemioloji vəziyyətə dair AZƏRTAC-ın sualını cavablandıraraq TƏBİB-dən bildirilib.

Məlumatda deyilir: "Bir çoxunuza məlum olduğu kimi, ölkəmizdə qızılca xəstəliyinə son illər ərzində yoluxma nadir hallarda qeydə alınıb, hətta bəzi illərdə, ümumiyyətlə, yoluxma olmayıb, ən yüksək yoluxma isə 2018-ci ildə qeydə alınıb. Bu da daha çox 40 yaşdan yuxarı əhali arasında müşahidə olunub və dövlət tərəfindən təqvimdən kənar peyvənd kampaniyalarına başlanılıb.

Qızılca xəstəliyinə yoluxmaların bu tipli artımları Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən proqnozlaşdırılmışdır. Belə ki, hazırda Avropa regionunda da yoluxma sayları payız-qız aylarında artım göstərməkdədir. Bunun əsas səbəbi peyvəndlənmə yaş dövrünün COVID-19 pandemiyasına təsadüf edən uşaqların olmasıdır ki, məhdudlaşma tədbirlərinə bağlı olaraq onlar peyvəndlənmədən kənar qalıblar.

Hazırda yoluxmalar daha çox məktəb və bağça yaşlı uşaqlar arasında üstünlük təşkil edir. Bu xəstəlik uşaqlıq dövrünün infeksion xəstəliklərindən hesab olunur, virus mənşəli xəstəlikdir və özü sağalan xəstəliklər qrupuna daxildir. Yəni bu, o deməkdir ki, xəstəliyin xüsusi spesifik müalicəsi yoxdur. Qızılca xəstəliyi adətən stasionar müalicəyə ehtiyacı olmayan, ev şəraitində izolyasiya olunaraq müalicə edilən xəstəlikdir. Bu xəstələr ailə sağlamlıq mərkəzlərinin həkimləri tərəfindən nəzarətə götürülür. Bir sıra hallarda yoluxmuş şəxslərdə xəstəliyin ağırlaşma halları baş verə bilər. Bunlara pnevmoniya, orta qulağın iltihabı, bağırsaq mənşəli ağırlaşmalar, ensefalit, meningit və s. aiddir. Belə olan hallarda xəstələr TƏBİB-in tabeli tibb müəssisələrində fəaliyyət göstərən yoluxucu xəstəliklər şöbələrinə yatırılaraq müalicəyə cəlb olunurlar. Müalicə xərcləri icbari tibbi sığortanın xidmətlər zərfi çərçivəsində ödənilir.

Nəzərinizə çatdırmaq istəyirik ki, TƏBİB-in tabeliyində Bakı şəhəri üzrə 17, Sumqayıt şəhəri üzrə 2, regionlarda isə 48 yoluxucu xəstəliklər şöbəsi fəaliyyət göstərir, çarpayı sayı cəmi 1400-ə qədərdir.

Bu günə olan məlumata əsasən, bütün regionlar, Sumqayıt və paytaxt ərazisində yoluxma sayları nəzarət altındadır, yoluxucu xəstəliklər şöbələrində kifayət sayda boş çarpayılar, ağırlaşma hallarının idarə olunması və ehtiyac yaranan hallarda xəstələri tibbi xidmətlə təmin etmək üçün bütün resurslar mövcuddur.

Bir daha qeyd edirik ki, ağırlaşma halları ilə müraciət edən xəstələr qızılca əleyhinə peyvənd olunmamışlardır.

Əlavə edək ki, qızılca xəstəliyinə qarşı spesifik vaksin mövcuddur və milli peyvənd təqviminə daxil edilib. Sözügedən peyvənd uşaqlara 12 aylığında və 6 yaşında tətbiq olunur. Xəstəliyə yoluxmaqdan, baş verə biləcək ağırlaşmalardan, bu ağırlaşmaların gələcək fəsadlarından qorunmaq üçün vaksinasiya olduqca vacibdir. Qızılca əleyhinə peyvənd ölkəmizdə milli peyvənd təqviminə 1994-cü ildə daxil olub və hazırda bütün ailə sağlamlıq mərkəzlərində ödənişsiz şəkildə tətbiq olunur".

# UNESCO-nun mənzil-qərargahında Əcəmi Naxçıvaninin anadan olmasının 900 illiyi qeyd olunacaq

**2024-2025-ci illərdə UNESCO-nun yubileylər proqramı çərçivəsində təşkilatın baş qərargahında Azərbaycanın görkəmli şəxsiyyəti, memar Əcəmi ibn Əbubəkr Naxçıvaninin anadan olmasının 900 illiyi və "Divani-lüğəti-türk"ün isə 950 illiyi qeyd ediləcək.**



AZƏRTAC xəbər verir ki, hər iki tədbir UNESCO-nun Baş konfransının 42-ci sessiyasında müvafiq qərarla yubileylər siyahısına daxil edilib.

UNESCO 1956-cı ildən etibarən görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileylərini qeyd edir. İndiyədək Məhəmməd Füzuli, Nəsirəddin Tusi, Məhsəti Gəncəvi, Seyid Yəhya Bakuvi, Yusif Məmmədəliyev, Mir Cəlal Paşayev, Musa Əliyev, Səttar Bəhlulzadə kimi dahi şəxsiyyətlərin, eləcə də "Kitabi-Dədə Qorqud" dastanının, "Leyli və Məcnun", "Arşın mal alan" operalarının yubileyləri UNESCO tərəfindən beynəlxalq səviyyədə qeyd edilib.

Yubileylər proqramı çərçivəsində keçirilən tədbirlər ölkəmizin zəngin mədəniyyətinin UNESCO tərəfindən tanınmasına və Azərbaycanın görkəmli şəxsiyyətləri və əlamətdar hadisələri barədə geniş auditoriyaya məlumatın çatdırılmasına imkan yaradır.

**"Şərur" MTK ilə Elşən Rakif oğlu Süleymanov arasında bağlanmış Bakı şəhəri, Yasamal rayonu, Əsəd Əhmədov küçəsi, ev 24/13, blok 5, 39 nömrəli mənzilə dair müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Abdin Fərzəliyev və Abşeron Rayon İcra Hakimiyyətinin kollektivi Milli Məclisin Sədr müavini Fəzail İbrahimliyə bacısı

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İba Həsənov, Mütalib Şirinov, Vahid Alışov, Aydın Məmmədov, Rasim Hüseynov, Hacı, Rəşad və Fuad Hacıyevlər Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidmətinin əməkdaşı Fəxrəddin Ələkbərova əzizi

**ADİLƏ MİRMÖHÜBBƏDDİN QIZI HACIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5328
Sifariş 3052

Qiyməti 40 qəpik